Xalqın qəzeti!
# Xalq qəzeti
№ 114 (30230) 1 iyun 2023-cü il, cümə axşamı
Gündəlik ictimai-siyasi nəşr
1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | veb-sayt: www.xalqqazeti.az

**Günün sözü**

**Prezident İlham Əliyev:**

**Biz özümüzü enerji sahəsində nəhəng transformasiya prosesinin tərkib hissəsi hesab edirik. Azərbaycan çalışır ki, bu məsələdə geridə qalmasın, əslində, lider, aparıcı ölkə olsun. Burada söhbət yenilənən, bərpaolunan enerjidən gedir.**

# Azərbaycan qlobal enerji təşəbbüslərinin önündə gedir

## Prezident İlham Əliyev Bakı Enerji Həftəsi çərçivəsində 28-ci Beynəlxalq Xəzər Neft və Qaz Sərgisinin rəsmi açılış mərasimində iştirak edib







**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 31-də Bakı Ekspo Mərkəzində Bakı Enerji Həftəsi çərçivəsində 28-ci Beynəlxalq Xəzər Neft və Qaz – "Caspian Oil&Gas" və 11-ci Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji – "Caspian Power" sərgilərinin açılışında iştirak edib.**

Tədbirin moderatoru, Böyük Britaniyanın "ICA Group" şirkətinin İdarə Heyətinin məsləhətçisi **Rassel Teylor** çıxış edərək dedi:

– Hörmətli Zati-aliləri cənab Prezident Əliyev.

Xanımlar və cənablar.

Hörmətli qonaqlar.

Burada Bakı Enerji Həftəsinin təşkilat komitəsi adından sizi salamlayıram. Bu il 320 fərqli şirkət 35 ölkəni təmsil edir və bu da toplam olaraq keçən ilin sərgisi ilə müqayisədə 25-30 faiz artım deməkdir. Budəfəki Bakı Enerji Həftəsi, eyni zamanda, önəmli bir hadisə ilə – Azərbaycanın ümummilli lideri Heydər Əliyevin yubileyi ilə üst-üstə düşür. Prezident Əliyev 2023-cü ili "Heydər Əliyev İli" elan edib və buna görə də bütün sərgilərdə, əlbəttə ki, bu mövzuya ayrıca xüsusi bir diqqət yetiriləcəkdir. Sərgi çərçivəsində ulu öndərin 100 illik yubileyinə həsr olunmuş stendimiz də vardır.

Əlbəttə ki, biz böyük məmnuniyyətlə Azərbaycan Respublikasının Energetika Nazirliyinə təşəkkürümüzü, həmçinin SOCAR-a – Azərbaycan Dövlət Neft Şirkətinə də minnətdarlığımızı bildiririk. Bakı Enerji Həftəsinə dəstəyinizə görə minnətdaram.

Hörmətli Zati-aliləri, biz, eyni zamanda, bu tədbiri dəstəklədiyinizə görə Sizə ayrıca minnətdarıq. Ənənəvi olaraq açılış mərasimində iştirakınız bu önəmi bir daha vurğulayır və bütövlükdə enerji sahəsinə olan bir töhfədir.

Xanımlar və cənablar, mən sizin hər birinizə uğurlar və bu həftə ərzində məhsuldar görüşlər arzulayıram, təşəkkür edirəm. İndi isə sözü Zati-aliləri, cənab Prezidentə verirəm. Buyurun, cənab Prezident.

*

Dövlətimizin başçısı açılış mərasimində çıxış etdi.

(ardı 2-ci səhifədə)

# ABŞ Azərbaycanda islahatları, Cənubi Qafqazda sülhü dəstəkləyir

**Amerika Birləşmiş Ştatlarının Prezidenti Cozef Bayden Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə məktub ünvanlayıb. Məktubda bildirilir:**

"Azərbaycan Respublikasının
Prezidenti Zati-aliləri cənab
İlham Əliyevə

*Hörmətli cənab Prezident.*

*Bakıda Beynəlxalq Xəzər Neft-Qaz Sərgisinin keçirildiyi bir vaxtda Sizə və Azərbaycan xalqına ən xoş arzularımı çatdırıram. 30 ildən artıq bir dövrdə Azərbaycan və Amerika Birləşmiş Ştatları transmilli təhlükələrlə mübarizədən inklüziv iqtisadi inkişafa qədər möhkəm tərəfdaşlıq yaradıb.*

*Bu tədbir ölkələrimizin təhlükəsiz və təmiz enerji ilə bağlı gələcəyə birgə sadiqliyini vurğulayır. Azərbaycan bu səylərin həyata keçirilməsində vacib rol oynayır. Azərbaycan təhlükəsiz enerji təchizatına olan tələbatın ödənilməsinə yardım etməkdədir – buraya Cənub Qaz Dəhlizi daxil olmaqla, Orta Dəhlizin inkişafı və enerji çevikliyini gücləndirən enerjinin şaxələndirilməsinin artırılması daxildir. Qlobal iqlim məqsədlərinə nail olmaq üçün Azərbaycanın səyləri, o cümlədən bərpaolunan enerjinin inkişafının artırılmasına və enerji səmərəliliyinin gücləndirilməsinə dair təşəbbüslər məni sevindirir.*

*Bu tədbirlərin, habelə qanunun aliliyinin təşviqinin və Azərbaycan xalqı üçün imkanların artırılmasına yönəlmiş islahatların həyata keçirildiyi dönəmdə ABŞ yanınızda olacaqdır. Bununla yanaşı, biz gələcək nəsillər üçün Cənubi Qafqazda sülhün və rifahın təşviqinə kömək göstərəcək ədalətli və dayanıqlı sülhü dəstəkləməyə davam edəcəyik.*

*Gələn illər ərzində davamlı əməkdaşlığımızı səmimiyyətlə arzulayıram.*

*Hörmətlə,*

Cozef R.BAYDEN,
Amerika Birləşmiş Ştatlarının
Prezidenti"

# Azərbaycan Böyük Britaniyanın etibarlı enerji tərəfdaşıdır

**Böyük Britaniyanın Baş naziri Rişi Sunak Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə məktub ünvanlayıb. Məktubda deyilir:**

"Azərbaycan Respublikasının
Prezidenti Zati-aliləri
cənab İlham Əliyevə

*Hörmətli Prezident Əliyev.*

*Sizə Bakı Enerji Həftəsi ilə bağlı ən xoş arzularımı çatdırıram. İqlim dəyişikliyi ilə mübarizə və enerji təhlükəsizliyinin gücləndirilməsi kimi iki aktual çağırışın olduğu vaxtda Bakı Enerji Həftəsinin dövlət və özəl sektoru təmsil edən beynəlxalq düşüncə liderlərini bir araya gətirməsi heç vaxt olmadığı qədər önəmlidir.*

*Etibarlı enerji tərəfdaşı olan Azərbaycan qlobal enerji müstəvisində vacib rola malikdir. Azərbaycanın 2027-ci ilədək Avropaya nəql ediləcək təbii qazın həcminin 20 milyard kubmetrə qədər artırılması məsələsinə sadiqliyi artıq Avropanın enerji təhlükəsizliyinə töhfə verməkdədir. Təchizatın şaxələndirilməsi enerjinin Rusiya tərəfindən geosiyasi silah kimi istifadəsinə son qoyulması baxımından əhəmiyyətlidir.*

*Mən, həmçinin Azərbaycanın nəhəng bərpaolunan enerji potensialının inkişaf etdirilməsi və yaşıl enerjinin ixracatçısına çevrilməsi istiqamətindəki səylərinizi alqışlayıram. Bu məqsədlərə nail olmaq üçün enerjinin ötürülməsi sahəsində avropalı tərəfdaşlarla əməkdaşlıq əhəmiyyətli olacaqdır. Azərbaycandan Avropaya bərpaolunan elektrik enerjisinin nəqlini hədəfləyən Cənub Qaz Dəhlizinin Yaşıl Enerji və Qara dəniz sualtı kabel layihəsi üzrə ilk Məşvərət Şurasının yaradılması xüsusilə ümidvericidir.*

*Ötən iki il ərzində Birləşmiş Krallıq imkanların artırılması və maariflənmə proqramları vasitəsilə Azərbaycanın enerji keçidini dəstəkləmişdir. Bu təşəbbüslər Azərbaycanın daha dayanıqlı enerji gələcəyinin təmin edilməsi ilə yanaşı, iqlim dəyişikliyinin təsirinə qarşı çevikliyini gücləndirəcəkdir. Biz belə təşəbbüslərin bəzilərinin vacib elementlərini özündə əks etdirən yeni nəşri Bakı Enerji Həftəsi çərçivəsində təqdim edəcəyik. Nəşrdə enerji keçidi ilə bağlı müəyyən çağırışların öhdəsindən gəlmək üçün Britaniya şirkətlərinin Azərbaycana hansı köməyi göstərə biləcəyi işıqlandırılacaqdır.*

*Bu fürsətdən istifadə edərək, təmiz enerjiyə keçid və iqlim dəyişikliyi ilə mübarizə sahəsində kollektiv səylərimizin sürətləndirilməsi məqsədilə Birləşmiş Krallığın enerji sektorunda Azərbaycan və beynəlxalq tərəfdaşlarla birgə işləməyə sadiqliyini bir daha vurğulayıram.*

*Bakı Enerji Həftəsinin kifayət qədər uğurlu olacağına ümidvaram.*

*Hörmətlə,*

Rişi SUNAK,
Böyük Britaniyanın Baş naziri"



## "Nə hərb, nə sülh"ün sonuna nə qədər qalıb?

Səhifə ⇨ 11



## Türkiyədə seçki təntənəsi: 85 milyonluq millətin qələbəsi!

Səhifə ⇨ 15

## İsrail bazarının böyük potensialı var



Səhifə ⇨ 9

## Böyük qayıdışın növbəti hədəfi Qərbi Azərbaycandır




Səhifə ⇨ 16




## Taksi fəaliyyəti: vahid nəzarət sistemi niyə yoxdur?

Səhifə ⇨ 13

## Azərbaycanın ilk qadın Olimpiya çempionu Beynəlxalq "Woman Sport" mükafatına layiq görülüb



Səhifə ⇨ 19

## Şuşa – tarix və qəhrəmanlıq zirvəsi



Səhifə ⇨ 14

# Gözlər Kişineudadır: Bakı–İrəvan gərginliyi, nizamlamanın Qərb xətti və iflas riskləri

## *Azərbaycan və Ermənistan liderlərinin Moldova görüşünə baxış*

**Bu gün Moldovanın paytaxtı Kişineuda Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan yenidən üz-üzə gələcək. Bu, son iyirmi gündə Cənubi Qafqaz liderləri arasındakı sayca üçüncü təmasdır. Mövzunun konkret məqamlarına nəzər salmazdan əvvəl bildiririk ki, ötən ay Azərbaycanın və Ermənistanın rəsmi şəxsləri arasında görüşlərin intensivliyi baxımından əlamətdar olub.**

Söhbət mayın 1-dən 4-dək hər iki ölkənin Xarici İşlər nazirlərinin ABŞ Dövlət Departamentinin rəhbəri Antoni Blinkenin vasitəçiliyi ilə Vaşinqtonda və Arlinqtonda keçirilmiş danışıqlarından, habelə, mayın 14-də Prezident İlham Əliyevlə baş nazir Nikol Paşinyan arasında Brüsseldə Avropa İttifaqı Şurasının rəhbəri Şarl Mişelin təşəbbüsü ilə baş tutmuş görüşdən gedir. Əlbəttə, siyahıya mayın 25-də Moskvada Rusiya Prezidenti Vladimir Putinin vasitəçiliyi ilə reallaşmış üçlü təması da əlavə etməliyik.

(ardı 10-cu səhifədə)

# Azərbaycan qlobal enerji təşəbbüslərinin önündə gedir




## Prezident İlham Əliyevin çıxışı

– Hörmətli xanımlar və cənablar.

Hörmətli qonaqlar.

Bakı Enerji Həftəsinə xoş gəlmisiniz. Əvvəlcə bu mühüm tədbirin təşkilatçılarına öz təşəkkürümü bildirirəm. Artıq qeyd edildiyi kimi, 30 ildir – 1994-cü ildən etibarən Xəzər neft-qaz sərgisi Azərbaycana öz potensialını beynəlxalq investorlara təqdim etməyə imkan yaradır. Biz 1994-cü ildə neft strategiyamızın – ulu öndər Heydər Əliyevin neft strategiyasının astanasındaydıq. Bu il biz müasir Azərbaycanın yaradıcısı ulu öndərin 100 yaşını qeyd edirik. 1994-cü ildə ilk neft-qaz sərgisi keçirildi və həmin il məhz "Əsrin müqaviləsi" imzalandı ki, o, ölkəmizdə vəziyyəti kökündən dəyişdi, sərmayələr cəlb edildi, geniş iqtisadi sabitlik təmin olundu və əlbəttə ki, Azərbaycanın firavan gələcəyinin təməli qoyuldu.

1994-cü ildə Birinci Qarabağ müharibəsi başa çatdı, atəşkəs imzalandı və ondan bir neçə ay sonra "Əsrin müqaviləsi" imzalandı. Yəni, o zaman Azərbaycan olduqca riskli bir məkan sayılırdı, müstəqilliyini yeni əldə etmişdi, müstəqilliyimizin 3 yaşı var idi və əlbəttə ki, bir çox insan Azərbaycan haqqında məlumata malik deyildi, ölkəmizin harada yerləşdiyini bilmirdi və ölkəmiz keçid dövründə idi, sovet sistemindən bazar iqtisadiyyatına keçid dövrünü yaşayırdı. Bununla yanaşı, ərazilərimizin işğalı, bir milyondan artıq qaçqın-köçkün, vətəndaş qarşıdurması – bütün bunlar, əlbəttə ki, sərmayəçiləri bir növ qorxudurdu. Ona görə də bir çox səylər tələb edildi ki, biz tərəfdaşlarımızı buraya dəvət edə bilək. Məsələn, bizim BP kimi 30 illik tərəfdaşımızı və ilk konsorsiumun ovaxtkı üzvlərini də buraya dəvət etmək üçün olduqca böyük səylər lazım oldu. Bizim neft kəmərlərimiz yox idi, infrastrukturumuz yox idi, hətta ölkədə mülki infrastruktur da geridə qalmışdı. Ona görə də 1994-cü ildə "Əsrin müqaviləsi"-nin imzalanması yeganə addım idi ki, o, Azərbaycana dayanıqlı inkişaf, iqtisadi müstəqillik və bunun nəticəsində də siyasi müstəqillik gətirdi.

Xəzər neft-qaz sərgisi 1994-cü ildə təşkil ediləndə ilk tədbir idi ki, Azərbaycanı dünyanın beynəlxalq enerji ictimaiyyətinə təqdim etdi. Biz təşkilatçılara davamlı dəstəyə görə təşəkkür edirik, eyni zamanda, onu da vurğulamaq istəyirəm və hesab edirəm ki, Bakı Enerji Həftəsi enerji sahəsində aparıcı beynəlxalq tədbirdir. Mənim sözümün təsdiqi o ola bilər ki, kimlər bu tədbirə öz məktublarını ünvanlayır – ABŞ Prezidenti Co Bayden və Böyük Britaniyanın Baş naziri Sunak. Bu, onun göstəricisidir ki, bizim bu tədbir qlobal əhəmiyyətə malikdir. Bu fürsətdən istifadə edərək, mən ABŞ Prezidentinə, Böyük Britaniyanın Baş nazirinə və onların buradakı nümayəndələrinə təşəkkürümü bildirmək istəyirəm ki, bizə xoş sözlər göndəriblər və onların sözləri bizi ruhlandırır.

Biz 30 il ərzində enerji sahəsində uğurlu əməkdaşlıq edirik. Bu gün isə artıq bu sahələr şaxələndirilir, ABŞ və Böyük Britaniya hökumətləri hər zaman bizim bütün təşəbbüslərimizi dəstəkləyiblər ki, Azərbaycan öz resurslarını inkişaf etdirə bilsin. Əvvəlcə bu, neftə aid idi, indi isə qaz sahəsi burada söhbət mövzusudur. Biz nəhəng enerji infrastrukturu yaratmışıq ki, bu, Avrasiyanın enerji xəritəsini dəyişdirib. Bu gün Azərbaycan istehsalçı olaraq həm tranzit ölkələr, həm də istehlakçılar üçün daha təhlükəsiz şərait yaradıb. Bu gün enerji təhlükəsizliyi, əlbəttə ki, milli təhlükəsizliyə bərabərdir və hətta milli təhlükəsizlik gündəliyində ən başlıca yeri tutur.

Bununla yanaşı, mən Avropa İttifaqının burada nümayəndəsini görməyə şadam. Bildiyiniz kimi, Avropa İttifaqı ilə Azərbaycan ötən ilin iyulunda enerji sahəsində strateji tərəfdaşlığa dair Anlaşma Memorandumu imzalayıb. Bu, uğurla icra edilir. Biz artıq enerji dialoqumuzu başlamışıq, uğurla davam edir. Biz Avropa İttifaqı ilə bərabər, Cənub Qaz Dəhlizi Məşvərət Şurasının üzvləriyik, o, hər il fevral ayında Bakı şəhərində baş tutur. O da çox böyük əhəmiyyətə malikdir ki, bizim bütün səylərimiz əlaqələndirilir. Cənub Qaz Dəhlizi artıq istifadəyə veriləndən sonra belə, bu gün bizim yeni vəzifələrimiz var. Ona görə də Avropa İttifaqı ilə Azərbaycanın əməkdaşlığının müsbət məqamları olduqca çoxdur və gələcək potensial da olduqca genişdir.

Biz özümüzü enerji sahəsində nəhəng transformasiya prosesinin tərkib hissəsi hesab edirik. Azərbaycan çalışır ki, bu məsələdə geridə qalmasın, əslində, lider, aparıcı ölkə olsun. Burada söhbət yenilənən, bərpaolunan enerjidən gedir. Mən çox şadam ki, yenilənən enerji ilə bağlı şirkətlər bu gün burada olduqca böyük çoxluq təşkil edir. Əminəm ki, illər keçdikcə bu şirkətlərin sayı artacaq. Yəni, biz tərəfdaşlarımızla birlikdə neft kəmərləri inşa etdik, neft yataqlarına sərmayə qoyduq, daha sonra qaz infrastrukturu inşa etdik. Cənub Qaz Dəhlizi bizim birgə tarixi nailiyyətimizdir, 3500 kilometrdən artıq neft kəmərlərindən ibarət bir sistemdir və o, enerji təhlükəsizliyi və enerji şaxələndirilməsində müstəsna rol oynayır.

Mən hər il Xəzər Neft-Qaz Sərgisində çıxış edəndə deyirdim ki, enerji təhlükəsizliyi təkcə marşrutların şaxələndirilməsi deyil, bu, mənbələrin şaxələndirilməsidir. Bu gün hamı bunu artıq aydın görür ki, bizim halda bu, hər iki məsələdir – həm marşrutlar şaxələndirilir, həm də mənbələr şaxələndirilir. Bizim bu işə çox sadiq olan bir heyətimiz var – beynəlxalq maliyyə institutları, biz hər birimiz vahid komanda kimi çalışırıq ki, enerji təhlükəsizliyini gücləndirək, bir-birimizə müəyyən çətinliklərin öhdəsindən gəlmək üçün dəstək olaq. Onlar situativ çətinliklər və ya strateji çətinliklər ola bilər. Biz bu işdə bir yerdəyik. Mən çox fəxr edirəm ki, Avropa İttifaqının liderləri Azərbaycanı etibarlı tərəfdaş və ümumavropa qaz təchizatçısı adlandırır. Bu, çox vacib bir məsələdir.

Sonuncu Bakı Enerji Həftəsindən bu günə qədər keçirilən tədbirlərə nəzər salsaq görərik ki, bu gün daha çox Avropa ölkəsi Azərbaycanla əməkdaşlıq edir. Mən sonuncu sərgidən bu yana bir neçə mühüm nailiyyəti qeyd edə bilərəm. İyulda biz Avropa İttifaqı ilə enerji sahəsində strateji tərəfdaşlığa dair Anlaşma Memorandumunu imzaladıq. Bizim planımız ondan ibarətdir ki, 2027-ci ilə qədər Avropa bazarına qaz təchizatımızı iki dəfə artıraq. Bu, olduqca real rəqəmdir. Bizim qaz təchizatımızın dinamikasına nəzər salsaq görərik ki, ötən il 8 milyard kubmetr idi, bu il 12 milyard kubmetr nəql edəcəyik. Bu, bizim ümumi ixracımızın yarısıdır və 2027-ci il üçün biz bu rəqəmi 20 milyarda çatdıracağıq. Bunun üçün mənbələr artıq var, onlardan biri bizim nəhəng "Şahdəniz" yatağımızdır, digər yataq "Abşeron"dur. Ümid edirəm ki, olduqca qısa bir zamanda "Abşeron"dan çox yaxşı xəbərlər alacağıq. Oradan çox qısa bir zamanda ilk qaz alacağımıza dair xəbər gözləyirik.

Biz strateji tərəfdaşımız olan BP şirkəti ilə dərin qatlardan qaz hasilatı üzrə layihələr həyata keçiririk. Bütün işlər plana uyğun getsə, gələn ilin sonuna qədər biz böyük dərinlikdən ilk qaz alacağıq. Digər layihələrimiz var ki, biz bazara əlavə qaz həcmi çıxara biləcəyik. Eyni zamanda, enerji səmərəliliyi və bərpaolunan enerji məsələsi, – bizim Avropa İttifaqı ilə bu barədə də dialoqumuz olub. Bunun nəticəsində biz elektrik enerjisinin istehsalı üçün qaza qənaət edəcəyik və həmin qazı artıq beynəlxalq bazarlara çıxaracağıq.

Digər vacib tədbirlərdən biri Yunanıstan–Bolqarıstan interkonnektorunun açılışı idi. Mən həmin tədbirdə iştirak etdim. Bunun nəticəsində artıq Azərbaycan Bolqarıstana da qaz nəql edəcək. Biz Bolqarıstan vasitəsilə digər ölkələrə də qazın nəqli imkanlarını nəzərdən keçiririk və tezliklə qonşu ölkələrə də bizim qazımız nəql ediləcək. Rumıniya artıq bu əməkdaşlıq formatının üzvüdür. Hər şey plana uyğun getsə və bütün interkonnektorlar vaxtında inşa edilsə, – yəni, bu ilin sonuna qədər, – bizim qazımız Macarıstana və Serbiyaya nəql ediləcək. Bununla da bizim qaz ixracımızın coğrafiyası genişlənəcəkdir.

Ötən ilin dekabr ayında Buxarest şəhərində yaşıl enerjiyə dair digər bir mühüm tədbir keçirildi. Azərbaycan, Gürcüstan, Macarıstan, Rumıniya bir araya gəldi və Avropa Komissiyasının Prezidenti də həmin tədbirdə iştirak etdi. Orada yaşıl enerjiyə və transmissiyaya dair müvafiq sənəd imzalandı. Əminəm ki, bu, qlobal əhəmiyyətə malik bir layihə olacaqdır. Bu layihə daha çox ölkələr və şirkətlər cəlb edəcəkdir. Biz artıq təşkilat komitəsinin ilk iclasını keçirdik və razılıq əldə olundu. Belə ki, layihə çərçivəsində Xəzər dənizinin Azərbaycan sektorundan əldə olunacaq külək enerjisini ötürücü xətlər və Qara dənizin dibi ilə çəkiləcək sualtı kabel vasitəsilə Avropa bazarlarına nəqli nəzərdə tutulur.

Biz indi elə bir mərhələdəyik ki, layihənin texniki-iqtisadi əsaslandırılması həyata keçirilir. Hesab edirik ki, bu layihə çərçivəsində ən azı 4 qiqavat "yaşıl enerji"ni Avropaya nəql edə biləcəyik ki, bu da bizim əlavə töhfəmiz olacaq.

Digər mühüm tədbirlərdən biri bu ilin aprel ayında Sofiya şəhərində keçirilib, Bolqarıstan Prezidentinin təşəbbüsü ilə. Bu, "Həmrəylik Halqası" adlandırılan layihədir. Bu layihəyə Azərbaycan, Bolqarıstan, Macarıstan, Rumıniya və Slovakiya daxildir. Bu da elə bir layihədir ki, orada əlavə interkonnektorlar inşa ediləcək. Yəni, Avropa İttifaqının yüksəkrütbəli məmurları Azərbaycanı ümumavropa qaz təchizatçısı adlandırırsa, bu, tamamilə doğrudur.

Bizim təchizatın coğrafiyası, əminəm ki, genişlənməkdə davam edəcək. Çünki Azərbaycan qazına ehtiyac artmaqdadır. Son ilyarım ərzində bizə 10-dan artıq ölkə müraciət edib ki, təchizatın həcmini artıraq və ya həmin ölkələrə təchizata başlayaq. Əlbəttə, biz bütün dostlarımızın ehtiyaclarını ödəməyə çalışırıq. Sərmayələri də əlaqələndirməliyik ki, bazar imkanları nəzərə alınsın. Onu da vurğulayım ki, bu işdə beynəlxalq maliyyə institutlarının dəstəyinə ehtiyacımız var. Bilirik ki, bu gün "yaşıl enerjiyə" gəldikdə, bəzi beynəlxalq maliyyə institutları neft-qaz sahəsini maliyyələşdirməyi dayandırıb. Amma mən hesab edirəm ki, biz bir balaca realist olmalıyıq. Çünki qaz və neft təchizatı olmadan enerji təhlükəsizliyi tam olaraq təmin edilə bilməz.

Bərpaolunan enerji haqqında danışarkən deyim ki, Azərbaycanın nəhəng potensialı var. Onun artıq ilkin hesablaması aparılıb, 157 qiqavat həcm yalnız Xəzər dənizində var. Quruda isə bizim potensialımız çox böyükdür. Beynəlxalq investorlarla imzalanmış iki müqavilə növbəti bir il, ya da ilyarım ərzində 500 meqavata yaxın "yaşıl enerji" əldə etməyə imkan verəcək.

Ümumilikdə, saziş və memorandumları nəzərə alsaq, biz artıq 25 qiqavatlıq sazişlər imzalamışıq. Əlbəttə, anlaşma memorandumu imzalamaq o demək deyil ki, o, dərhal reallaşacaq və müqavilə olacaq. Ancaq biz elə şirkətlərlə anlaşma memorandumları imzalamışıq ki, onlar bərpaolunan enerji sahəsində qlobal liderlərdir. Ona görə də bunların real müqaviləyə çevrilməsi ehtimalı olduqca yüksəkdir. Ancaq imzalanan memorandumların yarısı belə reallaşsa, bu, olduqca böyük rəqəm olacaqdır və Azərbaycanın özünün daxili istehlakından iki dəfə artıq olacaqdır. Yəni, dediyim kimi, biz bu gün enerji istehsalı üçün istifadə etdiyimiz böyük qaz həcminə qənaət edəcəyik və onu da beynəlxalq bazara çıxaracağıq.

Əlbəttə, görüləcək işlər çoxdur, TANAP genişlənməlidir, TAP genişlənməlidir. Bizim digər Avropa boru kəmərlərinə də çıxışımız olmalıdır və Balkanlarda belə bir çıxışımız olmalıdır. Avropada interkonnektorların sayı mütləq artırılmalıdır. Bütün bu məsələlər əlaqələndirilmiş şəkildə həyata keçirilməlidir. Çünki biz burada böyük sərmayə qoymalıyıq. Ona görə biz əmin olmalıyıq ki, hasil etdiyimiz əlavə qazın, planlaşdırmadığımız həcmlərin, – biz ancaq artan tələbatı nəzərə alaraq bunu hasil edirik, – real alıcısı olacaqdır. Ona görə də biz bu komanda işini davam etdirməliyik. Dediyim kimi, Cənub Qaz Dəhlizi layihəsi artıq başa çatsa da, Məşvərət Şurasının işi hər il fevral ayında Bakıda davam edir. Növbəti toplantı üzümüzə gələn fevral ayında Bakıda keçiriləcəkdir. Çünki artıq yeni iştirakçılarımız var, yeni ideyalarımız var, planlarımız var. Biz bunları reallaşdırdıqca, bütün işlərimiz uğurla gedəcəkdir. Diqqətinizə görə təşəkkür edirəm.

*

Sonra ABŞ Dövlət katibinin enerji ehtiyatları üzrə köməkçisi **Cefri Pyatt** çıxış edərək dedi:




– Sabahınız xeyir.

Zati-aliləri, cənab Prezident Əliyev.

Xanımlar və cənablar.

Mən böyük məmnuniyyətlə Bakı Enerji Həftəsində iştirak edirəm. Otuz ildən artıqdır ki, ABŞ və Azərbaycan Respublikası uğurla əməkdaşlıq edir. ABŞ Cənubi Qafqaz regionunda sabitlik, firavanlıq və müstəqilliyin tərəfdarıdır. Biz Azərbaycanın Ukraynanın ərazi bütövlüyünə və müstəqilliyinə göstərdiyi güclü dəstəyə görə təşəkkür edirik.

Azərbaycan davamlı surətdə enerji təhlükəsizliyinin gücləndirilməsində etibarlı tərəfdaş olub. ABŞ bundan sonra da əməkdaşlığı davam etdirəcək və əmindir ki, etibarlı enerji mənbələri Azərbaycan tərəfindən təmin olunacaq. Əlbəttə ki, mühüm iqlim hədəflərimizlə bağlı da əməkdaşlıq edəcəyik. İndi isə Prezident Baydenin məktubunu səsləndirirəm.

*

Cefri Pyatt ABŞ Prezidenti Cozef Baydenin Prezident İlham Əliyevə məktubunu oxudu.

ABŞ Dövlət katibinin köməkçisi Cefri Pyatt dedi: Bir daha, cənab Prezident, hörmətli qonaqlar, bu tədbirə uğurlar arzulayıram.

*

Böyük Britaniya Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi **Baronessa Emma Nikolson** çıxış edərək dedi:




– Cənab Prezident, böyük məmnuniyyətlə bizim Baş nazirimizin məktubunu Sizə və qonaqların diqqətinə təqdim etmək istəyirəm.

*

Baronessa Emma Nikolson Böyük Britaniyanın Baş naziri Rişi Sunakın Prezident İlham Əliyevə məktubunu oxudu.

*

Baronessa Emma Nikolson dedi: Mən də Baş nazirimizə məlumat verəcəyəm ki, bu sərgi çox uğurlu bir tədbirdir. Mən təəssüf edirəm ki, bizim Baş nazir ötən həftə Londonda ulu öndərin 100 illiyinə həsr edilmiş tədbirə qatıla bilməyib. Çox gözəl bir tədbir olub. Ulu Öndərin xatirəsi daim yad olunacaq, cənab Prezident.

*

Avropa Komissiyasının enerji siyasəti strategiyası və koordinasiya üzrə direktoru xanım **Kristina Lobillo Borrero** çıxış edərək dedi:




– Hörmətli Zati-aliləri cənab Prezident Əliyev.

Nazirlər, səfirlər.

Bakı Enerji Həftəsinin iştirakçıları, hamınızı salamlayıram.

Avropa İttifaqının energetika məsələləri üzrə komissarı xanım Kadri Simsonun adından və şəxsən öz adımdan bizim üçün çox mühüm hadisə olan Bakı Enerji Həftəsinə yenidən dəvətə görə Sizə təşəkkür etmək istərdim.

Prezident Ursula Fon der Lyayen Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında enerji sahəsində strateji tərəfdaşlıq müqaviləsini imzalamaq üçün ötən ilin iyul ayında Bakıda səfərdə olub. Komissar Simson isə fevral ayında səfər etmişdi, Cənub Qaz Dəhlizi Məşvərət Şurası və Yaşıl Enerji Məşvərət Şurasının (Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 9-cu və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 1-ci iclaslarında) iclasında iştirak etmişdi. Nazir Pərviz Şahbazov isə yüksək səviyyəli enerji dialoqumuz üçün bu ayın əvvəlində Brüsseldə səfərdə olmuşdur.

Qazın Azərbaycandan Avropaya 2020-ci ildə Cənubi Qaz Dəhlizi vasitəsilə nəql olunmasına başlanıb və Azərbaycan artıq etibarlı enerji tərəfdaşına çevrilib. Keçən ilin əvvəlində Rusiyanın Ukraynaya genişmiqyaslı müdaxiləsi, əlbəttə ki, enerji bazarımızın əsaslarını dəyişmiş və Avropanın enerji sistemində böyük dəyişikliklərə səbəb olmuşdur. Keçən il biz enerji böhranının aradan qaldırılması üçün bir sıra tədbirlər gördük. Biz bunların sırasına qaz anbarlarımızın məcburi doldurulmasını, qaz istehlakının könüllü olaraq azaldılmasını da daxil etdik və ilk dəfə olaraq qazın birgə alınmasına keçdik. Biz, həmçinin 70 milyard kubmetrdən çox Rusiya qazını əvəz edərək qaz tədarükçülərimizi şaxələndirmişik.

Yaşadığımız çətin dövrlərdə Azərbaycan keçən il Avropa İttifaqı bazarına qaz tədarükünü 40 faiz artırdı. Bu, enerji böhranından yan ötmək və Rusiya yanacaqlarından imtina etmək üçün önəmli tədbir idi. Həmçinin qaz ticarətimizin ikiqat artırılması baxımından Cənub Qaz Dəhlizinin genişləndirilməsini alqışlayırıq. Biz bu qazın son istifadəçilərinə çata bilməsi üçün Avropa İttifaqının daxilində infrastrukturumuzu inkişaf etdiririk. Amma bizim ikitərəfli işimiz təkcə böhranın idarə edilməsindən ibarət deyil. Söhbət, eyni zamanda, Cənubi Qafqaz və Avropa İttifaqı arasında "Yaşıl enerji dəhlizi" layihəsindən başlayaraq gələcək iqtisadiyyatlarımıza doğru yol cızmaqdan gedir. Bu flaqman layihələri olaraq təqdim edilib. Eyni zamanda, Şərq Tərəfdaşlığı məkanında önəmli layihəyə çevrilir, həmçinin qlobal çağırışdır. Bu baxımdan əməkdaşlıq üçün böyük imkanlar var. Bu, həqiqətən də mümkündür. Bunu reallığa çevirmək imkanımız var.

Biz həm Azərbaycanda, həm də Avropa İttifaqında enerji təhlükəsizliyini gücləndirmək, bərpaolunan enerji sərmayəsini açmaq və uzun müddət ərzində bazarlarımızda ticarəti təşviq etmək öhdəliyimizə sadiqik. Bu baxımdan Azərbaycanda elektrik enerjisi haqqında qəbul edilmiş yeni qanunu alqışlayırıq. Bizim tərəfimizdən Avropa İttifaqı qanunvericiləri bu yaxınlarda yeni enerji səmərəliliyi və bərpaolunan enerji tədbirləri, o cümlədən, daha iddialı 2030-cu il hədəfləri ilə bağlı danışıqları tamamladılar. İqlim və enerji üzrə böyük iqtisadiyyatlar forumunun son iclasında Prezident Ursula Fon der Lyayen noyabr ayında Birləşmiş Millətlər Təşkilatının Dubayda keçiriləcək İqlim Dəyişikliyi Konfransı – "COP-28" ərəfəsində enerji səmərəliliyi və bərpaolunan enerji üçün qlobal hədəflər təyin edib. Bu baxımdan, biz inanırıq ki, həmin məqsədə çatmaqda Azərbaycan da bizə dəstək olacaq. Əlbəttə ki, burada həm qaz tədarükünün artırılması, həm də yerli və beynəlxalq bazarlar üçün bu imkanlar olmalıdır. Bu baxımdan, maarifləndirməyə və məlumatlandırmaya ehtiyac var. Biz də tənzimləyici çərçivə olaraq daha çox şəffaflığa nail olunması, emissiyaların azaldılması sahələrində və digər sahələrdə böyük işlər görürük. Biz Azərbaycan ilə bu istiqamətdə bərabər çalışmağa hazırıq.

Zati-aliləri, hörmətli səfirlər, nazirlər, xanımlar və cənablar, çıxışımın sonunda bir daha vurğulamaq istəyirəm ki, bizim Azərbaycanla bu istiqamətdə uzunmüddətli əməkdaşlığımız, həqiqətən də, çox əhəmiyyətli məsələdir. Bu, həm dayanıqlılıq və eyni zamanda, bərpaolunan enerjiyə tələbatın təmin olunması baxımından çox önəmlidir. Azərbaycan və digər beynəlxalq tərəfdaşlarla bir yerdə işləyərək enerji keçidimizi təmin etmək, eyni zamanda, sənaye əsaslarımızı gücləndirmək və iqtisadiyyatlarımızı iqlim neytrallığına yönəltmək önəmli vəzifədir. Təşəkkür edirəm.

*

Çıxışlardan sonra dövlətimizin başçısı Bakı Enerji Həftəsi çərçivəsində 28-ci Beynəlxalq Xəzər Neft və Qaz – "Caspian Oil&Gas" və 11-ci Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji – "Caspian Power" sərgiləri ilə tanış oldu.

Azərbaycan Respublikası **Dövlət Neft Şirkəti – SOCAR** sərgidə geniş təmsil olunur. Bildirildi ki, SOCAR Bakı Enerji Həftəsində Baş Tərəfdaş olaraq iştirak edir. Stenddə SOCAR-ın Apstrim, Midstrim və Daunstrim istiqamətlərində, həmçinin marketinq, satış fəaliyyəti və müxtəlif xidmətləri barədə məlumatlar təqdim olunur. "Yaşıl enerji" layihələrinə dair bölmədə SOCAR-ın yaşıl enerjiyə baxışı, bərpaolunan enerji mənbələri üzrə pilot layihələri barədə informasiyalar təqdim olunur. Stenddə, həmçinin SOCAR-ın elmi-tədqiqat işləri və nanotexnologiyalar, təlim və təhsil proqramları barədə məlumatlar yer alır.

Prezident İlham Əliyev BP-Azərbaycanın stendinə də baxdı. BP şirkəti 30 ildən çoxdur ki, Azərbaycanda fəaliyyət göstərir və 5 böyük enerji layihəsinin operatorluğunu təhlükəsiz və etibarlı şəkildə həyata keçirir. Bu günədək BP öz tərəfdaşları ilə birlikdə ölkəmizdəki layihələrə, təxminən, 84 milyard dollar sərmayə qoyub. Şirkət on minlərlə iş yeri yaratmaqla və genişmiqyaslı sosial sərmayə fəaliyyətləri həyata keçirməklə yerli icmalara müsbət təsir göstərib.

**(ardı 3-cü səhifədə)**

# Azərbaycan qlobal enerji təşəbbüslərinin önündə gedir





(əvvəli 2-ci səhifədə)

Dövlətimizin başçısı **Türkiyənin TPAO** şirkətinin stendi ilə də tanış oldu. 69 illik tarixə malik şirkət kəşfiyyat işləri, qazma, hasilat sahəsində fəaliyyətini Türkiyə, Kipr, Əfqanıstan, Azərbaycan, İraq və Rusiya daxil olmaqla müxtəlif ölkələrdə davam etdirir. 2020-ci ildə TPAO Qara dənizdəki Sakarya qaz yatağında dünyada 2-ci ən böyük qaz kəşfiyyatına nail olub. TPAO "Şahdəniz"də 19, Cənubi Qafqaz Boru Kəmərində 19, "Azəri–Çıraq–Günəşli"də 5,73, Bakı–Tbilisi–Ceyhanda 6,53 faiz paya malikdir.

Sərgidə xüsusi pavilyonla təmsil olunan **Almaniya** ziyarətçiləri qazma, nasos, təhlükəsizlik texnikası, kəşfiyyat və hasilat üzrə ixtisaslaşan şirkətlərinin fəaliyyəti ilə tanış edir. Pavilyonda Almaniya şirkətləri ilə əlaqələr yaratmağa kömək etmək üçün peşəkar vasitəçi xidmətlər təklif olunur.

**"Beynəlxalq Transxəzər Nəqliyyat Marşrutu" Assosiasiyası** da sərgidə təmsil olunur. Qurum Qədim İpək Yolu dövründə olduğu kimi, indi də bu yolun üzərində yerləşən ölkələrin və şirkətlərin maraqlarını təmsil edən birləşdirici təşkilatdır. Baş ofisi Qazaxıstanda yerləşən assosiasiyanın üzvləri arasında "Azərbaycan Dəmir Yolları", "Xəzər Dəniz Gəmiçiliyi", "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-ləri qeyd etmək olar.

**Rusiyanın "TMK"** şirkəti iqtisadiyyatın müxtəlif sektorları üçün polad boru kəmərləri həlləri və dəstək xidmətləri üzrə aparıcı təchizatçıdır. Şirkət hazır boru kəmərləri, o cümlədən enerji, kimya, maşınqayırma, tikinti və digər sahələr üçün xüsusi borular və digər məhsullar istehsal edir.

**Çinin "CHINT Electrıc"** şirkəti də sərgidə geniş təmsil olunur. Şirkət təmiz enerji, enerji bölgüsü, böyük həcmli məlumatlar və enerjidə əlavə dəyər xidmətlərindən ibarət əsas bizneslərə malikdir. Bundan əlavə, şirkətin biznesinin əsas istiqamətlərinə fotoelektrik avadanlıqlar, enerjinin saxlanması, ötürülməsi və paylanması, aşağı gərginlikli aparatlar, ağıllı terminallar, proqram təminatının hazırlanması və idarəetmənin avtomatlaşdırılması daxildir.



**İsrailin "Magal Solutions"** şirkəti gücləndirilmiş təhlükəsizlik və səmərəlilik üçün operativ komanda-nəzarət həllərinin qlobal inteqratorudur. 100-dən çox ölkədə fəaliyyət göstərən şirkət dəniz limanı, sərhəd, neft üçün bir sıra həllərin layihələndirilməsi və çatdırılması üzrə ixtisaslaşıb.

Prezident İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) "MASDAR" şirkətinin stendinə də baxdı. "MASDAR" bərpaolunan enerji və yaşıl hidrogen texnologiyalarının inkişafını və tətbiqini inkişaf etdirərək dünyada bu sahənin ən qabaqcıl şirkətlərindən biridir. 2006-cı ildə yaradılan "MASDAR" bu gün 40-dan çox ölkədə fəaliyyət göstərir və onlara təmiz enerji məqsədlərinə nail olmaqda və davamlı inkişafda kömək edir. Şirkət Azərbaycanla ümumi gücü 10 qiqavatadək olan bərpaolunan enerji mənbələri layihələri üzrə müqavilələr imzalayıb. Şirkət hazırda gücü 230 meqavat olan Qaradağ Günəş Elektrik Stansiyasının inşası layihəsini icra edir.

**Özbəkistanın "Uzbekneftegaz"** şirkəti neft və qazın hasilatı, saxlanması, emalı və satışı ilə məşğul olur. Ölkənin ən böyük dövlət şirkəti olan "Uzbekneftegaz" təbii qaz hasilatına görə dünyada 11-ci yerdədir. Şirkətin fəaliyyəti geoloji kəşfiyyat, neft və qaz yataqlarının işlənməsi, qazma, hasilat, karbohidrogenlərin emalı, neft məhsulları, kimya avadanlıqlarının istehsalına qədər bütün neft və qaz əməliyyatları zəncirini əhatə edir. Burada Prezident İlham Əliyevə xatirə hədiyyəsi təqdim olundu.

Niderlandın **"DAMEN Shipyards"** şirkəti 95 ildir ki, mühəndislik, gəmiqayırma, gəmi təmiri xidmətləri təqdim edir. Şirkət 5 qitədə 11 mindən çox işçinin işlədiyi 35 gəmiqayırma zavodunu idarə edir.

Dövlətimizin başçısı İtaliyanın **"Tenaris"** şirkətinin stendində oldu. Bildirildi ki, şirkət qlobal enerji sənayesində və digər tətbiq sahələrində istifadə olunan boru və əlaqədar xidmətlərin aparıcı təchizatçısıdır. Şirkətin məqsədi məhsulun işlənib hazırlanması, istehsal mükəmməlliyi və tədarük proseslərinin idarə edilməsi vasitəsilə müştərilərin biznesinə dəyər verməkdir.

Belarus Ticarət və Sənaye Palatasının **"Belinterexpo"** unitar müəssisəsi sərgidə ölkənin neft emalı, kimya və neft kimyası müəssisələrinin və təşkilatlarının ekspozisiyalarını təqdim edir. Müəssisədə 500-dən çox adda neft-kimya və kimya məhsulları istehsal olunur.

Rusiyanın ən böyük 5 neft-qaz şirkətindən biri olan **"Qazprom"** da sərgidə təmsil olunur. "Qazprom" qazın, qaz kondensatının və neftin geoloji kəşfiyyatı, hasilatı, daşınması, saxlanması, emalı, avtomobillər üçün qaz yanacağı, həmçinin istilik və elektrik enerjisinin istehsalı və satışı ilə məşğul olan qlobal enerji şirkətidir. Şirkət təbii qaz ehtiyatları və hasilatı baxımından qlobal liderdir.

Prezident İlham Əliyev **"SOCAR Türkiyə"** şirkətinin stendi ilə də tanış oldu. Türkiyənin ən mühüm sənaye holdinqlərindən biri olan "SOCAR Türkiyə" neft-kimya, emal, təbii qaz, ticarət, ötürmə və paylama sahələrində fəaliyyətini davam etdirir. Stenddə "SOCAR Türkiyə" şirkətinin son 15 il ərzindəki layihələri, yatırımları və fəaliyyəti barədə videoçarx nümayiş olunur.

ABŞ-ın **"Schlumberger"** (SLB) şirkəti neft və qaz yataqlarının kəşfiyyatı, quyuların qazılması, hasilat və emal üzrə dünyanın qabaqcıl texnologiya təchizatçısıdır. Azərbaycanda da bir çox layihələrdə iştirak edən şirkət yataqların kəşfiyyat-qazma işində, boru kəmərinin bərpası və digər sahələrdə xidmətlərini təklif edir. Avadanlıq və xidmətlərin ən geniş çeşidini sənayedə təmin edən bu qurum fəaliyyətində innovativ həllərə üstünlük verir.

Dövlətimizin başçısı Fransanın **"TOTAL"** şirkətinin stendinə də baxdı. "TOTAL" 1996-cı ildən Azərbaycanda fəaliyyət göstərir və enerji sektorunda fəal iştirak edir. Şirkət insanların rifahının yüksəldilməsi üçün dayanıqlı inkişafı bütün aspektlərdə öz strategiyasının, layihələrinin və əməliyyatlarının əsası hesab edir və Birləşmiş Millətlər Təşkilatının Dayanıqlı İnkişaf Məqsədlərinin dəstəklənməsində meyar olmağa çalışır.

Prezident İlham Əliyev sərginin xatirə kitabını imzaladı.

Sonda dövlətimizin başçısına xatirə hədiyyələri təqdim edildi.

*

Qeyd edək ki, "Caspian Oil&Gas" Sərgisi artıq 28 ildir ki, neft, qaz və enerji sektorunda əhəmiyyətli əməkdaşlıq üçün mühüm platformaya çevrilib. Hər il Azərbaycan Prezidentinin açılış mərasimində iştirakı isə sərginin yüksək statusunu bir daha təsdiqləyir.

Həmçinin tədbirin bir çox ölkələrdən olan şirkətləri, yüksək səviyyəli qonaqları, dövlət xadimlərini və beynəlxalq enerji ekspertlərini Bakıya toplaması təsadüfi deyil. Azərbaycan paytaxtı artıq bir müddətdir ki, nüfuzlu tədbirlərin təşkil edildiyi, mühüm qərarların və əməkdaşlıq məsələlərinin müzakirə edildiyi məkana çevrilib. Bu gün Azərbaycan yalnız özünün deyil, digər ölkələrin də enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır. Bu baxımdan da sərgilərin böyük əhəmiyyəti vardır.

Azərbaycanda beynəlxalq sərgilərin keçirilməsi təşəbbüsü ümummilli lider Heydər Əliyev tərəfindən irəli sürülüb. Ulu öndər 1994-cü ildən təşkil edilən sərgilərə daim dəstək verib. Bu il xalqımız müasir Azərbaycanın qurucusu ümummilli lider Heydər Əliyevin 100 illik yubileyini qeyd edir. Bu əlamətdar hadisə Bakı Enerji Həftəsinin proqramında da öz əksini tapır. Həftə çərçivəsində ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr edilmiş poçt markası buraxılıb. Sərgidə ümummilli liderin 100 illik yubileyinə həsr olunmuş xüsusi stend də nümayiş edilir.

Bakı Enerji Həftəsi çərçivəsində iyunun 3-dək davam edəcək sərgilərdə 38 ölkədən 331 şirkət iştirak edir.

**AZƏRTAC**

# Azərbaycan Prezidenti İlham Əliyevin Moldovaya səfəri

## *Kişineu şəhərinin beynəlxalq aeroportunda qarşılanma*



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Avropa siyasi birliyi" 2-ci Zirvə toplantısında iştirak etmək üçün mayın 31-də Moldova Respublikasına səfərə gəlib.**

Kişineu şəhərinin beynəlxalq aeroportunda dövlətimizin başçısını rəsmi şəxslər qarşıladılar.

**AZƏRTAC**

## Azərbaycan Prezidenti İlham Əliyevin Moldova Prezidenti Maya Sandu ilə görüşü



**Mayın 31-də Kişineuda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Moldova Respublikasının Prezidenti Maya Sandu ilə görüşü olub. Əvvəlcə birgə foto çəkdirildi.**

Prezident Maya Sandu dövlətimizin başçısını Müstəqillik Günü və Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 100 illiyi münasibətilə təbrik etdi.

"Avropa siyasi birliyi"nin Zirvə toplantısının Moldovada keçirilməsi ilə bağlı təbriklərini çatdıran Prezident İlham Əliyev belə böyükmiqyaslı tədbirin dost Moldovada təşkil edilməsini müsbət qiymətləndirdi.

Görüşdə ölkələrimiz arasında münasibətlərin yaxşı səviyyədə olduğu qeyd edildi, enerji, investisiyalar və digər istiqamətlərdə əməkdaşlıq məsələlərinə toxunuldu, əlaqələrimizin perspektivləri müzakirə olundu.

Söhbət zamanı iqtisadi-ticari əlaqələrin daha da genişləndirilməsi üçün yaxşı imkanların olduğu vurğulandı, bu istiqamətdə səylərin artırılmasının vacibliyi qeyd edildi.

Beynəlxalq təşkilatlarda ölkələrimizin qarşılıqlı dəstəyi yüksək qiymətləndirildi, bu xüsusda Azərbaycanın və Moldovanın bir-birinin ərazi bütövlüyünü və suverenliyini daim dəstəklədikləri vurğulandı.

Maya Sandu "Avropa siyasi birliyi"nin Moldovada keçirilən Zirvə toplantısı çərçivəsində dövlətimizin başçısının Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin dəstəyi ilə Ermənistanın baş nazirinin, Almaniya və Fransa liderlərinin iştirakı ilə keçiriləcək beştərəfli görüşünü müsbət addım kimi qiymətləndirdi.

Dövlətimizin başçısı Moldova Prezidentini Azərbaycana səfərə dəvət etdi.

Dəvət məmnunluqla qəbul olundu.

**AZƏRTAC**

# "Notariat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 2 may tarixli 866-VIQD nömrəli Qanununun tətbiqi və "Notariat haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 18 yanvar tarixli 261 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Notariat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 2 may tarixli 866-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Müəyyən edilsin ki, "Notariat haqqında" Azərbaycan Respublikası Qanununun 90-cı maddəsinin birinci hissəsinin 1-ci bəndində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətləri-ni Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, habelə Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluqları həyata keçirirlər.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti "Notariat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 2 may tarixli 866-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

**3.** "Notariat haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 18 yanvar tarixli 261 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 40; 2001, № 10, maddə 640; 2002, № 8, maddə 478; 2003, № 6, maddə 290; 2005, № 8, maddə 717; 2006, № 1, maddə 9, № 7, maddə 590; 2007, № 6, maddə 606; 2008, № 3, maddə 174; 2009, № 1, maddə 9, № 2, maddə 71; 2010, № 7, maddə 610; 2011, № 9, maddə 795, № 12, maddə 1128; 2019, № 2, maddə 208, № 6, maddələr 1013, 1045; 2022, № 8, maddə 863; 2023, № 1, maddə 78) 3.13-cü bəndində "hissəsində" sözü "hissəsinin 1-ci bəndində" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 31 may 2023-cü il**

## Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 12 noyabr tarixli 349 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Gömrük orqanlarına xidmətə qəbul ilə əlaqədar müsabiqənin keçirilməsi Qaydası”nda dəyişiklik edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 12 noyabr tarixli 349 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 11, maddə 965; 2021, № 12, maddə 1355) ilə təsdiq edilmiş “Gömrük orqanlarına xidmətə qəbul ilə əlaqədar müsabiqənin keçirilməsi Qaydası”na aşağıdakı məzmunda 1.5-1-ci bənd əlavə edilsin:

“1.5-1. Gömrük orqanlarına xidmətə qəbul ilə əlaqədar zəruri olan sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər və ya məlumatlar müsabiqədə iştirak etmək istəyən namizəddən tələb edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi müsabiqədə iştirak etmək istəyən namizədin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya həmin namizəd tərəfindən təmin edilir.”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri 31 may 2023-cü il**

## Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 15 aprel tarixli 222 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Dövlət vergi orqanlarına işə qəbul olunmaq üçün namizədlərin müsabiqəsinin keçirilməsi haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 15 aprel tarixli 222 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 4, maddə 297; 2009, № 6, maddə 419; 2011, № 3, maddə 182; 2017, № 5, maddə 802; 2021, № 4, maddə 314, № 12, maddə 1354) ilə təsdiq edilmiş “Dövlət vergi orqanlarına işə qəbul olunmaq üçün namizədlərin müsabiqəsinin keçirilməsi haqqında Əsasnamə”də aşağıdakı dəyişikliklər edilsin:

**1.** Aşağıdakı məzmunda 3.3-2-ci bənd əlavə edilsin:

“3.3-2. Dövlət vergi orqanlarında işə qəbul olunmaq üçün tələb olunan sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət qurumundan əldə edilməsi mümkün olduqda, həmin sənədlər və ya məlumatlar namizəddən tələb edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi namizədin razılığı ilə sorğu əsasında müvafiq dövlət qurumundan tələb olunur və ya namizəd tərəfindən təmin edilir.”.

**2.** 3.4.1-ci yarımbəndə “təqdim edilmədikdə” sözlərindən sonra “(bu Əsasnamənin 3.3-2-ci bəndinin müddəaları nəzərə alınmaqla)” sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri 31 may 2023-cü il**

## “Dövlət orqanlarının və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslərin elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 23 may tarixli 429 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

“Dövlət orqanlarının və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslərin elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 23 may tarixli 429 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 5, maddə 380; 2012, № 7, maddə 685; 2014, № 9, maddə 1027; 2017, № 5, maddə 803, № 8, maddə 1521; 2022, № 5, maddə 470) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 2-ci hissənin birinci abzasından “üç ay müddətində” sözləri çıxarılsın.

**2.** 2.4-cü bənd aşağıdakı redaksiyada verilsin:

“2.4. müvafiq sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlərin müraciət edəndən tələb edilməməsi, belə sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsinin müraciət edənin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunması və ya müraciət edən tərəfindən təmin edilməsi;”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri 31 may 2023-cü il**

## “Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2023-cü il 2 may tarixli 864-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasının Ailə Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 2000-ci il 6 mart tarixli 297 nömrəli, “Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2014-cü il 17 oktyabr tarixli 1080-IVQD nömrəli Qanununun tətbiqi barədə” 2014-cü il 15 dekabr tarixli 389 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2023-cü il 2 may tarixli 864-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikası Ailə Məcəlləsinin 13.3-cü maddəsinin ikinci cümləsində (hər üç halda), 23.3-cü, 25.3-cü, 179-cu, 190.1-ci və 190.2-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Məcəllənin 13.3-cü maddəsinin ikinci cümləsində (üçüncü halda), 23.3-cü, 25.3-cü və 190.2-ci maddələrində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi nəzərdə tutulur;

1.3. həmin Məcəllənin 13.3-cü maddəsinin ikinci cümləsində (birinci və ikinci hallarda) “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi nəzərdə tutulur;

1.4. həmin Məcəllənin 179-cu və 190.1-ci maddələrində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin və Naxçıvan Muxtar Respublikasının ərazisində Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin qeydiyyat şöbələri nəzərdə tutulur.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti “Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2023-cü il 2 may tarixli 864-VIQD nömrəli Qanundan irəli gələn məsələləri həll etsin.

**3.** “Azərbaycan Respublikasının Ailə Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 6 mart tarixli 297 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (I kitab), maddə 164; 2002, № 7, maddə 412, № 8, maddə 478, № 12, maddə 716; 2003, № 6, maddə 290; 2004, № 7, maddə 526; 2006, № 12, maddə 1034; 2007, № 3, maddə 226, № 11, maddə 1105; 2010, № 5, maddə 393, № 7, maddə 613, № 8, maddə 722; 2019, № 5, maddə 818, № 12, maddə 1930; 2021, № 6 (I kitab), maddə 565; 2022, № 1, maddə 30; 2023, № 1, maddə 85, № 3, maddə 348) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.1-ci bəndə “Məcəlləsinin” sözündən sonra “13.3-cü maddəsinin ikinci cümləsində (hər üç halda), 23.3, 25.3,” sözləri, “186” rəqəmlərindən əvvəl “179,” rəqəmləri və “187.1-1,” rəqəmlərindən sonra “190.1, 190.2,” rəqəmləri əlavə edilsin;

3.2. 2.2-ci bəndə “Məcəllənin” sözündən sonra “13.1, 13.5-ci maddələrində,” sözləri əlavə edilsin;

3.3. 2.3-1-ci bəndə “Məcəllənin” sözündən sonra “13.3-cü maddəsinin ikinci cümləsində (üçüncü halda), 23.3, 25.3,” sözləri, “187.1-1,” rəqəmlərindən sonra “190.2,” rəqəmləri əlavə edilsin;

3.4. 2.4-cü bənddən “23.3,”, “25.3,” və “179,” rəqəmləri çıxarılsın;

3.5. 2.4-1-ci bənddə “195.2-ci (ikinci halda) maddəsində” sözləri “179, 190.1 və 195.2-ci (ikinci halda) maddələrində” sözləri ilə əvəz edilsin;

3.6. 2.12-2-ci bəndə “Məcəllənin” sözündən sonra “13.3-cü maddəsinin ikinci cümləsində (birinci və ikinci hallarda),” sözləri əlavə edilsin;

3.7. 2.17-ci bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 2.18-ci bənd əlavə edilsin:

“2.18. həmin Məcəllənin 13.4-cü maddəsinin ikinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin və Naxçıvan Muxtar Respublikasının ərazisində Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin xaricdəki konsulluq idarələri, rayon tabeli şəhərlərdə, qəsəbələrdə və kəndlərdə rayon, şəhər, şəhər rayonu icra hakimiyyətlərinin nümayəndəlikləri həyata keçirirlər.”.

**4.** “Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2014-cü il 17 oktyabr tarixli 1080-IVQD nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 15 dekabr tarixli 389 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 12, maddə 1543) 3-cü hissəsi ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri 31 may 2023-cü il**

## Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 706 nömrəli Fərmanı ilə təsdiq edilmiş “ASAN xidmət” mərkəzlərinin fəaliyyətinin təşkili və xidmətlərin göstərilməsi Qaydaları”nda dəyişiklik edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 706 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 9, maddə 858; 2013, № 2, maddə 109, № 3, maddə 254, № 4, maddə 377; 2014, № 2, maddə 117, № 5, maddə 486, № 9, maddələr 1027, 1044, 1048; 2015, № 6, maddə 708, № 8, maddə 917, № 10, maddə 1122; 2016, № 2 (II kitab), maddə 251, № 5, maddə 852, № 8, maddə 1384, № 9, maddə 1464; 2017, № 2, maddə 174, № 4, maddə 564, № 5, maddə 809, № 8, maddələr 1521, 1531; 2018, № 3, maddə 437, № 6, maddə 1242, № 10, maddə 2013, № 11, maddə 2553; 2019, № 1, maddə 61, № 4, maddə 647; 2020, № 8, maddələr 1039, 1044, 1047; 2021, № 8, maddə 919, № 9, maddə 990, № 11, maddə 1217; 2022, № 5, maddə 475, № 10, maddə 1133, № 11, maddə 1264; 2023, № 1, maddə 84, № 2, maddə 245) ilə təsdiq edilmiş “ASAN xidmət” mərkəzlərinin fəaliyyətinin təşkili və xidmətlərin göstərilməsi Qaydaları”na aşağıdakı məzmunda 3.2-1-ci bənd əlavə edilsin:

“3.2-1. Xidmətin həyata keçirilməsi üçün tələb olunan sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər vətəndaşdan tələb edilmir. Belə sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi vətəndaşın razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya vətəndaş tərəfindən təmin edilir.”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri 31 may 2023-cü il**

## Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 15 iyul tarixli 305 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Miqrasiya orqanlarına qulluğa qəbul olunmaq üçün namizədlərlə müsabiqə və müsahibənin keçirilməsi qaydaları haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 15 iyul tarixli 305 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 7, maddə 624; 2013, № 5, maddə 514; 2021, № 12, maddə 1355) ilə təsdiq edilmiş “Miqrasiya orqanlarına qulluğa qəbul olunmaq üçün namizədlərlə müsabiqə və müsahibənin keçirilməsi qaydaları haqqında Əsasnamə”yə aşağıdakı məzmunda 4-1-ci bənd əlavə edilsin:

“4-1. Müsabiqədə və ya müsahibədə iştirak etmək üçün tələb olunan sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər namizəddən tələb edilmir. Belə sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi namizədin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya namizəd tərəfindən təmin edilir.”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri 31 may 2023-cü il**

## Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 14 oktyabr tarixli 134 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestrinin aparılması qaydası haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 14 oktyabr tarixli 134 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 10, maddə 790; 2006, № 9, maddə 741; 2007, № 2, maddə 91; 2008, № 8, maddə 722; 2010, № 9, maddə 770, № 10, maddə 858, № 12, maddə 1061; 2013, № 5, maddə 520; 2014, № 9, maddə 1051; 2019, № 6, maddə 1029; 2023, № 1, maddə 84) ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestrinin aparılması qaydası haqqında Əsasnamə”yə aşağıdakı məzmunda 24-1-ci bənd əlavə edilsin:

“24-1. Dövlət Reyestrində olan məlumatları əldə etmək üçün zəruri olan sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər ərizəçidən tələb edilmir. Belə sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi ərizəçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya ərizəçi tərəfindən təmin edilir.”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri 31 may 2023-cü il**

## Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 19 fevral tarixli 1290 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 19 fevral tarixli 1290 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 2, maddə 132) ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti haqqında Əsasnamə”də dəyişiklik təsdiq edilsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin rəsmi embleminin Əsasnaməsi və təsviri ilə bağlı təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri 31 may 2023-cü il**

# Azərbaycan ABŞ ilə enerji sahəsində fəal əməkdaşlıq edir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 31-də ABŞ Dövlət katibinin enerji ehtiyatları üzrə köməkçisi Cefri Pyattı qəbul edib.**

Cefri Pyatt Bakıda Enerji Həftəsinin əhəmiyyətini qeyd etdi. Qonaq Avropanın Enerji təhlükəsizliyinin təmin olunmasında Azərbaycanın liderlik rolunu yüksək qiymətləndirdi.

Prezident İlham Əliyev Cefri Pyattın bu tədbirdə iştirakının önəminə toxunaraq, ABŞ hökumətinin Azərbaycanın enerji sahəsində irəli sürdüyü təşəbbüsləri daim dəstəklədiyinə görə minnətdarlığını bildirdi. Dövlətimizin başçısı ölkəmizin uzun illər ABŞ ilə enerji sahəsində fəal sürətdə əməkdaşlıq həyata keçirdiyini və genişmiqyaslı birgə layihələri uğurla reallaşdırdığını qeyd etdi. Azərbaycan Prezidenti bu xüsusda ABŞ hökumətinin TAP layihəsinə verdiyi dəstəyi vurğuladı.

Görüşdə Azərbaycanın bölgənin enerji təhlükəsizliyinə verdiyi töhfə, ölkəmizdə bərpaolunan enerji sektorunun inkişafı istiqamətində sürətlə həyata keçirilən layihələr barədə fikir mübadiləsi aparıldı.

Söhbət zamanı Azərbaycanın enerji təchizatında sabitləşdirici rol oynadığı xüsusi vurğulandı, ölkəmizin Orta Dəhliz çərçivəsində enerji və qeyri-enerji məhsulları üçün dayanıqlı tranzit və nəqliyyat imkanlarının yaradılması məsələsinə toxunuldu.

**AZƏRTAC**

# Ölkəmizin Moldova ilə əməkdaşlıq imkanları genişdir



**Mayın 31-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Kişineuda Moldova Respublikasının Baş naziri Dorin Reçan ilə görüşüb.**

Azərbaycan Prezidenti ilə görüşdən məmnunluğunu bildirən Moldovanın Baş naziri dövlətimizin başçısının "Avropa siyasi birliyi"nin Zirvə toplantısında iştirakına görə minnətdarlığını ifadə etdi. Dorin Reçan Müstəqillik Günü və ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə Azərbaycan Prezidentini təbrik etdi. O, ümummilli liderin nümunəvi şəxsiyyət olduğunu vurğuladı.

Prezident İlham Əliyev "Avropa siyasi birliyi"nin Zirvə toplantısının Moldovada keçirilməsi münasibətilə təbriklərini çatdırdı.

Baş nazir Azərbaycanın Moldovaya göstərdiyi dəstəyə görə təşəkkürünü ifadə etdi.

Söhbət zamanı ölkələrimiz arasında münasibətlərin yüksək səviyyədə olduğu qeyd edildi, Azərbaycan ilə Moldova arasında iqtisadi-ticari əlaqələrin daha da inkişaf etdirilməsi üçün geniş imkanların olduğu bildirildi. Hazırkı ticarət dövriyyəsinin qənaətbəxş olmadığı qeyd edildi. Ticarət dövriyyəsinin şaxələndirilməsinin vacibliyi diqqətə çatdırıldı. Bu xüsusda hökumətlərarası komissiyanın fəaliyyətinin daha da intensivləşdirilməsinin əhəmiyyəti vurğulandı.

Söhbət zamanı Azərbaycan ilə Moldova arasında kənd təsərrüfatı, elektroenergetika, sərmayələr, infrastruktur layihələri ilə bağlı və qarşılıqlı maraq doğuran digər sahələrdə əməkdaşlıq üçün geniş imkanların olduğu qeyd edildi. Moldovanın üzümçülük və şərabçılıq sahəsində geniş təcrübəsinin, Azərbaycanın da bu sahədə zəngin ənənələrinin olduğu vurğulandı. Bu istiqamətdə əməkdaşlığın genişləndirilməsi üçün imkanların mövcud olduğu bildirildi.

Dövlətimizin başçısı Moldovanın Baş nazirini Azərbaycana səfərə dəvət etdi.

Dəvət məmnunluqla qəbul olundu.

**AZƏRTAC**

# "Bakı Enerji Həftəsi"nin iştirakçılarına

**Hörmətli sərgi və forum iştirakçıları!**
**Hörmətli qonaqlar, xanımlar və cənablar!**

Sizi Xəzər regionunun bir sıra nüfuzlu enerji tədbirlərini özündə birləşdirən "Bakı Enerji Həftəsi"nin işə başlaması münasibətilə salamlayır və bu çərçivədə gələcək fəaliyyətinizdə uğurlar arzu edirəm.

Əminəm ki, "Bakı Enerji Həftəsi" enerji təhlükəsizliyi və enerji mənbələrinin şaxələndirilməsi üzrə qlobal əməkdaşlığa dair dialoqu daha da gücləndirəcəkdir.

"Bakı Enerji Həftəsi"ndə 28-ci Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi, 11-ci Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji Sərgisi və 28-ci Bakı Enerji Forumu kimi mötəbər tədbirlər nəzərdə tutulur. Ənənəvi olaraq hər il keçirilən bu tədbir qlobal enerji təhlükəsizliyinin təmini, alternativ və bərpaolunan enerji potensialı, o cümlədən "yaşıl enerji" layihələrinin təşviqi sahəsində əməkdaşlığın genişləndirilməsi, habelə enerji mənbələrinin şaxələndirilməsi istiqamətində müzakirələr üçün bir fürsətdir.

Builki "Bakı Enerji Həftəsi" Azərbaycan xalqının ümummilli lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinin qeyd edildiyi dövrə təsadüf edir. Bu, əlamətdar bir hadisədir. Azərbaycanda enerji üzrə dialoq platformasının və sərgi fəaliyyətinin formalaşması Heydər Əliyevin müstəsna rolu ilə bağlıdır. "Xəzər Neft və Qaz" sərgisinin bünövrəsinin qoyulması və ümummilli liderin rəhbərliyi ilə işlənib hazırlanan neft strategiyasının elan olunması eyni vaxta – 1994-cü ilə təsadüf etmişdir. Məhz həmin il imzalanmış "Əsrin müqaviləsi"ndən sonra enerji təhlükəsizliyinin etibarlı təminatçısına çevrilən Azərbaycan neft-qaz sahəsində bütün xarici tərəfdaşlarla əməkdaşlıqda və enerji resurslarının ixracında uğurlu nümunə yaratmışdır. Hazırda Azərbaycan "yaşıl enerji" ixracına dair layihələr həyata keçirməklə özünün neft-qaz tarixindəki uğurunu təkrarlayır.

Son illərdə enerji istehsalı texnologiyalarının davamlı inkişafı, eləcə də qlobal iqlim hədəfləri dünyanın aparıcı ölkələrində enerji siyasətinin əsas istiqamətlərindən olan "yaşıl enerji"yə keçidi sürətləndirməkdədir. Ölkəmiz malik olduğu zəngin təbii ehtiyatlardan istifadə etməklə, alternativ və bərpaolunan enerji istehsalının artırılmasına, dekarbonizasiya və enerji mənbələrinin şaxələndirilməsi kimi qlobal gündəliyə mühüm töhfələr verir. Ortamüddətli perspektivdə Azərbaycan alternativ mənbələrdən əldə olunan elektrik enerjisinin və "yaşıl enerji"nin – hidrogenin ixracatçısına çevrilməyi hədəfləyir.

"Yaşıl enerji"nin inkişafına yönəlmiş layihələrin ölkədə artıq işə salınması "Cənub Qaz Dəhlizi" kimi iri layihənin analoqu hesab olunan "yaşıl enerji dəhlizi" yaratmaq üçün mühüm fürsətdir. Xüsusilə, işğaldan azad edilmiş ərazilərdə irimiqyaslı layihələrin həyata keçirilməsi, o cümlədən Qarabağda və Şərqi Zəngəzurda "yaşıl enerji" zonasının yaradılması ölkəni alternativ enerji istehsalçısı və ixracatçısına çevirəcəkdir.

Enerji keçidində "Cənub Qaz Dəhlizi" layihəsinin strateji önəminin daha da artmasını nəzərə alaraq, TANAP və TAP layihələrinin genişləndirilməsi Azərbaycan üçün artıq aktual mövzuya çevrilmişdir. Cənub Qaz Dəhlizinin 2027-ci ilədək genişləndirilməsi və enerji resurslarının nəqli ilə bağlı digər perspektivlər şaxələndirilmiş enerji təchizatında və tərəfdaşlarımızın enerji təhlükəsizliyində ölkəmizin strateji rolunun daha da güclənməsinə xidmət edəcəkdir.

**Hörmətli tədbir iştirakçıları!**

Azərbaycan belə qlobal əhəmiyyətli tədbirə uzun müddətdir ev sahibliyi edir. İnanıram ki, özünün çoxillik təcrübəsi sayəsində sərgi və forum dolğun məruzələrlə, müzakirə və fikir mübadilələri ilə qarşılıqlı anlaşma mühitində geniş iqtisadi əlaqələrimiz üçün yeni üfüqlər açacaq və səmərəli əməkdaşlığa töhfələr verəcəkdir.

"Bakı Enerji Həftəsi"nin uğurlarının davamlı olmasını diləyir və fəaliyyətinizdə yeni-yeni nailiyyətlər arzu edirəm!

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 31 may 2023-cü il**

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Möhtərəm cənab Prezident!**

Azərbaycan Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Zati-alinizə ən səmimi təbriklərimi və ən xoş arzularımı çatdırmaqdan məmnunluq hissi duyuram.

Zati-alinizə möhkəm cansağlığı, səadət, Azərbaycan hökumətinə və dost Azərbaycan xalqına rifah və tərəqqi arzulayıram.

Ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Şeyx Məhəmməd bin Zayed Al NƏHYAN,**
**Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti**

***

**Əziz həmkar!**

Azərbaycan Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və Azərbaycan xalqına səmimi təbriklərimi çatdırıram.

Bu təbrik məktubunda xalqlarımızın dostluğuna, Estoniya ilə Azərbaycan arasındakı əməkdaşlığın gələcək illərdə də uğurla inkişaf edəcəyinə əminliyimi bildirirəm.

Həmfikir ölkələr arasında əməkdaşlıq xüsusilə Rusiya-Ukrayna müharibəsi və onun bütün dünyaya təsirinin davam etdiyi bir vaxtda son dərəcə əhəmiyyətlidir. Bilirik ki, ölkələrimizin Ukraynaya bu müharibədə qalib gəlməyə kömək etməkdən başqa yolu yoxdur. Müharibələrə son qoyulması, ədalətin və məsuliyyətin təmin olunması istiqamətində işimizi davam etdirməyimiz çox vacibdir. Biz, həmçinin ümid edirik ki, Azərbaycan və Ermənistan arasında bütün Cənubi Qafqaz regionunda sabitliyə, firavanlığa müsbət və uzunmüddətli təsir göstərəcək qarşılıqlı faydalı sülh sazişi imzalanacaqdır.

Həmçinin fürsətdən istifadə edərək, Estoniya Respublikasının Müstəqillik Günü münasibətilə təbrikinizə və xoş arzularınıza görə Sizə səmimi-qəlbdən təşəkkürümü bildirirəm. Ümidvaram ki, ölkələrimiz arasındakı səmimi dostluq münasibətləri bundan sonra da dövlətlərimizə və xalqlarımıza xidmət edəcəkdir.

Hörmətli həmkarım, ən yüksək ehtiramımı, həmçinin Azərbaycanın və onun xalqının rifahı, firavanlığı naminə ən xoş arzularımı qəbul etməyinizi xahiş edirəm.

Hörmətlə,

**Alar KARİS,**
**Estoniya Respublikasının Prezidenti**

***

**Zati-aliləri!**

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə səmimi təbriklərimi çatdırıram. Zati-alinizə şəxsi rifah, Azərbaycan xalqına xoşbəxtlik arzulayıram.

Hörmətlə,

**ANRİ,**
**Lüksemburqun Böyük Hersoqu**

**Möhtərəm cənab Prezident!**

Azərbaycanın Müstəqillik Günü münasibətilə Zati-alinizə ən səmimi təbriklərimi və xoş arzularımı ifadə etməkdən məmnunam.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Azərbaycan hökumətinə və xalqına firavanlıq və inkişaf arzulayıram.

Xahiş edirəm, ən yüksək hörmət və ehtiramımı qəbul edin.

**Məhəmməd bin Rəşid Al MƏKTUM,**
**Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti,**
**Baş naziri və Dubayın hökmdarı**

***

**Hörmətli cənab Prezident!**

Azərbaycanın milli bayramı – Müstəqillik Günü münasibətilə Zati-alinizi səmimi-qəlbdən təbrik edirəm. Sizə məmnuniyyətlə ən xoş arzularımı bildirirəm.

Zati-alinizə möhkəm cansağlığı, səadət, Azərbaycan hökumətinə və dost Azərbaycan xalqına firavanlıq və tərəqqi diləyirəm.

Ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Mansur bin Zayed Al NƏHYAN,**
**Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti,**
**Baş nazirin müavini, prezident işləri naziri**

***

**Zati-aliləri!**

Sizi səmimiyyətlə salamlayıram. Dost Azərbaycan Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırmaqdan məmnunluğumu bildirirəm.

Bu gözəl bayram münasibətilə Sizə uzun ömür, xoşbəxtlik, uğurlar, ölkənizə və dost Azərbaycan xalqına davamlı inkişaf və rifah arzulayıram.

Dərin hörmətlə,

**Məşəl əl-Əhməd əl-Cabir əl-SABAH,**
**Küveyt Dövlətinin Vəliəhdi**

***

**Zati-aliləri!**

Azərbaycan Respublikasının milli bayramının – Müstəqillik Gününün 105-ci ildönümünün qeyd olunması münasibətilə Azərbaycan xalqının sevincini bölüşürük. Biz, həmçinin işğal altındakı torpaqların azad olunması, Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi kimi böyük nailiyyətlərinizi qeyd edirik. Bu tarixi Qələbə ilə bərabər Zati-alinizi və Azərbaycanın Birinci vitse-prezidentini yaşadığımız dünyanın üzləşdiyi çətinliklərə baxmayaraq, ötən 30 il ərzində bir çox sahələrdə əldə etdiyiniz böyük inkişaf münasibətilə təbrik edirik.

Cənab Prezident, fürsətdən istifadə edərək Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin yaradılması, inkişafı və beynəlxalq əlaqələrinin genişlənməsi istiqamətində göstərdiyiniz dəstəyə görə Sizə səmimi-qəlbdən minnətdarlığımızı bildiririk. İnanırıq ki, Sizin etimadınızla Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin fəaliyyətinin gücləndirilməsi işini birlikdə davam etdirəcəyik və daha uğurlu nailiyyətlərə imza atacağıq.

Cənab Prezident, xahiş edirik ən yüksək ehtiramımızı qəbul edin.

Dərin hörmətlə,

**Vayra Vike-FREYBERQA,**
**Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri, 1999-2007-ci illərdə Latviya Respublikasının Prezidenti**

**İsmail SERAGELDİN,**
**Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri, 1992-2000-ci illərdə Dünya Bankının vitse-prezidenti**

**Kolinda Qrabar-KİTAROVİÇ,**
**2015-2020-ci illərdə Xorvatiya Respublikasının Prezidenti**

**Tzipi LİVNİ,**
**2006-2009-cu illərdə İsrail Dövlətinin xarici işlər naziri**

**Boris TADİÇ,**
**2004-2012-ci illərdə Serbiya Respublikasının Prezidenti**

**Əmr MUSA,**
**2001-2011-ci illərdə Ərəb Dövlətləri Liqasının Baş katibi, 1991-2001-ci illərdə Misirin xarici işlər naziri**

**Rosen PLEVNELİYEV,**
**2012-2017-ci illərdə Bolqarıstan Respublikasının Prezidenti**

**Eka TKEŞELAŞVİLİ,**
**2010-2012-ci illərdə Gürcüstanın Baş nazirinin müavini**

**İvo YOSİPOVİÇ,**
**2010-2015-ci illərdə Xorvatiya Respublikasının Prezidenti**

**İv LETERME,**
**2008, 2009-2011-ci illərdə Belçika Krallığının Baş naziri**

***

**Hörmətli cənab Prezident!**

İcazə verin, Azərbaycanın milli bayramı – Müstəqillik Günü münasibətilə BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı adından və şəxsən öz adımdan Zati-alinizi təbrik edim.

Sizə cansağlığı və xoşbəxtlik, xalqınıza isə sülh və firavanlıq arzulayıram.

Dərin hörmətlə,

**Qu DONQYU,**
**BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının Baş direktoru**

**Hörmətli cənab Prezident!**

1918-ci ildə müsəlman aləmində yaradılmış ilk demokratik dövlət olan Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyuram.

Müstəqillik Günü, həmçinin müdrik rəhbər kimi Sizin Azərbaycanı yüksək səviyyədə inkişaf etdirən və beynəlxalq miqyasda mühüm rolu olan ölkəyə çevirən səmərəli xidmətlərinizi qeyd etmək üçün gözəl bir fürsətdir.

Məhz Sizin müdrik liderliyiniz sayəsində Azərbaycan dünyada mədəniyyətlərarası, dinlərarası və sivilizasiyalararası dialoq və əməkdaşlığın dövlət tərəfindən fəal şəkildə müdafiə və təşviq edildiyi, həmçinin bu dəyərlərin dövlət siyasətində təsbit olunduğu nadir ölkələrdən birinə çevrilib. Sizin uzaqgörənliyiniz Azərbaycanın bu sahədə aparıcı qlobal platforma kimi tanınmasına kömək etməkdə davam edir.

Sizə və sevimli Azərbaycan xalqına əlamətdar bayram münasibətilə bir daha təbriklərimi, əmin-amanlıq, firavanlıq arzularımı çatdırıram.

Zati-aliləri, ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

Dərin hörmətlə,

**Ravvin Mark ŞNAYER,**
**ABŞ-ın Etnik Anlaşma Fondunun prezidenti**

***

**Möhtərəm cənab Prezident!**

İcazə verin, Moldova Respublikasının Qaqauz Yeri Muxtar Ərazi Qurumunun sakinləri adından və şəxsən öz adımdan Sizə dərin hörmət və ehtiramımı bildirim.

Azərbaycan Demokratik Respublikasının yaradılmasının 105 illiyi münasibətilə səmimi təbriklərimi qəbul edin. Bu bayram Azərbaycan xalqının müstəqilliyinin, dövlətin çoxəsrlik inkişaf yolunun rəmzinə çevrilmişdir.

Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, firavanlıq, Azərbaycan xalqına isə sülh və tərəqqi arzulayıram.

Bu gün Azərbaycan Respublikası vətəndaşların sosial hüquqlarının təmin edildiyi, tarixi-mədəni və mənəvi irsin qorunması, inkişaf etdirilməsi üçün şəraitin yaradıldığı ən yüksək səviyyədə inkişaf etmiş ölkələrdən biridir.

Qaqauz Yeri Muxtar Ərazi Qurumunun rəhbərliyi Azərbaycan Respublikası ilə əməkdaşlığı yüksək qiymətləndirir və ümidvar olduğunu bildirir ki, ikitərəfli münasibətlərimiz xalqlarımızın rifahı naminə ildən-ilə daha da möhkəmlənəcək və genişlənəcəkdir.

Möhtərəm cənab Prezident, fürsətdən istifadə edərək, Sizə bir daha dərin ehtiramımı bildirirəm.

Hörmətlə və ən xoş arzularla,

**İrina VLAX,**
**Moldova Respublikasının Qaqauziya Muxtar Ərazi Qurumunun (Qaqauz Yeri) rəhbəri**

# İsxak Hersoq İçərişəhərdə olub

**Azərbaycanda səfərdə olan İsrail Dövlətinin Prezidenti İsxak Hersoq və xanımı Mixal Hersoq mayın 31-də dünya mədəni irs abidələrindən sayılan İçərişəhərlə tanış olublar.**



Qonaqlar gəzintiyə orta əsr Şərq memarlığının şah əsəri, dünya əhəmiyyətli tarixi-memarlıq abidəsi olan Şirvanşahlar Sarayı Kompleksi ilə tanışlıqdan başlayıblar.

Məlumat verilib ki, XV əsrin əvvəllərində inşa olunmuş tarixi abidənin tikililəri İçərişəhərin təpələrindən birinin ən hündür nöqtəsində yerləşir. O, Xəzər dənizindən və şəhərin ətrafındakı yüksəkliklərdən aydın görünür. Kompleks bu günədək öz tarixi-memarlıq üstünlüyünü saxlamaqdadır.

Qonaqlara UNESCO-nun Dünya İrsi Siyahısına daxil edilmiş "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu, həmçinin burada aparılan təmir, abadlaşdırma və bərpa işləri barədə ətraflı məlumat verilib. Bildirilib ki, İçərişəhər ərazisində müxtəlif əsrlərə aid nadir tarixi memarlıq abidələri qorunub saxlanılır.

Bildirilib ki, İçərişəhərdə yerləşən dünya əhəmiyyətli abidələrin qorunub saxlanması və mövcud görkəmdə gələcək nəsillərə çatdırılması üçün Prezident İlham Əliyevin tapşırıqları əsasında 2009–2013-cü illərdə burada konservasiya işləri aparılıb.

İçərişəhərlə tanışlıq qonaqlarda xoş təəssürat yaradıb.

**AZƏRTAC**

# İsrail Prezidentinin səfəri başa çatıb

**İsrail Dövlətinin Prezidenti İsxak Hersoqun Azərbaycan Respublikasına rəsmi səfəri mayın 31-də başa çatıb.**



Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

İsrail Prezidenti İsxak Hersoqu və xanımı Mixal Hersoqu Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Fariz Rzayev və digər rəsmi şəxslər yola saldılar.

**AZƏRTAC**

# YAP nümayəndə heyəti Çində

**Çin Xalq Respublikasında səfərdə olan Yeni Azərbaycan Partiyası Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyəti ÇXR-nın Uhan şəhərində "Hubey əyalətində Si Cinpinin yeni dövrdə Çin xüsusiyyətli sosializm haqqında ideyalarının praktik nailiyyətləri" mövzusunda keçirilən təqdimat mərasiminin iştirakçıları şərəfinə verilən rəsmi ziyafətdə iştirak edib.**




Çin səciyyəli sosializm ideyası əsasında Hubeyin regional inkişaf nümunəsi yaratdığını söyləyən Çin Kommunist Partiyası Hubey Əyalət Komitəsi katibinin müavini, Hubey Əyaləti Xalq Hökumətinin qubernatoru Van Conlin qazanılan təcrübənin dost ölkələrlə bölüşdürülməsinin və qarşılıqlı fikir mübadiləsi aparılmasının faydalı təşəbbüs olduğunu bildirərək tədbir iştirakçılarına minnətdarlıq ifadə edib.

Mərasimdə 30 ölkəni təmsil edən 170-dən çox nümayəndənin adından çıxış edən Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov belə bir mötəbər tədbirə dəvətə



və yüksək qonaqpərvərliyə görə YAP nümayəndə heyəti adından təşəkkürünü bildirib. O, bərabərlik, sosial ədalət, ictimai rifah, kollektiv inkişaf və güclü dövlətçilik prinsiplərinə əsaslanan müasir sosializm ideyasının Çin xalqının mənafeyinə xidmət etdiyini, Çin dövlətinin inkişafı üçün yeni imkanlar və perspektivlər yaratdığını söyləyib.

Tahir Budaqov Hubey Əyalətinin sürətli inkişafının yeni dövr Çin xüsusiyyətli sosializm ideyasının uğurla həyata keçirilməsinin bariz nümunəsi olduğunu qeyd edərək deyib: "Bugünkü tədbir də Si Cinpinin yeni dövr üçün müəyyən etdiyi Çin xüsusiyyətli sosializm quruculuğu istiqamətində əldə olunan nailiyyətlərin və mövcud reallıqların təqdimatı, gələcəyə baxış kontekstində yeni yanaşmaların ortaya qoyulması, yeni hədəflərin müəyyənləşdirilməsi üçün böyük əhəmiyyətə malikdir".

O, Cənubi Qafqazın ən böyük siyasi partiyası olan Yeni Azərbaycan Partiyasının nümayəndə heyətinin Çin Xalq Respublikasına səfəri önəmindən bəhs edib, keçirilən görüşlərin faydalı və məhsuldar olduğunu diqqətə çatdırıb. "Səfər çərçivəsində istər Azərbaycan–Çin münasibətləri, istərsə də Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasında çoxşaxəli əməkdaşlığa dair ətraflı fikir mübadiləsi apardıq", – deyən YAP sədrinin müavini Azərbaycan ilə Çin arasında müxtəlif sahələri əhatə edən səmərəli və qarşılıqlı faydalı əməkdaşlığın mövcud olduğunu deyib, 44 günlük Vətən müharibəsində qələbə qazanaraq yeni geostrateji reallıqlar yaradan ölkəmizin regionda çoxşaxəli işbirliyinə və inkişafa xidmət edən təşəbbüslərindən bəhs edib, Zəngəzur dəhlizinin bütövlükdə Avrasiya üçün geostrateji əhəmiyyətini diqqətə çatdırıb.

Xatırladırıq ki, nümayəndə heyəti səfər zamanı Çin Kommunist Partiyasının (ÇKP) nümayəndələri və bir sıra dövlət rəsmiləri ilə görüşlər keçirib, həmçinin "ÇKP-nin tarixi – Hubey əyalətində Si Cinpinin yeni eranın Çin xüsusiyyətli sosializmi haqqında" rəsmi təqdimatda iştirak edib.

**Q.QASIMOV, "Xalq qəzeti"**

# Milli Məclisin yaz sessiyası başa çatdı

**Mayın 31-də Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin 2023-cü ilin yaz sessiyasında son iclası keçirildi. Parlamentin sədri iclasda 14 məsələnin müzakirə olunacağını bildirdi. O qeyd etdi ki, gündəliyin birinci məsələsi – birinci oxunuşda müzakirəyə təqdim edilmiş "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsinin icrası haqqında" Qanununun layihəsidir.**



Qanun layihəsi barədə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili məlumat verdi. O, qeyd etdi ki, "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsi və "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsinin icrasına dair illik hesabat" "Büdcə sistemi haqqında" Qanunla müəyyən edilmiş müddətdə və formada Milli Məclisə təqdim edilib.

Komitə sədri bildirdi ki, 2022-ci ilin dövlət büdcəsi ölkə Prezidenti İlham Əliyevin müəyyən etdiyi strateji inkişaf prioritetləri, sosial-iqtisadi siyasət və təhlükəsizlik tədbirləri ilə uzlaşdırılaraq, qlobal iqtisadiyyatda gedən proseslərin, regionda baş verən hadisələrin, müdafiə və təhlükəsizlik çağırışlarının, işğaldan azad edilmiş ərazilərdə quruculuq işlərinin icmal və dövlət büdcələrinin əsas parametrlərinə ehtimal olunan təsirləri nəzərə alınmaqla icra olunub.

T. Mirkişili diqqətə çatdırdı ki, 2022-ci il Azərbaycan Respublikasının dövlətçilik və müstəqillik tarixində Prezident İlham Əliyevin rəhbərliyi ilə işğal altında olan ərazilərin azad edilməsi və işğalçı Ermənistan üzərində qazanılan hərbi-siyasi-tarixi Qələbədən sonra işğaldan azad edilmiş ərazilərdə bərpa-quruculuq işlərinin geniş vüsət aldığı bir il kimi qalacaq. Məhz bu ildə ilk dəfə Zəngilan rayonunun Ağalı kəndinə sakinlərin köçürülməsilə Böyük Qayıdışa start verilib, Zəngilan Beynəlxalq Hava Limanı açılıb, Laçın şəhəri nəzarətimizə keçib, Laçın koridorunun marşrutu dəyişdirilib, Qarabağ və Şərqi Zəngəzurda yol, enerji, su və digər layihələrin həyata keçirilməsi davam etdirilib. Qeyd edilib ki, bu işlərin aparılması üçün hesabat ilində dövlət büdcəsindən 4,3 milyard manat vəsait xərclənib.

Komitə sədri dedi ki, Azərbaycanda 2022-ci ildə iqtisadiyyatın real artımı gözlənilən 3,5 faiz proqnoza qarşı 4,6 faiz olub, ümumi daxili məhsulun həcmi isə ilk dəfə ən yüksək həddə – 133,8 milyard manata çatıb. Qeyri-neft-qaz sektorunda artım 9,3 faiz olaraq 69,8 milyard manat təşkil edib. 2021-ci ilin göstəriciləri ilə müqayisədə artan 40,6 milyard manatlıq ümumi daxili məhsulun 69,5 faizi neft-qaz sektorunun, 30,5 faizi isə qeyri-neft-qaz sektorunun hesabına formalaşıb. İl ərzində neft-qaz qiymətlərində əvvəlki illə müqayisədə əhəmiyyətli artım müşahidə olunması ÜDM-in strukturunda neft-qaz və qeyri-neft-qaz sektorlarının xüsusi çəkilərinin dəyişməsi ilə nəticələnib. Belə ki, neft-qaz sektorunun ÜDM-də payı 47,8 faiz, qeyri-neft-qaz sektorunun payı isə 52,2 faiz təşkil edib. Həmçinin ötən il dünyada müşahidə olunan mürəkkəb proseslər fonunda Azərbaycanda görülən tədbirlər nəticəsində makro-iqtisadi sabitliyə nail olunsa da, 2022-ci ildə orta illik inflyasiya ölkə üzrə 13,9 faiz, ərzaq inflyasiyası isə 19, 5 faiz olub. Hesabat ilində əhalinin nominal gəlirlərinin 20,5 faiz artması inflyasiyanın neqativ təsirlərinin yumşaldılmasına yönəldilib.

Sonra Hesablama Palatasının sədri Vüqar Gülməmmədov "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsinin icrası haqqında" Azərbaycan Respublikasının Qanun layihəsinə və Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsinin icrasına dair illik hesabata Hesablama Palatasının rəyini təqdim etdi.

Qanun layihəsi ətrafında geniş müzakirələr aparıldı. Deputatlar öz çıxışlarında bəzi qeyd və təkliflərini səsləndirdilər. Müzakirələrin sonunda "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edildi.

S.Qafarova növbəti 7 məsələnin ikinci oxunuşda olan qanun layihələri olduğunu bildirib. Qeyd edildi ki, qanun layihələrinin məqsədi qanunvericiliyin təkmilləşdirilməsidir.

Gündəlikdəki digər qanun layihələri də müzakirələrdən sonra səsə qoyularaq müvafiq qərar qəbul edildi.

Milli Məclisin plenar iclasına yekun vuran parlamentin Sədri Sahibə Qafarova qeyd etdib ki, bu gün yaz sessiyasının son iclasıdır. Diqqətə çatdırıldı ki, Konstitusiyanın 88-ci maddəsinin II hissəsinə uyğun olaraq, 83 deputat növbədənkənar sessiyanın çağırılması üçün Milli Məclisin sədrinə müraciət edib. S.Qafarova bildirdi ki, o, bu barədə sərəncam imzalayıb və iyun ayında parlamentin növbədənkənar sessiyası olacaq. Sonra o, ötən sessiyada görülmüş işlər haqqında məlumat verdi və dedi ki, Milli Məclisin 2023-cü ilin yaz sessiyasında 14 iclası keçirilib, 91 qanun qəbul edilib. Başqa sözlə, 1 yeni qanun qəbul olunub, 72 qanunda dəyişiklik edilib, 18 beynəlxalq müqavilə təsdiqlənib.

Qeyd edildi ki, Milli Məclis Konstitusiya ilə nəzərdə tutulan qanunvericilik səlahiyyətlərini tam həcmdə yerinə yetirmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən quruculuq işlərinin və islahatların qanunvericilik bazası daha da möhkəmləndirilmiş və təkmilləşdirilmişdir.

Çıxışının sonunda parlamentin sədri Milli Məclisin 2023-cü il yaz sessiyasını bağlı elan edib və Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Bununla da Milli Məclisin 2023-ci il yaz sessiyasının sonuncu plenar iclası başa çatıb.

**B. ƏLİQİSMƏT, "Xalq qəzeti"**

# Azərbaycanla Böyük Britaniya dost və tərəfdaş ölkələrdir



**Milli Məclisin sədri Sahibə Qafarova mayın 31-də Böyük Britaniya Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolson ilə görüşüb.**

S.Qafarova Baronessa Emma Nikolson ilə bundan önceki görüşünü və Böyük Britaniyaya səfərlərini məmnunluqla xatırlayıb. Azərbaycan və Böyük Britaniyanın dost və tərəfdaş ölkələr olduğunu bildirən parlamentin rəhbəri deyib ki, xüsusilə, iqtisadiyyat, ticarət və enerji sahələrində əlaqələrimiz yüksək səviyyədədir.

Görüşdə Azərbaycanın Avropa üçün etibarlı neft və qaz təchizatçısı olduğunu qeyd edən S. Qafarova, diqqətə çatdırdı ki, ötən il Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində strateji tərəfdaşlığa dair Anlaşma Memorandumu imzalanıb. Bərpa olunan enerji sahəsində də fəal əməkdaşlıq mövcuddur.

Parlamentlərarası əlaqələrdən danışan Milli Məclisin sədri deyib ki, bu sahədə də münasibətlər uğurla inkişaf etməkdədir: "Qarşılıqlı səfərlər bu münasibətlərin daha da dərinləşməsinə xidmət edir. 2023-cü ilin aprelində Böyük Britaniya Parlamentinin Azərbaycanla parlamentlərarası dostluq qrupunun rəhbəri Bob Blekmən və dostluq qrupunun bir neçə üzvü Azərbaycana səfər edib və onlar işğaldan azad edilmiş Ağdam şəhərinə də gediblər".

S.Qafarova görüşdə, həmçinin regionda mövcud olan vəziyyət, Azərbaycanın işğaldan azad olunmuş ərazilərində görülən genişmiqyaslı işlər barədə məlumat verib.

Göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirən Baronessa Emma Nikolson, Bakı Enerji Həftəsi çərçivəsində keçirilən tədbirdə iştirak etmək məqsədilə ölkəmizə səfər etdiyini bildirib. O, Azərbaycanın beynəlxalq enerji təhlükəsizliyinin təmin olunmasında etibarlı tərəfdaş olduğunu qeyd edib. Ticarət elçisi, ölkəmizin neft və qaz ehtiyatları ilə yanaşı, bərpa olunan enerjinin böyük potensialına da malik olduğunu diqqətə çatdırıb.

Azərbaycan və Böyük Britaniya arasında tərəfdaşlıq münasibətlərinin hazırkı səviyyəsindən razılığını bildirən Baronessa Emma Nikolson xüsusilə, enerji və ticarət sahələrində əlaqələrin yüksək inkişafını qeyd edib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

**Ə.BƏDƏLOV, "Xalq qəzeti"**



# Heydər Əliyev uzaqgörən strateq və böyük diplomat idi

(əvvəli qəzetimizin 10 və 19 may 2023-cü il tarixli saylarında)

**İctimai-siyasi xadim, müxtəlif illərdə ulu öndər Heydər Əliyevin rəhbərliyi altında rəhbər vəzifələrdə çalışmış, YAP Veteranlar Şurasının üzvü Əli Həsənovla müsahibənin davamını təqdim edirik.**

**– Əli müəllim, sizcə, Heydər Əliyevi hakimiyyətdən uzaqlaşdırmaq təkcə Mixail Qorbaçova lazım idimi?**

– Əlbəttə yox! Heydər Əliyevin hakimiyyətdən uzaqlaşdırılması daha çox erməni separatçılarına, Azərbaycana qarşı ərazi iddialarından əl çəkməyən "daşnaksütyun"çulara lazım idi və belə adamlar, qeyd etdiyim kimi, Qorbaçovun ətrafında yer almışdılar. Heydər Əliyev Azərbaycana qarşı hücumların qarşısında dayanan çox böyük qüvvə, güc idi. Çünki onu beynəlxalq aləmdə tanıyırdılar, Kremldə böyük nüfuzu vardı.

Heydər Əliyev çıxışlarının birində qeyd edir ki, "beş ildən artıq Moskvada işləyərkən oradan da Azərbaycana daha çox vəsait ayırmaqla, respublikamızın işlərini daha da irəli aparmaqla məşğul oldum".

Amma məsələ təkcə bunda deyildi. Qorbaçov SSRİ rəhbərliyinə gələn gündən Heydər Əliyevə qarşı ədalətsizcəsinə təzyiq etməyə başladı. Heydər Əliyev onun qısqanclığını başa düşürdü. Burada ikinci bir məsələ var idi, Heydər Əliyevin türk- müsəlman respublikalarını və onların rəhbərlərini Qorbaçovun ədalətsiz hücumlardan qoruması, Kremlin yeni sahibinin xoşuna gəlmirdi. Məsələn, Heydər Əliyev 1996-cı ildə Türkiyənin bir televiziya kanalına verdiyi müsahibədə buna aydınlıq gətirərək deyir: "1986-cı ildə ilk dəfə Qorbaçov Sovetlər Birliyinin tərkibindəki türkdilli respublikaların rəhbərlərini çıxarıb, onların yerinə rusları və başqa millətdən olan adamları təyin etməyə başladı. Mən ona anlatdım ki, belə etmək olmaz. Onunla bir neçə dəfə belə söhbətim oldu. Nəhayət, 1986-cı ilin dekabrında Qazaxıstanın rəhbəri Kunayevə qarşı ədalətsizlik oldu. Kunayev qazax, türk idi və 22 il o respublikaya rəhbərlik etmişdi. Mən ona qarşı olan ədalətsizliyə etiraz etdim. Digər tərəfdən onun yerinə Qorbaçov özünə yaxın, milliyyətcə rus olan bir adam təyin etdi. Qorbaçova söylədim ki, belə etmək olmaz. Qazaxıstan böyük bir respublikadır. Kunayev qazaxdır, o 22 ildir ora rəhbərlik edir. Ondan əvvəl də respublikaya qazaxlar rəhbərlik ediblər. Amma indi Qazaxıstana başqa millətdən olan adamı rəhbər göndərmək doğru deyil. O, mənə dedi ki, qazaxlar özləri bunu məndən rica ediblər. Ancaq yalan deyirdi..."

Sonra da bilirsiniz Qazaxıstanda nələr baş verdi və Heydər Əliyevin haqlı olduğu üzə çıxdı. Buna baxmayaraq, Qazaxıstanda xalqa qarşı amansız tədbirlər həyata keçirib faciə törədəndən sonra Sov.İKP MK-da araşdırma aparıb, "Qazaxıstan millətçiliyi" barədə qərar qəbul etdilər. Heydər Əliyev buna da etirazını bildirdi.

Və yaxıd başqa bir misal. Qorbaçov Kabardino – Balkar Muxtar Respublikasının rəhbəri, müsəlman Malbaxovu çıxarıb, Sibirdən bir rusu gətirib rəhbər təyin etmək istəyir. Heydər Əliyev buna da öz etirazını bildirir. Heydər Əliyevin türk-müsəlman respublikalarını müdafiə etməsi, onlara görə Baş katiblə mübahisə etməsi təbii ki, Qorbaçovun xoşuna gəlmirdi və onun planlarını pozurdu. Heydər Əliyev tədricən qorbaçovlaşan siyasi büroda arzuolunmaz şəxsə çevrilirdi. O, özü bunu belə ifadə edir: "Siyasi büroda mənim – bir türkün, müsəlmanın olması onlar üçün əlverişli deyildi". Əlbəttə bu daha çox Qorbaçovun əlaltılarının, Heydər Əliyevi hakimiyyət səlahiyyətlərindən uzaqlaşdırmaq üçün dəridən-qabıqdan çıxan ermənilərin işinə yarayırdı.

Yadınızdadırmı, 1982-ci ildə SSRİ-nin yeni rəhbəri Yuri Andropov Heydər Əliyevi Moskvaya dəvət edərkən ona nə deyir: "Mənim sənə ehtiyacım var, istəyirəm sən Moskvada işləyəsən. Azərbaycan sənin üçün dar oldu". Heydər Əliyev Nazirlər Soveti Sədrinin birinci müavini təyin olunandan dərhal sonra Andropovun şəxsi təşəbbüsü ilə SSRİ Nazirlər Soveti Rəyasət Heyətinin Operativ Məsələlər Komitəsinə rəhbərlik edir. Həmin illərdə Kremldə bu komitənin sözünün qarşısında ikinci söz deyilə bilməzdi. Komitənin fövqəladə səlahiyyətləri var idi.

Əlbəttə, Qorbaçov hakimiyyətə gələndən sonra Heydər Əliyevi dərhal işdən çıxara bilməsə də, tədricən vəzifələrindən uzaqlaşdırırdı. İş o yerə çatır ki, 1986-cı il iyulun sonunda Türkiyənin o zamankı Baş naziri Turqut Özal SSRİ-yə səfərə gəlir. Amma SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini Heydər Əliyev hətta protokol tədbirlərinə belə salınmır. SSRİ rəhbəri Qorbaçovun bədxah niyyətlərindən xəbərsiz olan Türkiyə tərəfi, elə Turqut Özal özü belə bundan çaşbaş qalır...

Nəhayət, bütün bu ədalətsizliklərə tab gətirməyən Heydər Əliyev istefa verdi. Qorbaçov istədiyinə nail oldu. Amma bununla iş bitmədi. O, Heydər Əliyevin nə qədər böyük nüfuz sahibi olduğunu, hətta Rusiyada belə ona xalqın böyük rəğbət bəslədiyini bilirdi. Ona görə də Heydər Əliyevə qarşı çirkin kampaniyalara başladı. Heydər Əliyev sonralar bunu ürək ağrısı ilə belə ifadə edirdi: "Qorbaçov hakimiyyətində mənə qarşı çox mənfi münasibət yarandı. Onlar məni bir millətçi kimi ittiham etmək istədilər. Hətta məni təqib etmək istədilər. Məni həbs etmək istədilər".

**– Əli müəllim, Heydər Əliyev vəzifədən uzaqlaşdırılandan sonra niyə Qorbaçov ondan əl çəkmir, təqib və təzyiq altında saxlamağa çalışırdı?**

– Çünki Heydər Əliyevin varlığı Qorbaçovu rahat qoymurdu, onu istefada olanda belə özünün ciddi rəqibi hesab edirdi. O, İttifaq respublikalarında, Rusiyanın özündə, elə Kremlin Qorbaçovdan narazı olan bir çox rəhbər şəxsləri arasında Heydər Əliyevə SSRİ-nin xilaskarı kimi ümid bəslədiklərini bilirdi.

Sovet rejiminin ən böyük ədalətsizliyi bunda idi ki, ömrünü quruculuq və yaradıcılıq işinə həsr etmiş bir siyasət adamını ləkələməyə qalxdılar. Ən acı olan isə bu idi ki, Azərbaycanda da vaxtı ilə Heydər Əliyevin vəzifə verdiyi, yetişdirdiyi bəzi adamlar Qorbaçovun ona qarşı başladığı çirkin kampaniyaya qoşuldular. Heydər Əliyev ürək ağrısı ilə bunu dilə gətirirdi və təəssüflə deyirdi: "1987-ci ildə istefa verdim və qalıb Moskvada yaşadım. 1988-ci ildə mənə qarşı kampaniya qaldırdılar ki, Heydər Əliyev Azərbaycanda bunu düzgün etməyib, onu düzgün etməyib, bu yanlış olub, o yanlış olub. Azərbaycandan da bəzi pis adamlar Qorbaçova qoşuldular, məni ləkələmək, hörmətdən salmaq istədilər. Mənim haqqımda qəzetlər yazdılar, cavab vermək istədim, imkan vermədilər".

Bütün bu ədalətsizliklər əks effekt verirdi və xalq Heydər Əliyevi daha çox sevməyə başlayırdı. Təbii ki, Heydər Əliyevdən sonra əli-ayağı tam açılan Qorbaçov ermənilərin planlarına "yaşıl işıq" yandırmağa başladı.

Heydər Əliyevin istefasından çox keçmədi ki, Azərbaycanın bəlaları başladı. Dağlıq Qarabağ problemini alovlandırmaq və separatçı qüvvələrin əlinə bəhanə vermək üçün şəxsən M.Qorbaçovun göstərişi ilə SSRİ Dövlət Təhlükəsizlik Komitəsi 26-28 fevral 1988-ci ildə Sumqayıt hadisələrini törətdi. Mən bütün bu hadisələrin şahidi olmuşam. Çünki Sumqayıt hadisələrindən sonra şəhərin bütün rəhbər vəzifəli şəxslərini uzaqlaşdırdılar, bircə mən qaldım iş başında. Hadisə baş verəndən bir gün sonra əmanət kassasının rəhbəri yanıma gəlib dedi ki, Əli müəllim, keçən il – 1987-ci ilin sentyabr-oktyabr ayında bizdə hesabları olan bütün ermənilər əmanətlərini qəpiyinə qədər kassadan çıxarıblar. Soruşdum ki, sizdə hesabların özü qalırmı? Dedi, qalır. Tapşırdım ki, hamısını gətirsin. Təsəvvür edirsinizmi, 5 min erməni vətəndaşı Sumqayıt Mərkəzi Əmanət Kassasından pullarını axırıncı qəpiyinə kimi çıxarmışdılar. Bu onu göstərirdi ki, onlar şəhərdə planlaşdırılan hadisələrdən qabaqcadan xəbərdar ediliblər.

Başqa bir fakt: Hadisə 26-sı başladı. 27-si səhər Almaniya TV-də hadisənin görüntülərini və videoçəkilişini nümayiş etdirdilər. Məəttəl qaldıq. Axtarış aparmağa başladıq. Beşmərtəbəli binanın birinin damında kamera qoyulubmuş. Kameranın bərkidildiyi armatur ayaqlıqlar aşkar edib götürdük. Bilavasitə ermənilər tərəfindən təşkil edilən hadisələrdə öldürülən 32 nəfərdən 6-sı azərbaycanlı idi. Bu da onu göstərirdi ki, ermənilər səhvən azərbaycanlıları qətlə yetiriblər. Hadisələrin əsas təşkilatçılarından olan erməni Qriqoryanın cibindən sxemlər çıxdı. Qeydlər vardı ki, hansı qrup və kim hara gedəcək, hansı mənzilə girəcək.

Hadisələrdən dərhal sonra istintaq qrupları işə başladılar. Hamısı Moskvadan, SSRİ Prokurorluğundan gəlmişdilər. Bir nəfər də olsun azərbaycanlını yaxına buraxmadılar. Müstəntiqlərdən biri 2 ay məni dindirdi. Axırda əlimdə olan faktları gətirib qoydum stolun üstünə və dedim, bunlar onu göstərir ki, bu hadisələr əvvəlcədən planlaşdırılıb. Bütün bunları nəzərə alarıq, deyib sübutları da götürüb getdi və bir də Sumqayıtda görünmədi. Onda başa düşdüm ki, bunu Qorbaçovun göstərişi ilə Moskvanın xüsusi xidmət orqanları təşkil edib.

Bu hadisədən sonra 1990-cı ilin qanlı Yanvar faciəsi baş verdi. Heydər Əliyev Moskvada təqib olunsa da xalqının başına açılan bu amansızlığa dözməyərək meydana çıxdı və bütün dünyaya bəyan etdi ki, Bakıya Sovet Ordu hissələrinin yeridilməsi Azərbaycan xalqına qarşı təcavüzdür. İndi sual verirəm: Heydər Əliyev səviyyəsində hansı Azərbaycan siyasi və dövlət xadimi, təqib olunmasına baxmayaraq, bütün ailəsini yanına alıb, qırmızı imperiyanın baş şəhərinə gəlib dünya mətbuatı qarşısında SSRİ rəhbərliyinə qarşı belə ittiham irəli sürə bilərdi? Görün özü bunu necə dilə gətirirdi: "1990-cı ildə Azərbaycana qarşı bir təcavüz edildi. Onda mən Moskvada idim. Mən ailəmlə bərabər Moskvada bu faciə ilə bağlı keçirilən mitinqə getdim. Orada Qorbaçovun, Kommunist Partiyasının, Sovetlər Birliyinin əleyhinə çıxış etdim. Onları məhkum etdim ki, siz Azərbaycana qarşı ədalətsizlik, təcavüz etmisiniz, insanlar şəhid olub, qan tökmüsünüz, siz cinayətkarsınız. Bundan sonra məni həbs etməyə çalışdılar..."

Etiraf etmək lazımdır ki, həmin vaxt Qorbaçovun "bandası" Heydər Əliyevə qarşı qəsd də təşkil edə bilərdi. Bu istisna deyildi, amma Heydər Əliyevin nüfuzu qarşısında bu addımı atmağa cəsarət etmədilər.

Bundan sonra SSRİ artıq dağılmağa başladı. Bunun fonunda Azərbaycana qarşı Ermənistanın elə Rusiyanın dəstəyi ilə təcavüzü daha geniş xarakter aldı. Ermənistanda yaşayan azərbaycanlılar kütləvi şəkildə amansızlıqla deportasiya edildilər. 1992-ci ilin fevralında Xocalı faciəsi törədildi. May ayında daxili qüvvələrin hakimiyyət kürsüsü uğrunda mübarizəsi nəticəsində bir-birinin ardınca Şuşa, Laçın, Kəlbəcər erməni-rus hərbçiləri tərəfindən işğal olundu. Yəni bütün bunlar Heydər Əliyevin Azərbaycanda, hakimiyyətdə olmadığı 6 il ərzində baş verdi. Heydər Əliyev Azərbaycanda hakimiyyətdə olsaydı, təbii ki, bu hadisələr heç vaxt baş verə bilməzdi...

**– Bir qədər gec də olsa, Heydər Əliyev Azərbaycana qayıtdı. Amma hələ hakimiyyətdə deyildi. O vaxt güman etmək olardımı Heydər Əliyev bir gün hakimiyyətə qayıdacaq və Azərbaycanı xilas edəcək?**

– Bəli, belə düşünənlər, bunu arzulayanlar var idi. Heydər Əliyev Moskvadan Bakıya gəlsə də ona burada yaşamağa nə imkan verdilər, nə də belə bir şərait var idi. Vaxtı ilə ona məxsus olan evi belə əlindən almışdılar. Amma doğmaları, Naxçıvan ona qucaq açdı. Çox keçmədi ki, Ali Sovetə seçkilər zamanı Heydər Əliyevin namizədliyini irəli sürüb onu deputat seçdilər. Sonra Naxçıvan Ali Sovetinin Sədri kimi muxtar respublikaya rəhbərlik etməyə, əslində Naxçıvanı erməni işğalından, region əhalisini aclıq və səfalətdən xilas etməyə başladı. Azərbaycanda xalq gördü ki, Heydər Əliyev elə əvvəlki nadir, fenomenal lider olaraq qalıb və dünyada ona böyük rəğbət var.

Heydər Əliyevin nüfuzunu və ona olan böyük hörməti göstərən maraqlı bir hadisəni açıqlamaq istərdim. RSFSR Ali Sovetinin sonuncu sədri Ruslan Xasbulatov Türkiyədə olarkən artıq Naxçıvanda Ali Sovetin sədri olan Heydər Əliyevin də orada olduğunu öyrənir və onunla görüşmək istədiyini bildirir. Protokoldan olan rəsmilər ona deyirlər ki, diplomatik normalara görə muxtar respublika Parlamentinin rəhbəri onun qəbuluna gəlməlidir, RSFSR Ali Soveti sədrinin onun qəbuluna getməsi düzgün deyil. Amma Xasbulatov protokolun işçilərini başa salır ki, Qafqazda yaşca kiçik olan böyüyə hörmətini bildirmək üçün onun qəbuluna gedir. Beləcə o, Heydər Əliyevin iqamətgahına gedir və burada onu çox hərarətlə qarşılayırlar. Burada Türkiyədən olan həmkarı öz çaşqınlığını bildirəndə, Xasbulatov cavab verir ki, onların kəşfiyyatı yaxşı işləmir: "Heydər Əliyevin o qədər güclü potensialı var ki, tezliklə o, dövlət başçısı olacaq".

**– Çox keçmədi ki, həqiqətən belə oldu və Heydər Əliyev xalqın tələbi ilə hakimiyyətə gəldi. Amma ona keçmiş hakimiyyətlərdən çox ağır və təhlükəli miras qalmışdı. Heydər Əliyev bunların öhdəsindən necə gəldi? Ümumiyyətlə, o dövrü qısaca necə səciyyələndirərdiniz?**

– Heydər Əliyev böyük strateq idi, çox üstün keyfiyyətlətə malik idi – qarşılaşdığı siyasətçilərin bir çox gedişlərini, onların qəbul edəcəyi qərarları qabaqcadan hesablamağı bacarırdı. Heydər Əliyev hələ sovet kəşfiyyatının peşəkar zabiti kimi bu keyfiyyətə yiyələnmişdi. Bu bacarıqlar da ona 1993-cü ildə Azərbaycanda vətəndaş müharibəsi alovunu söndürməyə kömək etdi. Hətta rəqibləri belə ona hörmətlə yanaşırdılar. Heydər Əliyevdən kim danışırsa, bu siyasətçinin əsas tərifi bir söz olur – müdriklik.

Rusiya xarici işlər nazirinin keçmiş müavini, Federasiya Şurasının beynəlxalq məsələlər komitəsinin sədri Qriqori Karasin bu yaxınlarda mətbuata verdiyi müsahibəsində vurğulayır ki, o, Heydər Əliyevi tarixin– sovet və postsovet dövrünün ən görkəmli siyasətçisi hesab edir: "Heydər Əliyeviçlə görüşlərimdən ən parlaq təəssüratlarım var. O, çox çətin dövr üçün lazım olan siyasi liderə xas, çox zəruri keyfiyyətlərə malik, heyrətamiz dərəcədə çevik, bacarıqlı, müdrik və ağıllı bir insan idi. Müasir Azərbaycanın formalaşmasında onun rolu inanılmaz dərəcədə böyükdür. Ölkənin inkişafının əsasını qoydu. Məsələn, 30 illik fasilədən sonra Azərbaycana ilk dəfə gələnlər ölkənin nəhəng tərəqqisinə heyran qalacaqlar. Ölkədə müəyyən problemlər var, lakin Heydər Əliyeviçin adı onun vətəndaşları üçün bu problemləri həll etməkdə stimul rolunu oynayır".

Heydər Əliyev nəhəng sovet dövlətinin rəhbərlərindən biri kimi böyük diplomatik və praktik təcrübəyə malik idi. Müstəqil Azərbaycan dövlətinin başçısı postuna gələndə bu təcrübə ona ABŞ, Avropa və Asiya ölkələrinin rəhbərləri ilə bərabər səviyyədə ünsiyyət qurmağa və yeni yaradılan əlaqələrdən ölkəsinin xeyrinə istifadə etməyə imkan verdi.

Heydər Əliyev xaos və anarxiya içində olan Azərbaycanda qısa bir zamanda balanslaşdırılmış xarici siyasət xəttini formalaşdırıb həyata keçirməyə başladı. Bilavasitə onun incə siyasəti və beynəlxalq aləmdəki nüfuzu sayəsində Azərbaycan üçün əlverişli şərtlərlə "Əsrin müqaviləsi" neft kontraktı imzalandı. Burada da bir məsələni xüsusi vurğulamaq lazımdır ki, müqavilənin uğurunu təmin edən ikinci əsas amil danışıqların Heydər Əliyevin özü kimi inandığı gənc siyasətçi İlham Əliyev tərəfindən aparılması oldu. Danışıqlar uzun və çətin keçdi. Azərbaycanın neft siyasətini dəyişmək üçün Bakıya təzyiq göstərmək məqsədilə kənardan ruhlandırılan bir neçə silahlı üsyan cəhdlərilə vəziyyəti daha da gərginləşdirdilər. Lakin belə təzyiqlərlə Heydər Əliyevin iradəsinə və qətiyyətinə üstün gəlib vətəninin mənafeyinin əksinə getməyə sövq etmək mümkün deyildi və olmadı da. Yəqin xatırlayırsınız, Heydər Əliyev, müqaviləni imzalayarkən sevincini gizlədə bilmirdi, çünki özünün söylədiyi kimi, gələcək nəsillərin tarixi hadisəni yüksək qiymətləndirəcəyinə əmin idi.

"Əsrin müqaviləsi"nin bağlanması Azərbaycan üçün birbaşa iqtisadi səmərə ilə məhdudlaşmır. Heydər Əliyevin uzaqgörənliyi sayəsində multiplikativ effekt əldə edildi: "Əsrin müqaviləsi"ndə dünyanın səkkiz ölkəsindən 13 şirkət iştirak edirdi. Qısa bir zaman kəsiyində ölkənin dünyadakı geosiyasi statusu kəskin şəkildə yüksəldi, xalqın sosial rifahının əsası qoyuldu, respublikanın neft-maşınqayırma və neft-kimya sənayesinə güclü təkan verildi. İqtisadiyyata milyardlarla dollar axın Azərbaycanın bazar iqtisadiyyatına keçidində ortaya çıxa biləcək problemləri önlədi və əldə edilən gəlirlər sənayenin bir çox sahələrində yeni texnologiyaların tətbiqinə imkan verdi. Məhz Heydər Əliyevin dövründə Bakının yenidən qurulması işlərinə başlanıldı. Paytaxtın yenidən qurulması işi artıq onun siyasi varisi Prezident İlham Əliyev tərəfindən çox böyük uğurla davam etdirildi. İndi gördüyümüz Bakını 20 il əvvəlki Bakı ilə müqayisə etmək belə mümkün deyil.

Sovet hakimiyyətinin yetişdirdiyi bir çox nəhəng siyasətçilərdən fərqli olaraq, Heydər Əliyev dəyişdi, yeni şəraitə daha çevik uyğunlaşdı. Çünki zaman başqa zaman idi, tələblər dəyişmişdi və Azərbaycan artıq müstəqil ölkə kimi yalnız özünə arxalana bilərdi. Hamının sosialist təsərrüfatı sisteminin ustası kimi qəbul etdiyi Heydər Əliyev sahibkarlıq, mülkiyyətçilik üzərində qurulan bizneslə, müasir dövrün iş adamları ilə çox asanlıqla əməkdaşlıq etməyə başladı.

Heydər Əliyev 75-80 yaşında belə ona "sədaqətli olan" kompüter yaddaşı ilə həmsöhbətlərini təəccübləndirərək hamı ilə ortaq dil tapmağı çox asan bacarırdı. Diqqət etmisinizsə, 1960-cı illərdə respublikaya rəhbərlik etmiş böyük siyasətçi XXI əsrdə "hakimiyyətin acı dadı var" deyə, zamanın ruhunu hiss edirdi. Yüksək siyasi eşalonlarda, kuluarlarda görmədiyi qalmayan Heydər Əliyevn həyat təcrübəsi ona başqalarından bir az daha uzağı görməyə imkan verirdi.

Heydər Əliyevin miqyasa gəlməyən dövlətçilik xidməti, hakimiyyətə gəldikdən sonra Azərbaycanda daxili siyasi sabitliyə nail olması ilə məhdudlaşmır. O, həm də ölkənin iqtisadi müstəqilliyinin əsasını qoymuşdur. Ölkədə istehsalın bərpası, maliyyə vəziyyətinin yaxşılaşdırılması, investisiyaların cəlb edilməsi üçün antiböhran proqramının işlənməsi, milli ordunun yaradılması və ən əsası yeni Konstitusiyanın hazırlanması təşəbbüsü ilə çıxış edib, qısa vaxtda onun referendum yolu ilə qəbul edilməsinə nail olub. Görün Heydər Əliyev Konstitusiya ilə bağlı nə deyir: "Biz elə bir Konstitusiya hazırlayıb qəbul etməliyik ki, o, Azərbaycanın uzun müddət demokratik prinsiplər əsasında sabit mövcudluğunu təmin edən tarixi sənədə, əsas qanuna çevrilsin".

**– Əli müəllim, yəqin həmin illərin xatirələrindən danışa biləcəyiniz çox hadisələr və görüşlər var. O xatirələrdən birini oxucularımızla bölüşə bilərsinizmi?**

– Niyə də yox! 1995-ci ildə keçirilən parlament seçkiləri vaxtı Heydər Əliyev məni qəbul etdi. O zaman "Azərkimya" şirkətində vitse-prezident vəzifəsində çalışırdım. Sumqayıtda bir dairədə təkrar seçkilər keçirilməli idi. Mən həmin dairədən Milli Məclisə namizədliyimi irəli sürmək istəyirdim və bunu YAP-da razılaşdırmaq lazım idi. Əsas rəqibim də radikal müxalifətin rəhbərlərindən biri idi.

Ulu öndər namizədliyimi verməmişdən əvvəl məni qəbul etdi və 2 saata yaxın söhbətimiz oldu.1969-cu ildən 1996-cı ilin fevralına qədər Sumqayıtda nələr baş verib, nələr olub, kimlər vəzifələrdə olub, hamısını məndən soruşdu. Bütün iri müəssisələrin rəhbərlərini də əzbər bilir və bir-bir soruşurdu. Sonra mənə qayıtdı ki, "Axı mən səni Sumqayıtda partiya komitəsinin katibi qoymuşdum, niyə sonra yenə icraiyyə komitəsinə geri qayıtmısan?" Vəziyyəti açıqladım. Bir qədər söhbətdən sonra dedi: "Mənə dedilər, sən Sumqayıtdan namizədliyini vermək istəyirsən, ordan seçilə biləcəksənmi?" Dedim: "Cənab Prezident, buna şübhəniz olmasın. Həmin dairə 3 mikrorayondan ibarətdir. Bir tərəfdən oradakı evləri tikmişəm, bir tərəfdən də paylamışam. O mikrorayonda 30 min vətəndaşa mənzil vermişəm. Sizin vaxtınızda başqa cür işləmək mümkün deyildi. Ona görə də birinin bir stəkan çayını içməmişəm". Dedi: "Bəs indiki insanlara niyə demirsiniz ki, bizim vaxtımızda necə işləmisiniz?" Cavab verdim: "Niyə demirik? Deyirik, insanlar, sadə vətəndaşlar bunu özləri deyirlər". Söhbətimizin sonunda dedi: "Razılıq verirəm, get ərizəni ver işdən çıx, namizədliyini ver".

**– Necə oldu ki, Heydər Əliyev sizi, ekologiya komitəsi ilə yanaşı, ölkədə ən ağır sahə olan qaçqınlar və məcburi köçkünlərlə işləyən komitəyə sədr təyin etdi?**

– 1999-cu ildə Azərbaycana neft gəlirləri daxil olmağa başlayanda Heydər Əliyev məcburi köçkünlərin sosial inkişaf fondunu yaratdı. Bir il Milli Məclisin deputatı kimi fəaliyyət göstərəndən sonra məni ekologiya komitəsinin sədri vəzifəsinə təyin etdi. Amma deputat səlahiyyətlərim də qalırdı. Bundan bir il sonra –1998-ci il noyabrın 18-də Heydər Əliyevin dəvətilə onun qəbulunda oldum. Dedi: "Əli, bilirsən səni niyə dəvət etmişəm?" Dedim: "Yox, cənab Prezident". Dedi: "İstəyirəm səni Qaçqınlar və Məcburi Köçkünlər Komitəsinə rəhbər göndərim. Biz bütün dünyada biabır oluruq. Yardımlar hamısı bazarlarda, mağazalarda satılır. Köçkünlər yardımların heç 20 faizini ala bilmirlər. Bu rüsvayçılıqdır, çadırlarda, vaqonlarda yaşayan məcburi köçkünün payını necə mənimsəmək olar?! Bu vicdansızlıqdır. Beş ildə bu komitəyə 5 rəhbər təyin etmişəm, heç biri etimadı doğrultmayıb. Mən deyə bilmərəm onlar işləyə bilmirlər. Sadəcə onlar bu köçkün və qaçqınları başa düşə bilmirlər. Amma öyrənmişəm, bilirəm ki, sənin 11 ailə üzvündən 9-u qaçqındır. Elə bilirəm, sən bunların düşdüyü vəziyyəti başa düşərsən. Öhdəsindən gələ bilərsənmi?" Dedim: "Cənab Prezident, əgər siz bu vəzifəni mənə etibar edirsinizsə, mən bütün varlığımla çalışacağam ki, bu etimadı doğruldum. Sizin tapşırığınız mənim üçün qanundur".

Dedi: "İnanıram sənə. Ona görə də sənə başqa bir səlahiyyət də verirəm ki, sən bu komitəni düşdüyü bataqlıqdan çıxara biləsən. Səni Qaçqınlar və Məcburi Köçkünlər Komitəsinin sədri vəzifəsilə yanaşı, həm də Baş nazirin müavini təyin edirəm. Eyni zamanda, Ekologiya Komitəsinin sədri vəzifəsində də qalırsan".

Heydər Əliyevin eyni vaxtda məni Baş nazirin müavini təyin etməsinin nə qədər uzaqgörən bir addım olduğunu mən iş prosesində dərk etməyə başladım. Əgər bu vəzifə mənə verilməsəydi, mən komitə sədri vəzifəsində onun verdiyi tapşırıqları icra edə bilməzdim. Ulu öndər bütün bunları ölçüb-biçib qərar vermişdi və bu da onun idarəçilikdə fenomenal qabiliyyətini göstərən amil idi.

İndi yadıma düşür ki, mənimlə işğalda olan torpaqlar, qaçqınlar və məcburi köçkünlər barədə çox kövrək söhbətləri olurdu. Həmişə deyirdi ki, "İnsanın yurdundan, yuvasından didərgin düşməsi ağır dərddir. Bircə torpaqlarımızı işğaldan azad edib bu insanları öz doğma yurdlarına qaytara bilsək, tariximizin ən mühüm qələbəsinə imza atmış olarıq". Şuşanın erməni işğalında olması ilə isə heç barışa bilmirdi.

İllər keçdi. Ulu öndər bunu görməsə də onun bu arzularını varisi, strateji siyasətinin və dövlət idarəçilik yolunun davamçısı Prezident İlham Əliyev gerçəyə çevirdi. Hər dəfə cənab Prezidentimizin Şuşanın azad edilməsindən sonra atasının məzarını ziyarət edib söylədiyi: "Mən xoşbəxt adamam ki, atamın arzusunu yerinə yetirdim, Şuşanı azad etdim" sözlərini eşidəndə kövrəlməyə və iftixar hissi keçirməyə bilmirəm. Bəli, Heydər Əliyev kimi nəhəng bir insanın Prezident İlham Əliyev kimi də dəyanətli, ləyaqətli və cəngavər oğlu olmalı idi.

**– Əli müəllim, maraqlı söhbətə görə çox sağ olun!**

*Söhbəti qələmə aldı:*
*İlqar RÜSTƏMOV, "Xalq qəzeti"*

# Dövlətimizin gerçək müstəqilliyi Heydər Əliyevin qətiyyəti və siyasi iradəsi sayəsində bərqərar olmuşdur



**“Heydər Əliyev ili”ndə qeyd olunan dövlət bayramımız olan respublika günü daha əlamətdardır və xüsusi məna kəsb edir.**

Azərbaycan Respublikası Prezidentinin qanunvericilik təşəbbüsü əsasında 15 oktyabr 2021-ci il tarixdə Milli Məclisin qəbul etdiyi “Müstəqillik Günü haqqında” qanunun preambulasında belə bir ifadə yer almışdır: “...dövlətçilik tariximizdə müstəsna əhəmiyyətli mərhələlərin, xüsusən müstəqilliyin əldə edilməsi və bərpası kimi tarixi günlərin onların mahiyyəti və məzmununa uyğun daha dəqiq ifadə olunması böyük önəm kəsb edir”.

Məlum olduğu kimi, 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin Milli Şurası İstiqlal Bəyannaməsini imzalayaraq Azərbaycanın müstəqilliyini dünyaya bəyan etmişdir. Lakin cəmi 23 aydan sonra Azərbaycan Demokratik Respublikası süqut etmişdir. 1991-ci il oktyabrın 18-də isə "Azərbaycanın dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktının qəbul edilməsi ilə ölkəmiz dövlət müstəqilliyini bərpa edərək Şərqdə ilk respublikanın varisi kimi Azərbaycan tarixinin yeni bir dövrünə qədəm qoymuşdur. Beləliklə, XX əsr Azərbaycanın dövlət müstəqilliyinin həm elan olunması, həm də bərpa edilməsi ilə əlamətdar olmuşdur.

Hələ zamanında dövlət müstəqilliyini xalqımızın ən böyük tarixi nailiyyəti adlandıran ulu öndər Heydər Əliyev Azərbaycan Demokratik Respublikasının yarandığı günü məhz müstəqillik günü kimi dəyərləndirmiş və bunu obyektiv yanaşmalarla əsaslandırmışdı. Onun 1999-cu ildə 28 May-Respublika Günü münasibətilə Azərbaycan xalqına ünvanladığı müraciətdə deyilir: “...1918-ci ildə Azərbaycan xalqı öz müstəqilliyinə nail ola bildi, xalq cümhuriyyəti yarandı. Azərbaycanda Şərq aləmində ilk dəfə demokratik, hüquqi dövlət yarandı, xalq cümhuriyyəti qısa bir zamanda çox işlər gördü. Ən mühümü odur ki, Azərbaycanın müstəqilliyinin, dövlətçiliyinin əsaslarını qurdu, Azərbaycan dövlətinin, hökumətinin təsisatlarını yaratdı”. Bu baxımdan 28 may tarixinin Müstəqillik Günü, 18 oktyabr tarixinin isə – Müstəqilliyin Bərpası Günü adı ilə bayram kimi qeyd olunması barədə qərarın qəbul edilməsi məntiqi nəticədir.

Xalqımızın gerçək müstəqilliyə gedən yolu çox keşməkeşli və ağır proseslərlə müşayiət olunmuşdur. Belə ki, 1991-ci il oktyabrın 18-də "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı qəbul olunmasına baxmayaraq ilkin mərhələdə Ermənistanın təcavüzü və hakimiyyət uğrunda daxili çəkişmələr çox keçmədən Azərbaycanı əldə edilmiş tarixi nailiyyətin yenidən itirilməsi təhlükəsi ilə üzüzə qoymuşdu. Səriştəsiz və xəyanətkar AXC-Müsavat cütlüyünün antimilli mövqeyinin nəticəsi olaraq Qarabağ torpaqlarının işğalı, separatizm meyilləri, iqtisadi və sosial tənəzzül, yüz minlərlə məcburi köçkün və qaçqının həllini tapmayan ağır problemləri ilə müşaiyət olunan proseslər sonda ölkəni vətəndaş müharibəsinə sürüklədi. Ona görə də hakimiyyətə inamını tamamilə itirmiş xalq nicat yolunu yalnız Heydər Əliyevi hakimiyyətə dəvət etməkdə gördü.

Əsl həqiqət ondan ibarətdir ki, Heydər Əliyev Sovet Azərbaycanına rəhbərlik etdiyi birinci dönəmdə (1969-1982-ci illər) qurucu lider kimi xalqın böyük rəğbətini qazanmışdı. Çünki 1969-cu ilə qədər SSRİ-nin aqrar əyaləti kimi tanınan Azərbaycan məhz Heydər Əliyevin fədakarlığı sayəsində həmin tarixdən sonra elmi-texniki tərəqqinin geniş şəkildə tətbiq olunduğu respublikaya, yüksək mədəniyyəti ilə bütün dünyada tanınan diyara çevrilmişdi. Respublikanın 1978-ci ildə qəbul olunmuş Konstitusiyasında Azərbaycan dilinin dövlət dili kimi təsbit olunması, azərbaycançılıq ideologiyasının formalaşması istiqamətində atılan addımlar, peşəkar hərbçilərin hazırlanması işinə xüsusi diqqət yetirilməsi və bir çox digər məsələlər Heydər Əliyevin milli azadlıq ideyasına söykənirdi. Bu baxımdan inamla demək olar ki, həmin dövr, eyni zamanda, milli özünüdərkin möhkəmlənməsi mərhələsidir. Təsadüfi deyil ki, o zaman İttifaq miqyasında iqtisadi cəhətdən özünü tam təmin edə bilən iki respublikadan biri məhz Azərbaycan olmuşdur ki, bu da heç kimdən asılı olmadan müstəqil yaşamaq imkanı deməkdir. Sonralar həmin dövrdə həyata keçirilmiş tədbirlərdən danışan ulu öndər Heydər Əliyev demişdir: “Bəli, mən istəyirdim ki, Azərbaycan müstəqil olsun. Hər şeydən əvvəl, iqtisadi cəhətdən. Çünki istənilən müstəqilliyin əsasında iqtisadiyyat durur”.

Heydər Əliyev 1987-ci ildə SSRİ-nin ali hakimiyyət orqanlarında tutduğu yüksək vəzifələrdən uzaqlaşdırıldıqdan sonra ona qarşı bu ədalətsiz münasibətdən məyus olmuş Azərbaycan xalqının Sovetlər Birliyinə inamı sarsıldı və məhz bu hadisə onun müstəqillik məfkurəsinin formalaşmasına ən güclü təkan oldu. Eyni zamanda, xalq azadlıq hərəkatı və 1990-cı ilin qanlı yanvar hadisələri də müstəqillik düşüncələrinə yol açan amillərdən olmuşdur.

Mərkəzin və yerli hakimiyyətin təqiblərindən qorunaraq 1990-cı il iyulunda gizli yollarla Bakıya gələn və iki gündən sonra Naxçıvanın harayına yetişən Heydər Əliyev həmin il noyabrın 17-də Muxtar Respublikanın Ali Məclisinin Sədri seçildi. Ulu öndər siyasi fəaliyyətini orada davam etdirməyə, faktiki olaraq blokada vəziyyətinə düşmüş Naxçıvanın ağır problemləri ilə məşğul olmağa başladı. O, hələ müstəqilliyin rəsmi bəyan olunmadığı bir vaxtda üçrəngli bayrağımızı qaldıraraq Naxçıvanda sovet rejiminin sonuna çıxmaqla müstəqilliyimizin bərpasına gedən yolun təməlini qoymuş oldu. Prezident İlham Əliyev mayın 10-da Heydər Əliyevin 100 illiyi münasibətilə Şuşadan xalqa tarixi müraciətində bu həqiqəti bir daha vurğulamışdır: “Müstəqilliyə gedən yol da məhz Naxçıvandan başlamışdır. Məhz Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli Bayrağı Naxçıvan Ali Məclisinin sessiyasında Dövlət Bayrağı kimi təsis edilmişdir”.

Zaman da göstərdi ki, əgər o zaman xilaskarlıq missiyasını öz üzərinə götürən Heydər Əliyev amili olmasaydı, Azərbaycan bir dövlət olaraq ümumiyyətlə dünya xəritəsindən silinə bilərdi. Ulu öndərin söylədiyi “Müstəqilliyi qoruyub saxlamaq onu əldə etməkdən daha çətindir” kimi tarixi həqiqət XX əsr ölkə tarixinin məhz bu reallıqlarına söykənir. Heydər Əliyevin güclü siyasi iradəsi və əzmi sayəsində və dövlət müstəqilliyinin möhkəmləndirilməsi və dönməzliyinin təmin edilməsi istiqamətində həyata keçirdiyi ardıcıl siyasi kurs nəticəsində xalqımız bu dəfə müstəqillik şansından davamlı olaraq bəhrələnə bildi. Prezident İlham Əliyev Heydər Əliyevin Azərbaycanın müstəqilliyi və inkişafı naminə göstərdiyi fəaliyyətə siyasi qiymət verərkən demişdir: ”1993-cü ildən başlayaraq Azərbaycan bu günə qədər uğurlu inkişaf yolu ilə gedir... Məhz o illərdə Heydər Əliyevin rəhbərliyi altında bizim inkişafımızla bağlı strateji seçimlər edilmişdir ki, Azərbaycan müasir, demokratik ölkə kimi inkişaf etsin”.

Heydər Əliyev ideyalarının ən etibarlı və sədaqətli davamçısı olan cənab İlham Əliyev 2003-cü ildə Azərbaycan Respublikasının Prezidenti seçildiyi ilk gündən islahatçı lider kimi ölkənin yeni inkişaf konsepsiyasını ortaya qoydu. Müstəqil ölkə olaraq Azərbaycanın dünya ölkələri sırasında layiqli yer tutması, söz sahibi olması, daim artan nüfuzu məhz onun yorulmaz fəaliyyətinin nəticəsidir. Müstəqilliyimizin bu tarixi mərhələsində ölkəmiz yeni nəsil dövlət modelini dünyaya təqdim etməkdədir. İndi Cənubi Qafqazın lider dövləti olan Azərbaycan beynəlxalq səviyyədə vacib aktor rolunu oynayır, mütərəqqi təşəbbüslərlə çıxış edir. Ölkəmiz 120 dövlətin birləşdiyi Qoşulmama Hərəkatına sədrlik edir, İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində nüfuzlu mövqe sahibidir. Azərbaycan beynəlxalq tədbirlərin keçirildiyi tolerant məkana çevrilmişdir. Bütün sahələr üzrə həyata keçirilən və ilk növbədə insan amilinə söykənən tarixi islahatlar və genişmiqyaslı dövlət proqramları müstəqilliyimizin əsaslarını möhkəmləndirən amil kimi ölkəmizin dinamik inkişafını hədəfləyir.

Otuz il ərzində Ermənistanın zəbt etdiyi Qarabağ torpaqları 2020-ci ilin sonlarında Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad edildi və “Xalq-Prezident-Ordu” birliyinin təcəssümü olan 44 günlük Vətən müharibəsi nəticəsində qazandığımız böyük tarixi Qələbə sayəsində dövlət müstəqilliyinin ən vacib elementlərindən biri olan ərazi bütövlüyümüz bərpa olundu. Beləliklə, ulu öndər Heydər Əliyev Azərbaycanın dövlət müstəqilliyinin dönməzliyini, onun ən ümdə vəsiyyətinə ləyaqətlə əməl edən cənab İlham Əliyev isə ölkənin ərazi bütövlüyünü təmin etdi.

Şübhə yoxdur ki, yeni reallıqlar, ilk növbədə, məhz Azərbaycanın müstəqil dövlət kimi dünya miqyasında daha güclü mövqe əldə etməsi üçün real zəmin yaradır. Azərbaycan Prezidenti cənab İlham Əliyevin xalqa müraciətində söylədiyi kimi: “Müstəqillik ən böyük nemətdir, ən böyük sərvətdir. Bu gün biz bütün azərbaycanlılar qürur hissi ilə qeyd edirik ki, biz sözün əsl mənasında, müstəqil ölkə kimi yaşayırıq”.

**Əli HÜSEYNLİ,**
**Milli Məclis sədrinin birinci müavini, parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri**

# Dərbənddə Heydər Əliyev Mərkəzi açılıb

**Azərbaycan Dövlət İqtisad Universitetinin Dərbənd filialının nəzdində Heydər Əliyev Mərkəzi açılıb.**

Bu barədə Dağıstan Respublikası administrasiyasının rəhbərinin rəsmi “Telegram” kanalında məlumat verilib.

Heydər Əliyev Mərkəzinin təntənəli açılış mərasimində Dağıstan Respublikasının başçısı Sergey Məlikov, Azərbaycanın elm və təhsil nazirinin müavini İdris İsayev və Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru Ədalət Muradov iştirak ediblər.

Mərkəzdə eksklüziv fotoşəkillər və kitablar var. Bununla yanaşı, burada



asudə vaxtın keçirilməsi, habelə təhsil üzrə tədbirlərin təşkili nəzərdə tutulur.

Mərkəzdə, həmçinin Rusiya və Azərbaycan arasında dostluq münasibətlərinə xüsusi diqqət yetiriləcək.

Sergey Məlikov ekspozisiyaya baxdıqdan sonra Heydər Əliyev Mərkəzinin Fəxri qonaqlar kitabında ilk ürək sözlərini yazıb: “Bu əlamətdar gün Dağıstan və Azərbaycan arasında uzunmüddətli və sarsılmaz dostluğa aparan yolun təcəssümdür”.

# Sankt-Peterburqda ulu öndər Heydər Əliyevin 100 illiyi münasibətilə konfrans keçirilib

**Rusiyanın Sankt-Peterburq şəhərində müasir Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş konfrans keçirilib.**



Azərbaycanın Sankt-Peterburqdakı Baş konsulluğu, Rusiya Xalq Təsərrüfatı və Dövlət İdarəçilik Akademiyası (RANEPA), Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası və Azərbaycan Humanitar Əməkdaşlıq Mərkəzinin birgə təşkilatçılığı ilə baş tutan tədbirdə Azərbaycan Milli Məclisinin, yerli dövlət orqanlarının və ictimaiyyətinin nümayəndələri, Azərbaycan və Rusiya diplomatları, elm xadimləri və soydaşlarımız iştirak ediblər.

Azərbaycanın Sankt-Peterburqdakı baş konsulu Sultan Qasımov konfransda çıxış edərək Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ölkəmizin tarixində misilsiz rolundan bəhs edib.

Konfransda RANEPA-nın Sankt-Peterburq filialının direktoru Andrey Xlutkov, Rusiya Xarici İşlər Nazirliyinin Sankt-Peterburqdakı nümayəndəsinin müavini İqor Demyanenko, Azərbaycan Respublikası Dövlət İdarəçilik Akademiyasının rektoru Urxan Ələkbərov, Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Azərbaycandakı Rus İcmasının sədri Mixail Zabelin, “Müasir Dövlət İnkişafı İnstitutu" qeyri-kommersiya təşkilatının direktoru Dmitri Solonnikov çıxış edərək ümummilli lider Heydər Əliyevin sovet dönəmində və Azərbaycanın müstəqilliyi dövründə keçdiyi həyat yolu və siyasi fəaliyyətindən bəhs edib, Rusiya-Azərbaycan əlaqələrinin inkişafına və möhkəmlənməsinə verdiyi töhfələrdən danışıblar.

# Akademik Zərifə Əliyevanın 100 illik yubileyinə həsr edilmiş tədbir

**Səhiyyə Nazirliyi, İctimai Səhiyyə və İslahatlar Mərkəzinin təşkilatçılığı ilə Gənc Tamaşaçılar Teatrında akademik Zərifə Əliyevanın 100 illik yubileyinə həsr olunmuş təntənəli tədbir keçirilib.**



Tədbir iştirakçıları əvvəlcə teatrın foyesində akademik Zərifə Əliyevanın həyat və fəaliyyətini əks etdirən fotosərgi ilə tanış olublar.

Səhiyyə Nazirliyi İctimai Səhiyyə və İslahatlar Mərkəzinin (İSİM) direktoru Qəhrəman Haqverdiyev görkəmli alimin əzmkar və fədakar fəaliyyətini vurğulayıb: “Zərifə xanım insanları traxoma adlı dəhşətli xəstəlikdən xilas etmək üçün ölkəmizdə göz xəstəliklərinin geniş yayıldığı rayonlara gedib, əhali arasında tibbi maarifləndirmə aparıb, bölgələrdə oftalmoloqlarla görüşüb, uğurlu müalicə metodları, profilaktika tədbirləri barədə çıxışlar edib və onun bu əzmkar mübarizəsi uğurla nəticələnib”.

Çıxışlarda vurğulanıb ki, Zərifə xanım Əliyevanı xalqımız sadə və mehriban, savadlı göz həkimi kimi sevirdi. Təsadüfi deyil ki, ötən əsrdə nümayiş olunan “Göz həkimi” televiziya tamaşası, gözlərə işıq, insanlara həyat bəxş edən oftalmoloqların əzmkar fəaliyyəti izləyicilər tərəfindən böyük rəğbətlə qarşılanırdı.

Sonra İslam Səfərlinin eyniadlı pyesi əsasında hazırlanan “Göz həkimi” tamaşası Zərifə xanımın xatirəsinə böyük ehtiramla yenidən təqdim edilib.



# Bizi İsraillə sülh, ümumi rifah, birgə strateji baxışlar və dini dialoq birləşdirir

*Aramızda çox fəal siyasi dialoq var və biz cənab Prezidentlə telefonla əlaqə saxlayırıq. İndi isə, əlbəttə ki, rəsmi səfər zamanı bizim ikitərəfli gündəliyimizdə duran önəmli məsələləri müzakirə etmək üçün daha çox imkanımız var. Bu il İsraildə Azərbaycan səfirliyinin açılması, əlbəttə ki, əlaqələri daha yüksək səviyyəyə qaldıracaq və eyni zamanda, daha sıx qarşılıqlı əməkdaşlıq üçün geniş imkanlar yaradacaq.*

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı, 30 may 2023-cü il*

*Azərbaycana səfər etmək mənim üçün və millətim üçün həyata keçən arzudur. Bu səfər İsrail xalqı üçün və Azərbaycan xalqı ilə İsrail xalqı arasında birgə əlaqələr baxımından böyük əhəmiyyət kəsb edir... Bizim əlaqələrimizin dərin kökləri var. Yəhudilərin bu ölkədəki irsinin kökləri, yeri gəlmişkən, özlüyündə nümunə olan nadir irsi və yəhudi icmalarının 120-130 il əvvəl meydana gəlməsi ilə Azərbaycanın dünyada yazdığı hekayəsinə öz böyük töhfəsini verib.*

*İshaq HERSOQ,*
*İsrail Prezidenti*
*Bakı, 30 may 2023-cü il*

**Bəlkə də nə zamansa, hansısa başqa dövlət başçısı da dost ölkəyə reallaşdırdığı səfərini belə qiymətləndirib. Ancaq mən ilk dəfə idi ki, güclü bir dövlətin prezidentinin başqa ölkəyə səfərini özü və xalqı üçün həyata keçən bir arzu adlandırdığına şahidlik edirdim. Bu addımı İsrail Prezidenti İshaq Hersoq Bakıdakı görüşlərinin nəticəsi olaraq, Azərbaycan Prezidenti ilə mətbuata verdiyi bəyanatın girişində səsləndirdi.**



Qonaq prezident həmin bəyanatdan, təxminən bir saat əvvəl – geniştərkibli görüşdəki çıxışında da maraqlı məqamlara toxunmuşdu: "İsraillə Azərbaycan arasında tərəfdaşlıq... bizim müzakirə etdiyimiz bir çox sahələrin də təməl nöqtəsidir. Düşünürəm ki, bu, bir çox səviyyələrdə xalqlarımıza mesaj göndərir. İlk növbədə, hesab edirəm ki, bu, elə bir mesaj göndərir ki, yəhudilər və müsəlmanlar birlikdə sülhə doğru addımlasalar, birgə açıq dialoq aparsalar, birlikdə dünyanın xeyrinə çalışsalar birlikdə möhtəşəm işlər görə bilərlər. İkincisi, bu, strateji münasibətdir, çünki biz sülh, rifah və inkişaf istiqamətlərində bütün regiona öz təsirimizi göstəririk".

Hər halda, dialoqla bağlı son zamanlar eşitdiyimiz ən dəyərli fikirlərdəndir. Doğrudur, Azərbaycan Prezidenti İlham Əliyev də "Bakı prosesi" çərçivəsində keçirilən beynəlxalq tədbirlərdə millətlər və dini konfessiyalar arasındakı dialoq məsələsini dəfələrlə qabartmışdır. Ancaq Azərbaycan Prezidentinin qaldırdığı dialoq məsələsi bütün dünya xalqlarını və konfessiyaları əhatə edirdi. Cənab İshaq Hersoq isə məsələni kifayət qədər lokallaşdırır: "... yəhudilər və müsəlmanlar birlikdə sülhə doğru addımlasalar, birgə açıq dialoq aparsalar, birlikdə dünyanın xeyrinə çalışsalar birlikdə möhtəşəm işlər görə bilərlər".

Bu məqamda xatırladım ki, bu il aprelin 19-da "Xalq qəzeti"ndə Azərbaycan–İsrail əməkdaşlığının genişləndirilməsi barədə verdiyimiz yazının sonunda belə bir cümlə var idi: "Biz inanırıq ki, Təl-Əvivdən gələn növbəti rəsmi nümayəndənin səfəri əməkdaşlığımızın daha da dərinləşdirilməsinə öz töhfəsini verəcəkdir". Nəticə göz qabağındadır.

Həm Bakıda, həm də Təl-Əvivdə belə düşünürlər ki, əməkdaşlığın genişləndirilməsinə iqtisadi sferadakı əlaqələr daha böyük töhfələr verir. Üstəlik, İsrail şirkətləri işğaldan azad olunmuş ərazilərimizdə aparılan bərpa və yenidənqurma işlərində fəal iştirak edirlər və bu bizdə məmnunluq yaradır. Elə hərbi-texniki sahədə də ölkələrimiz arasında uzun illərdir uğurlu əməkdaşlıq davam etdirilir. Bu əməkdaşlığın inkişafında həm Azərbaycanda, həm də İsraildə fəaliyyət göstərən diaspor təşkilatlarının rolu böyükdür.

Yeri gəlmişkən, cənab İshaq Hersoqun Bakı səfəri çərçivəsində keçirilən tədbirlərdən birində Azərbaycan Prezidenti vurğuladı ki, İsrailin Azərbaycandakı diasporu funksiyasını əsrlər boyu burada yaşayan yəhudilər yerinə yetirirlər. Maraqlıdır ki, bizim İsraildəki diasporumuz da məhz vaxtilə Azərbaycanda yaşamış yəhudilərdən ibarətdir. Bu fakt onu sübut edir ki, xalqlarımızın nümayəndələri əsrlər boyu birgə dostluq şəraitində yaşamışlar. Yəhudi icması üzvlərinin birinci və ikinci Ermənistan–Azərbaycan müharibələrində iştirak etmələri, şücaət göstərmələri ölkəmizdə ehtiramla qeyd olunur.

Ölkələrarası diplomatik münasibətlərin tarixinə gəlincə, deyə bilərik ki, Azərbaycanla İsrail dövləti arasında ikitərəfli münasibətlər 1991-ci il dekabrın 25-də yaranıb. Həmin tarixdə İsrail Azərbaycan Respublikasının dövlət müstəqilliyini tanımışdır. İki ölkə arasındakı diplomatik münasibətlər isə 1992-ci il aprelin 7-də qurulmuşdur. Dövlət başçımızın 2016-cı il yanvarın 21-də İsveçrədə keçirilən Davos İqtisadi Forumu çərçivəsində İsrail Dövlətinin Baş naziri cənab Benyamin Netanyahu ilə keçirdiyi görüş əməkdaşlığın genişləndirilməsinə stimul olmuşdur. Həmin il dekabrın 13-də isə İsrail Dövlətinin Baş naziri Benyamin Netanyahu Azərbaycan Respublikasında işgüzar səfərdə olmuşdur.

Zamanın çağırışlarına daha operativ reaksiya verən Azərbaycan və İsrail dövlətləri təmasları sonrakı dövrdə daha da intensivləşdirmiş və əlaqələr tərəflərin arzuladığı səviyyəyə qaldırılmışdır. Nəticədə ölkəmizdə yəhudilərin iyirmiyə yaxın ictimai-mədəni və xeyriyyə təşkilatı fəaliyyət göstərir.

Ekspertlərin fikrincə, Azərbaycanın İsraillə olan yaxın münasibəti yalnız Azərbaycan–İsrail arasında yox, regiondakı digər ölkələrlə də siyasi-iqtisadi əlaqələrin genişləndirilməsinə və inkişaf etdirilməsinə rəvac verəcək. Azərbaycanla İsrail arasında münasibətlərin genişləndirilməsi məsələsində isə Təl-Əvivdə açılan səfirliyimizin xüsusi rolu olacaq.

Beynəlxalq əməkdaşlıq mütəxəssisləri yazırlar ki, tərəflərin hər ikisi bu əməkdaşlığın qorunmasında və inkişaf etdirilməsində maraqlıdır. Təbii ki, münasibətlərin bu səviyyəyə çatması təkcə Azərbaycanın cəhdləri nəticəsində mümkün olmazdı. Necə ki, regiondakı bəzi dövlətlərlə səmimi əməkdaşlıq və dostluq etmək səylərimiz cavabsız qalır. İsrail rəhbərliyi isə öz xalqının və dövlətinin maraqlarına cavab verən heç bir təklifi cavabsız qoymur.

İnanırıq ki, Prezident İshaq Hersoqun Bakı səfəri əməkdaşlığımızın yeni üfüqlərini müəyyən edəcəkdir.

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***

# İsrail bazarının böyük potensialı var

**Azərbaycan–İsrail əlaqələri müxtəlif sahələrdə dinamik inkişaf edir. Bu dövlətlər arasında ticarət dövriyyəsi getdikcə genişlənir, qeyri-neft məhsullarının payı yüksəlir. Lakin buna baxmayaraq, hazırda ticarət əlaqələrinin şaxələndirilməsinə ciddi zərurət duyulur, çünki ölkəmizin qeyri-neft məhsullarının İsrail bazarına ixracı üçün istifadə olunmayan böyük potensial var. Bundan başqa, investisiya, innovasiya, informasiya, kənd təsərrüfatı, ekologiya, qida, su, enerji texnologiyaları, əczaçılıq və biotexnologiya, ərzaq təhlükəsizliyi, kibertəhlükəsizlik, turizm, kiçik və orta sahibkarlıq kimi sahələrdə əməkdaşlıq üçün geniş perspektivlər mövcuddur. Mütəxəssislərin fikrincə, bu potensialın reallaşdırılması üçün özəl sektorun fəallığı artırılmalıdır. Bu baxımdan, Azərbaycan–İsrail biznes dairələri arasında keçirilən işgüzar tədbirlər xüsusi diqqət çəkir.**

Ümumiyyətlə, son illər Azərbaycan–İsrail arasındakı iqtisadi əlaqələrin güclənməsi müşahidə olunur. Belə ki, ötən il iki ölkə arasındakı ticarət dövriyyəsinin 85 faiz artaraq 1 milyard 718 milyon dollara çatması, son iki ildə isə ticarət dövriyyəsinin 3,7 dəfə artması bunun bariz ifadəsidir.

Prezident İlham Əliyev və İsrail Dövlətinin Prezidenti İsxak Hersoqun mayın 30-da mətbuata bəyanatlarla çıxışlarında da iki ölkə arasında iqtisadi münasibətlər haqqında geniş bəhs edilib. Dövlətimizin başçısı bəyanatında bəzi iqtisadi rəqəmləri xatırladaraq ticarət dövriyyəsinin 1,7 milyard ABŞ dollarından çox olduğunu vurğulayıb. Ölkə rəhbəri bu göstəricini yüksək məbləğ kimi dəyərləndirib və növbəti illərdə ticarət dövriyyəsini şaxələndirməklə onun həcminin daha da artırmağa nail olunacağını diqqətə çatdırıb. Dövlətimizin başçısı daha sonra deyib: "Həyata keçiriləcəyini planlaşdırdığımız birgə layihələr nəticəsində bizim daha balanslaşdırılmış ticarət dövriyyəmiz olacaq və o, təkcə enerji amilindən asılı olmayacaq. Buna baxmayaraq, uzun illərdir ki, Azərbaycan İsrailə xam neftin etibarlı təchizatçısı olmaqda davam edir və bu da əslində enerji sahəsində sıx əməkdaşlığı nümayiş etdirir".

Səfər çərçivəsində keçirilən görüşlərdə iki ölkə arasında enerji sahəsində əməkdaşlığın necə genişləndirilməsi məsələsi də müzakirə edilib. Bu sektorda investisiya layihələri, interkonnektorların yaradılması və üçüncü ölkələrdə potensial əməkdaşlıq layihələri üçün böyük imkanların mövcudluğu xatırladılıb.

Bu məqamda qeyd edək ki, Azərbaycan İsrailin enerji təhlükəsizliyində mühüm rol oynayır. İsrailin neft idxalının 40 faizə yaxın hissəsini respublikamız təmin edir. Bundan əlavə İsrailin Aralıq dənizi sahillərində böyük qaz rezervi–Leviathan və Tamar yataqları kəşf olunub. Azərbaycanın Dövlət Neft Şirkəti (SOCAR) İsrailin Aşdod neft yatağı bölgəsindən 5 faiz pay alıb.

Dövlətimizin başçısı mətbuata bəyanatında daha sonra bəzi irriqasiya və kənd təsərrüfatı sahəsində görülın işlər və qarşıda duran vəzifələr haqqında ətraflı danışıb. Ölkə rəhbərinin nitqində İsrailin bu sahələrdə qazandığı uğurların önəmi yüksək dəyərləndirilib və Azərbaycanın bundan yararlandığı–kənd təsərrüfatında məhsuldarlığı artırmaq üçün bu müsbət təcrübədən istifadə etmək və ixrac bazarını şaxələndirmək istəyi diqqətə çatdırılıb.

Dövlətimizin başçısı bəyanatında Azərbaycanın İsraillə bu yaxınlarda əməkdaşlığa başladığı sahələrdən biri olan kibertəhlükəsizliklə əlaqədar layihələrin əhəmiyyətini də vurğulayıb. Ölkə rəhbəri dost dövlətlə bu sahədə fəal təmasların başlanılmasını yüksək dəyərləndirib və bu məsələyə böyük əhəmiyyət verilməsini kibertəhlükəsizliyin hər bir ölkənin, o cümlədən də Azırbaycanın milli təhlükəsizliyinin mühüm hissəsi kimi prioritet xarakter daşıdığını qeyd edib.

Yeri gəlmişkən, kibertəhlükəsizliyin tətbiqi sahəsində İsrail şirkətləri böyük təcrübəyə malikdir. Buna görə də Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyası (AKTA) döst ölkədə kibertəhlükəsizlik üzrə mütəxəssislərimizin hazırlanmasına böyük maraq göstərir.

Xatırladaq ki, bir müddət bundan əvvəl ölkələrimizin informasiya texnologiyaları və kibertəhlükəsizlik sahəsində qarşılıqlı əməkdaşlıq imkanlarının genişləndirilməsi "Israil Export Institute" ilə müzakirə edilib. Kibertəhlükəsizliyin təmin olunmasının hər iki ölkə üçün aktuallığı nəzərə alınaraq, bu cür görüşlərin və qarşılıqlı səfərlərin zəruriliyi xüsusi vurğulanıb. Gələcəkdə tərəflər arasında birgə işlərin görülməsi üçün danışıqların davam etdirilməsi qərara alınıb.

Azərbaycanda kibertəhlükəsizlik ekosisteminin gücləndirilməsi və potensialının artırılmasına dəstək verilməsi məqsədilə 2022-ci ildə təsis edilən AKTA özündə informasiya texnologiyaları və kibertəhlükəsizlik üzrə ixtisaslaşmış şirkət və təşkilatları birləşdirir.

Azərbaycan–İsrail əlaqələrindən danışarkən müdafiə sənayesi sahəsində uzunmüddətli əməkdaşlığı da qeyd etmək yerinə düşər. Azərbaycanın uzun illərdir ki, bu sahədə İsrailin müasir avadanlığına çıxışı var, bu da ölkəmizin müdafiə qabiliyyətinin müasirləşdirilməsini, möhkəmləndirilməsini şərtləndirir. Başqa sözlə, İsrailin müdafiə sənayesindən bəhrələnmək Prezident İlham Əliyevin vurğuladığı kimi, dövlətçiliyimizi, əsas dəyərlərimizi, milli maraqlarımızı və ərazi bütövlüyümüzü müdafiə etməyə imkan yaradır.



İsrail Dövlətinin Prezidenti İsxak Hersoqun ölkəmizə səfəri çərçivəsində iki ölkə arasında qarşılılıqlı turist axını səviyyəsinin necə qaldırılmasını da müzakirə olunub, bu sahədə müəyyən çatışmazlıqlar diqqətə çatdırılıb. Həftədə yalnız dörd reysin olduğu, belə bir göstəricinin isə yetərli sayılmadığı bildirilib. Bu problemin aradan qaldırılması məqsədilə nümayəndə heyətləri üzvlərinə uçuşların sayının artırılması ilə bağlı müvafiq göstərişlər verilib və bunun daimi əsasda gerçəkləşdirilməsinin zəruriliyi diqqətə çatdırılıb. Başqa sözlə, iki dövlət tərəfindən qarşılıqlı uçuşların turist mövsüminin qızğın çağında–yay vaxtlarında olduğu kimi, digər fəsillərdə də diqqətdə saxlanılmasının zəruriliyi xatırladılıb.

Burada bir məqamı da qeyd etmək yerinə düşər. Azərbaycanın İsraildə səfirliyinin açılması ikitərəfli münasibətlərin yeni mərhələyə yüksəldiyini göstərir. Azərbaycan Hökuməti ilə İsrail Dövləti Hökuməti arasında Birgə Komissiya, həmçinin Azərbaycanın İsraildəki Ticarət nümayəndəliyi ölkələrimiz arasında tərəfdaşlığın inkişafı üçün əhəmiyyətli platformalardır.

Ölkələrimiz tərəfindən iqtisadi-ticarət əməkdaşlığının gücləndirilməsi istiqamətində işləri hazırda uğurla davam etdirliir. İsrail Azərbaycanın əsas ticarət tərəfdaşları sırasındadır. Bu ölkə qarşılıqlı investisiya, həmçinin, energetika, kənd təsərrüfatı, İT, innovasiya, əczaçılıq, turizm və s. sahələr üzrə səmərəli əməkdaşlıq mövcuddur.

Ötən il işgüzar dairələrimiz arasında əlaqələrin genişləndirilməsi istiqamətində fəal iş aparılıb. İsrail şirkətləri ilə birgə investisiya layihələrinin reallaşdırılması uğurla gerçəkləşdirilib. İsrail şirkətləri ilə sənaye zonaları və aqroparklar, su təsərrüfatı və digər sahələr üzrə də möhkəm tərəfdaşlıq yaradılıb. Ötən müddətdə İsraillə innovativ inkişaf və rəqəmsal iqtisadiyyat sahəsində əməkdaşlıq Azərbaycan üçün xüsusi önəm daşıyıb.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***

# Alman qonaqlar Sumqayıtda



**Düz 46 ildir ki, Azərbaycanın Sumqayıt şəhəri ilə Almaniyanın Lüdviqshafen şəhəri arasında qardaşlıq əlaqələri yaranıb. Bu barədə xüsusi saziş imzalanıb və iki şəhəri sıx dostluq, tərəfdaşlıq telləri bağlayır. Ümumiyyətlə, Sumqayıtın dünyanın 19 şəhəri ilə dostluq əlaqələri var.**

Dünya şəhərlərinin Sumqayıta marağı mədəni inkişafın və multikultural dəyərlərin etirafı faktıdır. İndiyədək Sumqayıta və Lüdviqshafenə 60-a yaxın qarşılıqlı səfərlər olub. Bu səfərlərdə iki min insan iştirak edib, 23 layihə həyata keçirilib. Sumqayıtın nümayəndə heyəti Almaniyanın Lüdviqshafen şəhərində keçirilən 27-ci festival tədbirlərində iştirak edib. Sumqayıtda illər öncə Lüdviqshafen parkı salınıb və şəhərin 70 illiyi ərəfəsində əsaslı təmir edilib. Alman qonaqlar bunu razılıqla qarşılayıblar.

Budur, Lüdviqshafendən gələn nümayəndə heyəti yenidən Sumqayıtdadır. Almaniya şəhərinin oberburqomistri xanım Yutta Ştaynrukun rəhbərlik etdiyi nümayəndə heyəti Sumqayıtda ulu öndər Heydər Əliyevin əzəmətli abidəsini ziyarət edərək, önünə tər güllər düzüb. Sonra qonaqlar şəhərin Heydər Əliyev Mərkəzi ilə tanış olub, dahi rəhbərin siyasi fəaliyyətini əks etdirən zəngin ekspozisiyaya baxıblar. Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov mərkəzin konfrans zalında qonaqlarla görüşüb, şəhərin tarixi və inkişafı haqqında geniş məlumat verib. Sumqayıt Muğam Mərkəzində şəhər ictimaiyyətinin iştirakı ilə tədbir də maraq doğurub.

Almaniyalı qonaqlar üç gün ərzində Sumqayıtı gəzəcək, bir sıra görüşlər keçirəcək, şəhərin sənaye müəssisələrində olacaqlar.

***Əli NƏCƏFXANLI,***
***"Xalq qəzeti"***

# Gözlər Kişineudadır: Bakı–İrəvan gərginliyi, nizamlamanın Qərb xətti və iflas riskləri

(əvvəli 1-ci səhifədə)

Məlum olduğu kimi, liderlərin iyunun 1-də Moldovanın paytaxtında Avropa Siyasi Sammiti çərçivəsində bir araya gələcəkləri bildirilmişdi. Bu, Aİ Şurasının rəhbəri Ş.Mişelin təşəbbüsüdür. Məxsusilik isə ondadır ki, görüşdə Azərbaycanın Prezidenti, Ermənistanın baş naziri və Ş.Mişellə yanaşı, Almaniyanın kansleri Olaf Şolts və Fransanın dövlət başçısı Emmanuel Makron da iştirak edəcək. Əvvəlcə "köhnə qitə"nin iki aparıcı ölkəsi başçısının iştirakçılığına diqqət yetirək.

***

Başlayaq Almaniyadan. Ölkə Azərbaycan–Ermənistan konfliktinə, demək olar, neytral mövqedən yanaşması ilə diqqət çəkib. O.Şolts da hakimiyyətdə olduğu müddətdə, belə demək mümkünsə, bitərəfliyə sadiq qalıb. Hərçənd, sosial-demokrat kansler bu ilin martında səssizliyi pis mənada pozması ilə gündəmə gəlmişdi. Ermənistanın baş naziri Nikol Paşinyanı Berlində xüsusi iltifatla qarşılayan O.Şolts aparılan müzakirələrin nəticələrinə dair birgə mətbuat konfransında Laçın dəhlizinin "blokadası" nəticəsində Qarabağda yaranmış vəziyyətin ağırlığından, Ermənistana göndərilən Avropa İttifaqının mülki missiyasını Almaniyanın dəstəklədiyindən danışmışdı. Ən başlıca isə alman lider münaqişə zonasındakı hazırkı status-kvonun davamının yolverilməzliyini, Ermənistan və Azərbaycanın ərazi bütövlüyünün dəstəklənməsi ilə yanaşı, Qarabağ ermənilərinin öz müqəddəratını təyinetmə hüququnu qabartmışdı.

Əlbəttə, Şoltsun yol verdiyi böyük səhvi sonradan Almaniyanın Xarici İşlər Nazirliyi düzəltdi. Martın 14-də isə Prezident İlham Əliyevin bu ölkəyə səfəri zamanı hər iki ölkə liderləri mətbuata birgə bəyanatla çıxış etdilər ki, kansler həmin bəyanatında Bakı və İrəvan arasındakı ziddiyyətli məqama toxunaraq bildirdi: "Bizim üçün vacibdir ki, Azərbaycan və Ermənistan arasında uzunmüddətli münaqişə artıq özünün sülh yolu ilə həllini tapsın. Açığını deyək ki, Almaniya Ermənistan–Azərbaycan sərhədində mövcud olan qeyri-sabit duruma görə bir az narahatdır. Təbii ki, burada gərginliyin artması təhlükəsi mövcuddur və son aylar, son həftələr baş verən hadisələr bunu göz qabağına gətirdi. Bizim arzumuz budur ki, bu münaqişə qısa bir zamanda, yerindəcə uzunmüddətli və qəbul olunan həllini tapsın. Burada sülh yolu ilə həll deyəndə təbii onu nəyi nəzərdə tuturuq ki, həm Azərbaycanın, həm də Ermənistanın ərazi bütövlüyü təmin olunsun. Eyni zamanda, hər iki ölkənin əhalisinin insan hüquqları və azadlıqları qorunmalıdır, beynəlxalq hüquqa uyğun olmalıdır. Almaniya burada təbii ki, öz dəstəyini göstərməyə hazırdır".

Şolts birgə mətbuat konfransı zamanı Paşinyanla görüş sonrası səsləndirdiyi fikirlərinə qayıdarkən, daha konkret oldu: "Biz aktual bir münaqişəni götürək. Tutalım Rusiyanın cəhdi, Ukraynanın bir hissəsini zəbt etsin, biz buna heç vaxt yol verməzik, biz bununla razı deyilik və bu, yalançı referendumların nəticəsi kimi Zaporojiyanı, Luhanskı, Xersonu və digər hissələri özünə cəlb etməklə deyil, yəni zəbt etməklə deyil. Biz bununla razı deyilik və biz burada öz mövqeyimizi aydın şəkildə bildirdik ki, BMT-nin Nizamnaməsi buna yol vermir, bu hərəkət beynəlxalq hüquqa ziddir. Eyni zamanda, öz mövqeyimizi aydın şəkildə bildirdik ki, axı biz həmçinin Dağlıq Qarabağı respublika kimi qəbul etmədik, Dağlıq Qarabağı da tanımadıq".

Göründüyü kimi, kansler bu cavabı ilə Almaniyanın bügünkü, belə demək mümkünsə, dördlü masada iştirakına mənəvi haqq qazanmış durumdadır. Bəs, Fransa Prezidenti Emmanuel Makron?

***

Mövzu barədə söhbət açmaq üçün ötən ilin oktyabrına (oktyabrın 6-da red.) tarixinə qısa ekskurs edək. Həmin vaxt Azərbaycanın və Ermənistanın rəhbərləri Praqada Ş.Mişelin vasitəçiliyi ilə görüşürdülər və görüşdə Fransanın dövlət başçısı da iştirak edirdi. Makron bundan heç bir həftə keçməmiş, Bakını işğalçılıqda, Rusiyanı isə müttəfiqi İrəvanın maraqlarını satmaqda günahlandırdı. Belə bir təəssübkeşlik və tərəfkeşlik Praqa sammitinin pozitiv ovqatına – Paşinyanın Azərbaycanın ərazi bütövlüyünü tanımasına xələl gətirdi. Nəticə etibarilə dekabrın 7-də Ş.Mişelin vasitəçiliyi ilə keçirilməli olan Əliyev-Paşinyan təması baş tutmadı. Konkret səbəb isə Ermənistanın baş nazirinin görüşə yalnız Makronla birgə qatılacağını bildirməsi oldu. Bu şərt dövlətimizin başçısı tərəfindən qəbul edilmədi və beləcə Makron və Paşinyan Mişelin sülhyaratmaq missiyasını pozdu. Ümumən, Azərbaycan-Ermənistan nizamlamasının Qərb formatı iflasa uğradı.

Ardınca Fransa Avropa İttifaqının regiondakı missiyası müstəvisində manipulyasiyalara start verdi. Paris qurumu alətə çevirdi. Təbii ki, bütün bunların İrəvana heç bir köməyi dəymədi. Hazırda Fransanın təşəbbüsü ilə Azərbaycan-Ermənistan sərhəddinin Ermənistan tərəfindən yerləşdirilmiş Aİ missiyasının fəaliyyətinin nədən ibarət olduğu heç kəsə məlum deyil. Missiya tam fiaskoya uğramış durumdadır və bunu erməni siyasilər də vurğulayırlar.

Bəs, Fransanın yenidən masaya qayıtması hansı perspektivi vəd edir? Məlum olduğu kimi, Bakı–İrəvan münasibətlərinin tənzimlənməsi üzrə Ş.Mişel tərəfindən həyata keçirilən vasitəçilik ötən ilin oktyabrınadək, kifayət qədər, səmərəli idi. Əslində Cənubi Qafqaz liderlərinin Aİ Şurası rəhbərinin təşəbbüsü ilə bu il mayın 14-də baş tutmuş təmasını da uğurlu saymaq mümkündür. Nəzərə alaq ki, həmin görüşdə Ermənistan 86.6 min kvadratkilometr ərazidə Azərbaycanın, Azərbaycan isə 29,8 min kvadratkilometr ərazidə Ermənistanın suveren hüquqlarını tanıdı. Sonra Paşinyan məhz 14 may görüşünə istinadən, Qarabağın da Azərbaycana məxsusluğunu bildirdi. Belədə yenə bir sual gündəmə gəlir: Makronun dördlü masada iştirakı Ş.Mişelin vasitəçiliyindəki pozitiv notlara xələl gətirməyəcək ki? Axı Fransa rəhbərinin təcrübəsində bu sayaq xoşagəlməzlik var.

Üstəlik, nəzərə alaq ki, Azərbaycan və Ermənistan liderlərinin Moskvada mayın 25-dəki görüşü heç də müsbət məcrada keçmədi. Bunu V.Putinin görüşsonrası açıqlamasının ümumi xarakteri də təsdiqlədi. Halbuki, həmin vaxtadək Kremlin Qərb vasitəçiliyini məntiqi sonluğa yetişdirəcəyi vurğulanır, hətta bəzi siyasi ekspertlər sülh müqabiləsi ilə bağlı nikbinlik yaradırdılar.



Sözügedən nikbinliyə ilk zərbə Əliyev–Putin–Paşinyan təmasından əvvəl baş tutmuş Ali Avrasiya İqtisadi Şurasının geniş tərkibli iclası zamanı vuruldu. Toplantıda söz alan Paşinyan tədbirə qonaq qismində qatılmış cənab İlham Əliyevin səsləndirdiyi "Zəngəzur dəhlizi" fikrinə, guya, münasibət bildirirmiş kimi mənasız ritorikaya baş vurdu. Sanki, bir neçə gün əvvəl Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bəyan edən o deyildi...

Cənubi Qafqaz lideləri arasındakı görüşlərdə Makron iştirakçılığının xoş olmayan təcrübəsini, eyni zamanda, Moskvada gərgin durumun yaşandığını nəzərə alsaq, hazırda Qərb vasitəçiliyinin, daha doğrusu, Aİ Şurasının rəhbərinin egidası altında reallaşmaqda olan "Brüssel formatı"nın ötən il olduğu kimi, yenə uğursuzluq zolağına düşəcəyini proqnozlaşdırmaq mümkündür. Amma...

***

Bütün bunların fonunda ekspertlər lidelərinin Kişineu görüşündən müsbət gözləntilər üzərində dayanırlar. Qeyd edək ki, Moskvadakı üçlü təmasa qədər Avropa Siyasi Sammitində Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin imzalanmasının mümkünlüyü vurğulanırdı. Yəni, buna inam xeyli dərəcədə böyük idi. Bir halda ki, ölkələr bir-birilərinin ərazi bütövlüklərini tanıyırlar, ilk baxışdan, hansısa problemin qalmadığı təəssüratı yaranmaqdadır. Hərçənd Moskva görüşü göstərdi ki, problemlər var...

Üstəlik, Paşinyan Kişineuya ölkəsindəki daxili ictimai rəyin ona qarşı daha sərt şəkildə hücuma keçdiyi, Qarabağdakı separatçı rejimin baş nazirlə hesablaşmadığı bir şəraitdə gəlir. Bu sıraya Zəngilanda iki erməni diversantının Azərbaycan hərbçiləri tərəfindən saxlanılmasını da əlavə etsək, siyasi dramatizmin daha yüksək olduğunu söyləyə bilərik.

Ən əsas məqam isə Azərbaycan Prezidentinin mayın 28-də Laçın rayonunda yerli əhali ilə görüşündə səsləndirdikləridir. Dövlətimizin başçısı çıxışında nəinki İrəvanın, bütövlükdə erməniپərəst dairələrin Qarabağ üzərindəki bütün manipulyasiyalarına, heç bir halda, yol verilməyəcəyinə dair kifayət qədər açıq və sərt fikirlər səsləndirdi. Əlbəttə, bu fikirlər indiyədək aparılmış danışıqların prinsipial xəttini xələl gətirmədi. Ölkəmiz onsuz da diktə edən tərəf qismində çıxış edəcəkdir. Sadəcə, indi Prezident İlham Əliyev diktə məntiqinə konkretlik qazandırdı və onun bildirdikləri Ermənistanda böyük ajiotaj doğurdu. Məsələyə, Azərbaycanın Ermənistana ərazi iddiası kontekstində yanaşdılar.

Təbii ki, Bakı İrəvana qarşı hər hansı ərazi iddiası irəli sürmür, sadəcə, öz haqqı olan tələb edir və tələbin sərt ifadəsi Paşinyanın sülh gündəliyindən yayınmasına, Moskvadakı sərsəmlərinə cavabdır. Dövlətimizin başçısı Laçında həmin sərsəmləmələrin Ermənistanı düçar edəcəyi acınacaqlı durumun anonsunu verdi. Başqa yol yoxdur. Çünki nizamlama prosesini uzadan Ermənistan rəhbərliyi 44 günlük müharibədə qalib tərəf olan Azərbaycanın mövqeyini saya salmır, məsuliyyətini unudur, elə görüntü yaradır ki, guya sülh istəyir, reallıqda isə müxtəlif məqamları qabardaraq mətləbdən yayınır. Əslində Paşinyanın Moskvadakı həyasızlığı da məhz buna hesablanmışdı.

***

Bəli, hazırda Ş.Mişelin qarşısında son dərəcə çətin vəzifə dayanır. Birincisi, Cənubi Qafqaz lidelərinin 14 may görüşünün poztiv ovqatına qayıtmaq, ikincisi onların 25 may təmasının neqativlik yükünü aradan qaldırmaq. Bir anlıq onu da düşünək ki, istər Ş.Mişel, istər Makron, istərsə də Şolts üçün hazırda həm də Cənubi Qafqaz müstəvisində Rusiyanın təsirini heçə endirməklə bağlı əla şans yaranıb. Bu şans ədalətli vasitəçilik missiyasını zərurətə çevirməkdədir. Deməli, onların hər biri, ilk növbədə, Paşinyana daxili təzyiqlərin onu hakimiyyətdən devirməyəcəyinə dair təminat verməlidirlər. Axı, Nikol qorxu içindədir. Qərb liderləri erməni baş nazirə inanadırıcı formada təxminən belə deməlidirlər: "Qorxma, qorxma", yaxud "qorxma, biz səninləyik".

Əlbəttə, Avropa rəhbərlərinin Nikola təşəkkür payı da var. Nəzərə alaq ki, ikinci Moskvadakı qeyri-ordinar davranışı ilə Rusiya vasitəçiliyindən gözləntiləri heçə endirməyi bacardı. Təsadüfi deyil ki, bəzi siyasi ekspertlər baş nazirin qəsdən mənasız ritorikaya baş vurduğunu bildirirlər. Onların fikrincə, Paşinyan Qərbin sifarişini yerinə yetirdi və Rusiyanın mayın əvvəllərindən yeni fazaya qədəm qoymuş Azərbaycan–Ermənistan nizamlamasının Qərb formatındakı nikbinliyə şərik çıxmasının qarşısını aldı. Əgər bu məntiq keçərlidirsə, o zaman danışıqlar mayın 14-də qaldığı nöqtədən irəliyə doğru getməlidir.

***

Ancaq burada yenidən Makron amili üzərinə gəlməyə ehtiyac duyulmaqdadır. Bir qədər əvvəl də diqqətə çatdırdıqlarımızın fonunda Fransanın dövlət başçısının aşkar erməniپərəstlik göstərməyəcəyinə təminat olmasa da, düşünmək olar ki, Ş.Mişel keçmişin özü üçün xoş olmayan təcrübəsindən nəticə çıxarıb. Hər halda, Almaniya Kanslerinin görüşdə iştirakı bunu deməyə əsas verir.

O.Şoltsun təmsilçiliyi Cənubi Qafqaz müstəvisindəki nizamlama prosesinə Qərb vasitəçiliyi obrazını qazandırmaq baxımından mühüm amildir. Yəni, bu o deməkdir ki, Fransanın iştirakçılığı təkbaşına deyil. Digər tərəfdən, mümkündür ki, Ş.Mişel Almaniya–Fransa tarixi fikir ayrılıqlarının Azərbaycan–Ermənistan münasibətləri baxımından ədalət mənzərəsi doğurmasını, bir növ, balans formalaşdırmağı düşünüb.

***

Sonda bir daha Azərbaycan Prezidentinin Laçındakı çıxışında səsləndirdiyi fikirlərin sərt mahiyyətinə qayıtmaq istərdik. Hər halda nəyi, necə və nə zaman etməyi yüksək səriştəsi ilə dəfələrlə sübuta yetirmiş dövlətimizin başçısının dilə gətirdikləri adi məsələlər deyildi. Əslində, cənab İlham Əliyev həm vurğunu Moskva görüşünün səmərəsizliyinə qoyurdu, həm də Kişineu sammitinin real fayda verməsinin vacibliyinə dair mesaj verirdi.

Dövlətimizin başçısı, faktiki olaraq, nizamlamanın növbəti raundunun səmərəsizliyi durumunda Azərbaycanın adekvat addımlarını sadalayırdı. Qərb mövcud məqamın üzərində ciddi şəkildə düşünməlidir. Bu mənada, Moldova sammitini Avropanın, eləcə də ABŞ-ın, ümumən isə kollektiv Qərbin Ermənistanı xilas etmək şansı kimi də dəyərləndirmək lazımdır.

Kişineu görüşündən pozitiv nəticələr gözləmək məntiqini inkişaf etdirmək üçün keçmişin təcrübəsinə də istinad etməliyik. Məlum olduğu kimi, Ermənistan rəhbərliyinin anladığı dil yalnız təzyiq dilidir. Bu mənada, Azərbaycan Prezidenti Laçında həmin dilin, belə demək mümkünsə, bütün incəliklərinə vardı. Dövlətimizin başçısı sülhdən yayınmaq istəyənlərə yalnız xəbərdarlıq etmədi, habelə ultimatum verdi. Odur ki, indi top Qərbdədir. Qərb Ermənistana elə bir dəqiq ötürmə ünvanlamalıdır ki, Paşinyan, obrazlı desək, qol vurmaqda, yəni real sülhə gəlməkdə çətinlik çəkməsin, diskonfort yaşamasın. Əks halda, ölkəsinin uğrayacağı aqibət məlumdur. Avropa liderləri Makron qarışıq Nikola məhz bunu yaxşı-yaxşı başa salmalıdırlar. Yalnız belə olduqda Kişineu sammitinin, eləcə də payızda keçirilməsi nəzərdə tutulan Qranada görüşünün Azərbaycan və Ermənistan arasındakı gərginliyin aradan qaldırılması istiqamətində əhəmiyyətli rolundan danışmaq mümkündür. Nəzərə alaq ki, bu platformadakı əhəmiyyətli rol Qərbin, bütövlükdə Cənubi Qafqaz müstəvisindəki nüfuz kartıdır.

***Ə.CAHANGİROĞLU,***
***"Xalq qəzeti"***

# İrəvandan əsirə işgəncə, Bakıdan diversanta humanist münasibət

**Mayın 26-da Azərbaycan–Ermənistan dövlət sərhədinin Zəngilan rayonu ərazisindən keçən hissəsində Ermənistan silahlı qüvvələrinin təxribat-diversiya qrupu tərəfindən Azərbaycan Respublikasının dövlət sərhədinin pozulması cəhdinin qarşısı alınıb, iki erməni diversantı əsir götürülüb. Xatırladaq ki, post-müharibə dönəmində Ermənistan tərəfi dəfələrlə ölkəmizə qarşı oxşar təxribatlar törətməyə cəhd edib, Azərbaycan tərəfi irili-xırdalı onlarla diversiya qrupunu uğurla zərərsizləşdirib. Onlardan ən böyüyü 2020-ci ilin noyabrında neytrallaşdırlıb. Nəticədə, 62 diversant əsir götürülüb.**

Erməni diversantlar cinayət məsuliyyətinə cəlb edilsələr də, onlara qarşı hər hansı zorakılıq, işgəncə tətbiq olunmayıb. Prezident İlham Əliyev 2021-ci ilin 7 yanvar tarixində 2020-ci ilin yekunlarına həsr edilən müşavirədəki çıxışında bu barədə deyib: "Biz azad edilmiş ərazilərdə diversiya ilə məşğul olanları əsir götürdük. Məhv etmədik. Dedim ki, əsir götürün, daha müharibə başa çatıb, daha qan tökmək lazım deyil. Bu, yenə də bizim humanist mahiyyətimizi göstərir..."

10 aprel 2023-cü ildə Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonu istiqamətində dumanlı hava şəraiti ilə əlaqədar olaraq istiqaməti itirən, Ermənistan tərəfinə keçən və əsir götürülən 2004-cü il təvəllüdlü Aqşin Bəbirova və 2003-cü il təvəllüdlü Hüseyn Axundova qarşı amansız işgəncələr tətbiq edilib. Bakının erməni diversantlara humanist mövqeyi müqabilində İrəvanın azərbaycanlı hərbi əsirlərlə qeyri-insani rəftarı, Ermənistanın həm beynəlxalq qanunvericilikdən, həm də elementar insani hisslərdən nə qədər uzaq olduğunu göstərir.

## Diversant hərbi əsir sayıla bilərmi?



Ermənistan Azərbaycan hərbçilərinin əsir götürdükləri diversantları hərbi əsir kimi təqdim etməkdə, onların azad olunması üçün beynəlxalq qanunvericiliyin imkanlarından yararlanmaq istəyindədir. Sual yaranır: Diversantlar hərbi əsir sayıla bilərmi? Onların hərbi əsirlərlə bağlı beynəlxalq konvensiyalarda nəzərdə tutulan hüquqlardan istifadə haqqı mövcuddurmu? Qeyd edək ki, beynəlxalq qanunvericilik hərbi əməliyyatlar dayandırılandan sonra təxribat törətməyə çalışan və əsir götürülən şəxsləri hərbi əsir saymır. Müharibə qurbanlarının müdafiəsi haqqında 1949-cu il tarixli Cenevrə konvensiyalarında da diversantlar hərbi əsir deyil, cinayətkar kimi xarakterizə edilir. Bu isə o deməkdir ki, onlar birincilərə məxsus hüquqlardan istifadə edə bilməzlər. Bu gerçəklik zaman-zaman Azərbaycanın rəsmi dövlət qurumları, eləcə də ölkə başçısı tərəfindən də diqqətə çatdırılıb. Prezident İlham Əliyev 7 yanvar 2021-ci il tarixli çıxışında 2020-ci ilin noyabrında saxlanılan erməni diversantlarla bağlı açıqlamasında bunu bir daha diqqətə çatdıraraq demişdir: "...Onları əsir götürmüşük. Amma onlar hərbi əsir sayıla bilməz, çünki müharibə qurtarıb. Onlar terrorçudur, diversantdır. Onlar Xocavənd rayonuna Ermənistandan, Ermənistanın Şirak vilayətindən noyabrın 26-dan sonra gəlmişlər. Bunu hər kəs bilsin. Nə üçün gəlmişlər? Kim onları göndərib? Müharibə noyabrın 10-da qurtarıb, bəyanat imzalanıb. Kim göndərir onları oraya? Əgər Ermənistan rəhbərliyi qanunsuz silahlı birləşmələrə nəzarət edə bilmirsə, bu, onların problemidir. Ona görə burada heç kim bizi ittiham edə bilməz".

## Hərbi əsirlərimizi erməni diversantlarla dəyişmək ehtimalı

Mayın 26-da Azərbaycanın iki erməni diversantı əsir tutması bu şəxslərin əsirlikdəki iki hərbçimiz – Aqşin Bəbirov və Hüseyn Axundovla dəyişdirilməsi ehtimalını aktuallaşdırır. Ehtimalın reallığa nə qədər yaxın olduğu haqqında konkret fikir söyləmək mümkünsüzdür. Amma o da məlumdur ki, Azərbaycan həmişə hər bir vətəndaşına sahib çıxıb və bu mənada, erməni əsirlyindəki hərbçilərimizin azadlığı üçün bütün imkanlarını səfərbər etməkdədir.

Xatırladaq ki, Azərbaycan müharibə vaxtı ələ keçirdiyi əsirləri, habelə post-müharibə dönəmində saxladığı diversantların bir qismini təmənnasız olaraq, öz xoş niyyət və humanizminin praktiki təzahürü olaraq bir çox hallarda qarşı tərəfə təhvil verib. Əlbəttə, bu zaman onların ölkəmizə qarşı konkret cinayət əməlində, əsasən də qətllərdə əlinin olub-olmadığı araşdırılıb. Xalqımıza qarşı qətllərdə iştirak etməyənlərin İrəvana qaytarılmasına razılıq verilib. Bu baxımdan, mayın 26-da əsir götürülən iki erməni diversantla bağlı da oxşar araşdırma aparılmaqdadır.

***Seymur ƏLİYEV***

# ABŞ Azərbaycanın separatçılara amnistiya məntiqini alqışlayır

## *Ermənistan rəhbərliyi isə Vaşinqtona “demokartiya dərsi” keçməyə girişib*

**"Biz Ermənistan və Azərbaycan arasında danışıqların davam etdiyini görməkdən məmnunuq". Bu fikirlər ABŞ Dövlət Departamentinin sözçüsü Metyu Millerə məxsusdur. Cənab Millerin sözlərinə görə, dövlət katibi Blinkenin dediyi kimi, Cənubi Qafqazda sülh əldə etmək olar.**

Əvvəla onu bildiririk ki, M.Millerin açıqlamasından Birləşmiş Ştatların Azərbaycan Prezidenti İlham Əliyevin mayın 28-də Laçında, rayonun öz doğma yurd-yuvalarına qayıtmış sakinləri ilə görüşündə səsləndirdiyi sərt fikirlərdən narahatlıq keçirdiyi duyulmaqdadır. Narahatlıq həm də bu gün Azərbaycan



və Ermənistan liderlərinin Avropa İttifaqı Şurasının rəhbəri Şarl Mişelin vasitəçiliyi, Fransa Prezidenti Emmanuel Makronun və Almaniya Kansleri Olaf Şoltsun iştirakı ilə Moldovanın paytaxtı Kişineuda baş tutacaq Avropa Siyasi Sammiti çərçivəsindəki görüşünün pozitiv ovqatının korlanması ehtimalı ilə bağlıdır. Vaşinqtonun görüşü, ümumən isə Qərb vasitəçiliyini sığortalamaq niyyəti aşkardır: “Ermənistan və Azərbaycan liderləri bu həftə Kişineuda avropalı tərəfdaşlarımızla görüşəcəklər və ümid edirik ki, görüş zorakılıq yolu ilə deyil, danışıqlar masası arxasında məsələlərin həlli istiqamətində məhsuldar addım olacaq”.

Millerin açıqlamasındakı ikinci məqam Azərbaycan və Ermənistan arasında eskalasiyaya qarşı xəbərdarlığın ifadə olunması ilə əlaqədardır. O bildirib ki, aqressiv ritorika yalnız keçmişin zorakılığını davam etdirə bilər. Həm ictimai, həm də xüsusi konstruktiv dialoq isə sülh, yeni imkanlar və ümid yaradır: “Birləşmiş Ştatlar davamlı və layiqli sülh sazişi bağlamaq üçün hər iki tərəfin səylərini dəstəkləməyə hazırdır”.

ABŞ rəsmisi açıqlamasında, həmçinin, ölkəsinin bu yaxınlarda Ermənistanın baş naziri Nikol Paşinyana sülhə sadiqliyinə görə təşəkkürünü bildirdiyini xatırladıb. Onun üzəridə dayandığı başlıca məqam isə Prezident İlham Əliyevin məlum çıxışında Qarabağ separatçılarına amnistiya elan edilməsi ilə bağlı fikirlərinin alqışlanmasıdır.

Yeri gəlmişkən, dövlətimizin başçısı bildirmişdi ki, əgər qondarma rejim özünü buraxdığını elan etsə, o zaman onun “məmurları” Azərbaycan dövlətinin humanist yanaşmasından faydalana bilərlər. Təbii ki, bu yanaşma onların heç də hamısına şamil edilməyəcək. Cənab İlham Əliyevin vurğuladığı kimi: “Onlara amnistiya düşürmü, düşmürmü? Mən isə deyirəm ki, buna baxmaq lazımdır”.

Hesab edirik ki, Millerin bəyanatındakı sonuncu məqam onun söylədiklərinin ümumi mahiyyəti barədə təsəvvür yaratmaq baxımından, kifayət qədər, həssas notlara köklənməkdədir. Bəli, məlumdur ki, Ağ Ev Cənubi Qafqaz siyasi akvatoriyasında sabitliyin tərəfdarıdır. Millerin də yada saldığı kimi, Birləşmiş Ştatların Dövlət Departamentinin rəhbəri Antoni Blinken Azərbaycan və Ermənistan arasında vasitəçilik edib. Bu baxımdan mayın 1-dən 4-dək davam etmiş Vaşinqton və Arlinqton danışıqlarının önəmini xüsusi vurğulamaq lazımdır. Nəzərə alaq ki, bu danışıqlar ötən ilin oktyabrından ölü nöqtəyə yuvarlanmış nizamlama prosesinin Qərb seqmentinin aktivləşməsi nöqteyi-nəzərdən mühüm rol oynadı.

Birləşmiş Ştatların sülh gündəliyinə həssas yanaşmasındakı başlıca məqam Prezident İlham Əliyevin səsləndirdiyi amnistiya məntiqidirsə, Vaşinqton Qarabağdakı separatçılığın sıradan çıxmasının tərəfdarı kimi çıxış etməkdədir. Deməli, bunu Azərbaycan–Ermənistan nizamlanması baxımından əsas götürməkdədir. Bu mövqe həm də onu göstərir ki, mövcud istiqamətdəki spekulyasiyalara yer yoxdur.

Ancaq Ermənistanın siyasi rəhbərliyi yenə öz “ampluasındadır”. Söhbət Qarabağdakı separatçılığın tarixin arxivinə gömülməsindən gedirsə, separatçı rejimin dayağı qismində çıxış edən qanunsuz erməni hərbi birləşmələrinin də ərazini tərk etmələri mütləqdir. Azərbaycan Prezidentinin humanist yanaşma meylinin mövcud olduğu, bunun ABŞ tərəfindən də dəstəkləndiyi bir məqamda Ermənistanın təhlükəsizlik şurasının katibi Armen Qriqoryan özünü həyasız yerinə qoyub bildirir ki, Qarabağda erməni hərbçiləri yoxdur, oradakılar yerli əhalinin təhlükəsizliyinin qayğısına qalan “Artsax” sılahlılarıdır.

Lakin erməni həyasızlığı Qriqoryanın söylədikləri ilə məhdudlaşmır. Ermənistanın Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Ani Badalyan Millerin bəyanatını şərh edərkən bildirib: “Biz hesab edirik və bütün tərəfdaşlarımıza aydın olmalıdır ki, Ermənistanla Azərbaycan arasında münasibətlərin nizamlanması prosesində Alma-Ata Bəyannaməsinə əsasən ərazi bütövlüyünün və sərhədlərin toxunulmazlığının qarşılıqlı anlaşma əsasında tanınması, eləcə də Dağlıq Qarabağ əhalisinin hüquq və təhlükəsizliyinin nəzərə alınması əsas əhəmiyyət kəsb edir. Ermənistan XİN-in 29 may tarixli bəyanatında vurğulandığı kimi, Azərbaycanın ərazi bütövlüyünün tanınması “Dağlıq Qarabağ xalqına” qarşı etnik təmizləmə və özbaşınalıq hüququ kimi şərh edilə bilməz”.

Qeyd edək ki, Ermənistan XİN kimi, qurumun rəsmi nümayəndəsi Badalyan da özünü Azərbaycan Prezidentinin söylədiklərindən ABŞ-a şikayət motivinə kökləyərək, Vaşinqtona dərs keçmək xülyasına düşüb. O bildirib ki, ABŞ özünün elan etdiyi demokratiya və insan hüquqlarının müdafiəsi dəyərlərinə, habelə, regionda davamlı sülhün bərqərar olunmasına sadiqliyinə və iştirakına əsaslanaraq, Azərbaycan rəhbərliyinin, guya, Ermənistanın suveren ərazisinə qarşı ekspansionist siyasətinə və Qarabağda etnik təmizləmə istəyinə adekvat cavab verməlidir.

Bəli, haylar, necə deyərlər, dincəlmək bilmirlər. Açıq-aşkar görünür ki, onlar Qarabağ müstəvisindəki manipulyasiyalarından əl çəkmək niyyətində deyillər. Bu avantüristlər və nə istədiyini anlamayanlar yığını onu da bilmir ki, Birləşmiş Ştatlar və digər güclər Azərbaycanın diktə etdiyi reallıqları qəbul edirlər. Bunu dövlətimizin başçısı dəfələrlə vurğulayıb. İndiki məqamda həmin güclər hansısa formada növbətçi bəyanatlar səsləndirib bölgədə sabitlik və sülh çağırışları edirlərsə, bu, heç də o demək deyil ki, Azərbaycanın məcburiyyət qarşısında qalıb gücə əl atacağı təqdirdə, ölkəmizin qarşısına çıxacaqlar. Onlar, sadəcə, 44 günlük müharibə nəticəsində onsuz da acınacaqlı duruma düşmüş Ermənistanı, ümumən, rüsvayçılığa düçar olmuş erməni varlığının yeni hərbi toqquşma ilə daha da alçaldılmasını istəmirlər, yazıqları gəlir. Badalyanlar, qriqoryanlar və digər yanlar isə bunu anlamayacaq dərəcədə iflicdirlər. Amma necə deyərlər, anlamamaq və bilməmək məsuliyyətdən, daha konkret desək, “dəmir yumruğ”un növbəti zərbəsindən sığortalamır. Rəsmi Bakı dövlət idarəçiliyində oturub uşaq şıltaqlığı edənlərin nazı ilə oynamaq niyyətində deyil. Beləlləri reallığın sərt sifətini görməlidirlər və hadisələrin gedişatı onu deməyə əsas verir ki, görmələrinə az qalıb. Prezident İlham Əliyevin Laçındakı çıxışı bunun anonsu idi.

**Ə.RÜSTƏMOV,**
**“Xalq qəzeti”**

# “Nə hərb, nə sülh”ün sonuna nə qədər qalıb?



**Mayın 25-də Moskvada fiaskoya uğramış üçtərəfli sülh danışıqlarından sonra Aİ-nin bu gün Kişineu formatında təşkil etdiyi dördtərəfli Zirvə görüşünə kövrək ümidlər bəslənilir**

Avropa İttifaqı (Aİ) Şurasının sədri Şarl Mişelin vasitəçiliyi ilə Avropa Siyasi Birliyinin (ASB) Sammitində Azərbaycan Prezidenti İlham Əliyev, Ermənistanın baş naziri Nikol Paşinyan, Fransa Prezidenti Emmanuel Makron, Almaniya kansleri Olaf Şolts barışığın yollarını arayacaqlar. Vasitəçinin “Böyük görüş” kimi dəyərləndirdiyi Aİ formatının Kişineu platformasından gözləntilər az deyil. Həm vasitəçi tərəfin, həm də müstəqil ekspertlərin qənaətinə görə, Moldova görüşü Vaşinqton və Brüssel platformalarında ortaq məxrəcə gəlinmiş məsələlər üzrə anlaşmaların rəsmiləşdirilməsi baxımından böyük əhəmiyyətə malikdir. Fəqət Hayastanın baş nazirinin Azərbaycan və Ermənistan arasında yekun sülh sazişinin imzalanmasının mümkün olmayacağını bəyan etməsi prosesin qeyri-müəyyən müddətə qədər uzana biləcəyi kimi pessimist sonluqdan xəbər verir. “Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyan arasında Moldovanın paytaxtı Kişineuda keçiriləcək görüşü səbirsizliklə gözləyirik”, – deyən Şarl Mişelin optimizmini də anlayışla qarşılamaq lazımdır. Çünki onun optimizmi danışıqlar prosesində hazırda yaranmış vəziyyətlə düz mütənasib sayıla bilər. Paşinyan hakimiyyəti Qarabağ da daxil olmaqla, Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bəyan edib. Yəni, ilk baxışda bu faktın özü tərəflərin yekun sülh sazişini imzalaması yolunda əsas əngəl sayıla biləcək maneənin ortadan qalxması kimi görünür. Amma Bakı kimi, sülh yolunda səylərini əsirgəməyən vasitəçilər də yaxın təcrübədən bilirlər ki, Nikol Paşinyan dünən dediyi sözün, verdiyi vədin bu gün tam əksini bəyan etməyə qadirdir.

***

ASB-nin Kişineu dördtərəfli sammitinə okeanın o tayından da reaksiya verildi. ABŞ Dövlət Departamentinin mətbuat katibi Metyu Miller görüşün məsələlərin hərbi yolla deyil, sülh danışıqları masası arxasında həlli üçün səmərəli addım olacağına ümid etdiklərini açıqlayıb. Təcavüzkarlıq ritorikasının keçmişin zorakılığını yalnız əbədiləşdirəcəyini, səmərəli, şəffaf dialoqun isə sülhə, yeni imkanlara və ümidlərə zəmin olacağını qeyd edən cənab Miller Birləşmiş Ştatların möhkəm və layiqli sülh sazişinin imzalanması üçün hər iki tərəfin səylərini dəstəkləməyə hazır olduğunu da diqqətə çatdırıb. Vaşinqtonla Brüsselin ortaq sülh platforması sayılan İrəvan və Bakı arasında sülh danışıqlarının Kişineu raundu diqqəti həm də ona görə özünə cəlb edir ki, bu gün iki ölkə arasında mövcud “nə hərb, nə sülh” kimi qeyri-müəyyən duruma aydınlıq gətirilməlidir. Artıq Bakının “belə davam edə bilməz” dəmir məntiqini və sülhəgətirmənin mümkün alternativ yollarını göz önünə alan avropalılar nəyin bahasına olursa-olsun, prosesdə nəticə əldə etməyə çalışır. Bu da başadüşüləndir. “Prezident Makron və kansler Şoltsla birgə "böyük görüş" olacaq. Bizim üçün əhəmiyyət kəsb edən bu görüşü ciddi səylə hazırlayırıq", – deyən Ş.Mişelin səylərinin bu dəfə nə ilə nəticələnəcəyini Moskvada da diqqətlə izləyirlər. Unutmayaq ki, Cənubi Qafqazda mövqelərinin zəifləməsi ilə qəti barışmayan Kreml arzuolunmaz şərik-vasitəçilərin ərsəyə gətirəcəyi istənilən razılaşmanın hüquqi təsdiqinin onun əlində olduğunu rəsmən bildirib. Bu amili sanki görməzdən gələn Aİ Şurasının sədri Şarl Mişel Moldova gözləntilərini kifayət qədər aydın ifadə etdi: “Bu görüş tərəflərin bir-birinin suverenliyinə və ərazi bütövlüyünə hörmətlə yanaşdığını yenidən təsdiqləmək və sərhədlərin delimitasiyası üzrə irəliləmək, həmçinin sərhəd bölgələrində riskləri azaltmaq üçün olduqca vacibdir”.

***

İndi yüksək səviyyəli görüşlərdə əsas vasitəçi missiyasını üzərinə götürən Aİ Şurasının rəhbəri üçün danışıqların “axilles dabanı” Bakı ilə Xankəndi və ətraf bölgədə yaşayan ermənilər arasında dialoqdur. “Dialoqa cəhd etmək və maksimalist mövqedən yayınmaq vacibdir. Hədəf dialoq olmalıdır. 30 ildən çox davam edən münaqişədən sonra yaraların sağalması üçün vaxt lazımdır. Cəsarətli qərarlara ehtiyac var”. Brüssel danışıqlarından sonra da oxşar bəyanatla çıxış edən Şarl Mişel Azərbaycandan Qarabağ ermənilərinin hüquq və təhlükəsizliyinin təmin olunması məqsədilə “beynəlxalq ictimaiyyətlə birlikdə pozitiv gündəliyi hazırlamağı” xahiş edib. Amma burada məsələnin Bakı üçün qəbulolunmaz tərəfləri var. Qarabağdakı silahlı separatçıların yaxın müqəddəratı və bölgədəki erməni sakinlərin seçim imkanı barədə Azərbaycan Prezidenti özünün Laçın tezislərində kifayət qədər birmənalı mövqe ortaya qoydu. Həmin mesajların həm də Kişineu sülh masasında əyləşəcək tərəflərə ünvanlandığı şəksiz idi. Bəli, hansı tərəfdən baxsaq, Kişineu danışıqlarının kifayət qədər gərgin keçəcəyi şübhə doğurmur. Aydındır ki, istər Makron, istərsə də Şolts bu prosesə “beynəlxalq mexanizmləri calaq etmək” üçün əllərindən gələni edəcəklər. Əslində Paşinyanın Kişineu formatından ən çox gözlədiyi əsas nəticə elə budur.

Amma ortada dəyişən və barışılması mümkün olmayan reallıq var. Bu isə ondan ibarətdir ki, Xankəndi də, onun ətrafı da suveren Azərbaycanın ayrılmaz tərkib hissəsidir. Rəsmi Bakı daxili işi hesab etdiyi bu məsələni hansısa beynəlxalq qurumla müzakirə etməyəcəyini dəfələrlə, həm də birmənalı şəkildə bəyan edib. Beynəlxalq hüquqa söykənən bu düstur heç bir halda dəyişməyəcək.

***P.S.* ASB-nin sayca ikinci Sammiti (birinci keçən il oktyabrın 6-7-də Praqada keçirilib) paytaxt Kişineudan 40 kilometr aralıda, Bulboaka kəndindəki Mimi Şərabçılıq zavodunda baş tutacaq. Moldovanın “Newsmaker” nəşri rəsmi mənbəyə istinadla yazır ki, Sammitə bütün Avropa ölkələrindən və Aİ institutlarından liderlərin qatılacağı gözlənilir.**

**İmran BƏDİRXANLI,**
**“Xalq qəzeti”**

*Ekspert rəyi*

**Tofiq ZÜLFÜQAROV,**
**keçmiş xarici işlər naziri,**
**politoloq:**



– Bilirsiniz ki, həmin görüşdə təklif olunan format Azərbaycan tərəfindən qəbul olunmayıb. Çünki Bakı bu formatda Fransanın vasitəçilik missiyasına etirazını bildirib. Amma müəyyən müzakirələr üçün imkanlar var. Avropa İttifaqı iqtisadi baxımdan geniş imkanlara malik qurumdur. Bunu nəzərə alaraq onun maliyyə dəstəyi bölgədə gedən müəyyən proseslərə yardım göstərə bilər. Söhbət, ilk növbədə, Zəngəzur dəhlizindən gedir. Başa düşməliyik ki, həmin ərazidə böyük həcmli, praktiki işlər aparılmalıdır və Azərbaycan öz tərəfində bu işləri artıq tamamlamaq üzrədir. Ermənistan isə bir tərəfdən bu məsələni ləngidir, o biri tərəfdən isə səbəb kimi imkanının olmadığını göstərir. Bu baxımdan, paradoksal görünsə də, Bakının marağındadır ki, Avropa İttifaqı İrəvana maliyyə yardımı etsin və o, boynuna düşən hissəni inşa edib başa çatdırsın. Ümumiyyətlə, Avropa İttifaqının diqqət mərkəzində duran məsələ kommunikasiyaların açılmasıdır. Sülh sazişinə gəlincə isə, açığı, Kişineuda buna real imkanların yaranacağına inanmıram. Azərbaycan istəməz ki, məsələ Makronun iştirakı ilə müzakiyə çıxarılsın və hansısa praktik nəticə əldə olunsun. Gördüyümüz kimi, İrəvan Vaşinqtonda və Moskvada buna getmədi. Kişineuda da mövcud müstəvidə hansısa irəliləyişə nail olunacağı inandırıcı deyil. Əgər müzakirə baş tutsa, bu, Azərbaycanın Avropa İttifaqı ilə ikitərəfli münasibətləri kontekstində olacaq.

*Ekspert rəyi*

**Yeganə HACIYEVA,**
**politoloq:**



– Nəhayət, Ermənistan–Azərbaycan münasibətlərində gözlə görünən bir nəticə olmalıdır. Belə nəticələr Avropa İttifaqının Brüssel formatı adlanan görüşlərində əldə edilə bilər. Kişineu sammiti Brüssel sülh formatının davamı kimi qəbul edilsə də, danışıqlar bu il artıq Vaşinqton dialoqu müstəvisinə də keçdi. Yəni, proses mərhələli şəkildə gedir. Güman edirik ki, Kişineu görüşünün yekununda gözlə görünən bir sənəd, razılaşma ortaya qoyula bilər. Birinci razılaşma Qarabağdakı qondarma rejimin, separatçı qrupun rəhbərlərinin bölgəni tərk etmələri, ikinci, sərhədlərin delimitasiya və demarkasiyası, üçüncü isə kommunikasiya xətlərinin açılması məsələlərini əhatə etməlidir. Birincini əsas şərt olaraq Azərbaycan Prezidenti İlham Əliyev sammit ərəfəsində irəli sürdü. Burada maraqlı məqam odur ki, Qarabağdakı həmin silahlı separatçılar sülh prosesinin vasitəçilərindən Bakıdan özlərinə amnistiya xahiş ediblər. Amma əvvəlcə həmin silahlı birləşmələrin Qarabağdan çıxarılmasına dair işçi plan olmalıdır. Yəni, ölkə başçısının Laçından səsləndirdiyi mesajlar ətrafında bir razılaşma gözləyirik. Onu da qeyd edək ki, ABŞ Dövlət Departamenti rəsmisinin bu görüş öncəsi sülh prosesi ilə bağlı açıqlaması cənab Ptrezidentimizin Laçında bəyan etdiyi tezislə, separatçıların bölgədən çıxarılmasına dair 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın 4-cü bəndi ilə üst-üstə düşür. Birləşmiş Ştatlar Cənubi Qafqazda sülh və sabitlik məsələsində Azərbaycanla hesablaşır.

# Azərbaycan və Pakistan arasında siyasi məsləhətləşmələr aparılıb



**Mayın 31-də Bakı şəhərində Azərbaycan Respublikası və Pakistan İslam Respublikası Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələrin növbəti raundu keçirilib.**

Nümayəndə heyətinə Azərbaycan tərəfindən xarici işlər nazirinin müavini Elnur Məmmədov, Pakistan tərəfindən xarici işlər nazirinin birinci müavini Əsəd Məcid Xan başçılıq ediblər.

Siyasi məsləhətləşmələr zamanı iqtisadiyyat, ticarət, kənd təsərrüfatı, təhsil, mədəniyyət, energetika, turizm və digər sahələrdə əməkdaşlığa dair fikir mübadiləsi aparılıb. Qarşılıqlı səfərlərin, xüsusilə, parlament diplomatiyasının əhəmiyyəti önə çəkilərək, onun ikitərəfli əlaqələrin bir çox sahələrinə müsbət təsir göstərdiyi bildirilib.

Müzakirələr çərçivəsində, 2022-ci ilin ölkələrimiz arasında diplomatik əlaqələrin 30 illik yubileyi kimi əlamətdar tarixlə yadda qaldığı bildirilib, dostluq və qardaşlıq üzərində qurulmuş Azərbaycan–Pakistan əlaqələrinin bugünkü yüksək səviyyəsindən məmnunluq ifadə edilib. Həmçinin 44 günlük Vətən müharibəsi zamanı Pakistanın nümayiş etdirdiyi qəti və birmənalı mövqeyi, haqq işimizə göstərdiyi tərəddüdsüz dəstək və həmrəyliyi xüsusilə vurğulanıb.

Nazir müavini Elnur Məmmədov postmünaqişə dövründə bölgədə mövcud vəziyyət, işğaldan azad edilmiş torpaqlarda minaların təmizlənməsi prosesi, bərpa və quruculuq, habelə ölkə rəhbərliyi tərəfindən həyata keçirilən böyük qayıdış proqramı, ağıllı şəhər və yaşıl enerji layihələri haqqında ətraflı məlumat verib.

**Qəzənfər QASIMOV,**
**"Xalq qəzeti"**

# Ədliyyə Nazirliyinin kollegiya iclası keçirilib

**Ümummilli lider Heydər Əliyevin qurub yaratdığı müasir müstəqil Azərbaycan dövləti bu gün ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə özünün qüdrətli dövrünü yaşayır, əzəli torpaqlarımız işğaldan azad edilərək Qarabağ və Şərqi Zəngəzur dövlətimizin iqtisadi gücü hesabına sürətlə bərpa olunur. Bu istiqamətdə respublikamızın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu tərəfindən mühüm layihələr həyata keçirilir. Eyni zamanda, qardaş Türkiyə Vətən müharibəsində olduğu kimi, quruculuq prosesində də Azərbaycanın yanında olaraq birgə tədbirlər reallaşdırılır.**



Ədliyyə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, bu fikirlər ədliyyə naziri Fikrət Məmmədovun sədrliyi ilə keçirilən nazirliyin kollegiya iclasında vurğulanıb.

Nazir mayın 28-də dost və qardaş Türkiyədə demokratik şəraitdə keçirilmiş və Azərbaycanda böyük maraqla izlənilən prezident seçkilərində Rəcəb Tayyib Ərdoğanın inamlı qələbəsini qeyd edib. O, ədliyyə işçilərinin də bu münasibətlə türkiyəli həmkarlarını təbrik etdiklərini diqqətə çatdırıb.

Kollegiyada dünya şöhrətli müdrik siyasətçi dahi Heydər Əliyevin anadan olmasının 100 illiyinin ölkəmizdə və onun hüdudlarından kənarda geniş qeyd olunduğu, bu münasibətlə dövlət başçısı tərəfindən elan edilmiş "Heydər Əliyev İli" çərçivəsində Ədliyyə Nazirliyində, bütün yerli və regional ədliyyə qurumlarında, məhkəmələrdə keçirilən silsilə tədbirlər barədə məlumat verilib.

Nazirliyin təşkilatçılığı ilə "Heydər Əliyev və məhkəmə-hüquq islahatları: tarix, zaman və nailiyyətlər" mövzusunda geniş konfransın keçirilməsi xüsusilə əlamətdar olub. Dahi öndərin humaist siyasətini uğurla həyata keçirən Azərbaycan Prezidenti İlham Əliyevin yubiley münasibətilə imzaladığı və 801 məhkumu əhatə edən müstəqillik tariximizin ən böyük əfv sərəncamının icrası nazirlik tərəfindən dərhal təmin edilib.

İclasda dövlət başçısının sərəncamı ilə təsdiq edilmiş 2023–2025-ci illəri əhatə edən Milli Fəaliyyət Planından irəli gələn vəzifələr müzakirə edilib, müvafiq İş Planı təsdiq olunub. İclasda, həmçinin beynəlxalq hüquqi əməkdaşlıq məsələləri müzakirə olunaraq, nazirliyin mötəbər forum və tədbirlərdə, o cümlədən Daşkənd Hüquq Baharı Forumunda iştirakı, faydalı təcrübə mübadiləsinin aparılması qeyd olunub.

Kollegiyada ədliyyə və məhkəmə fəaliyyətini tənzimləyən bəzi normativ-hüquqi akt layihələri təsdiq edilib, bir sıra qeyri-kommersiya hüquqi şəxslər dövlət qeydiyyatına alınıb.

# "Maire Tecnimont" şirkəti ilə enerji keçidi sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb

**Bakı Enerji Həftəsi çərçivəsində Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə "Maire Tecnimont" şirkəti arasında enerji keçidi sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb.**

Sənədi energetika nazirinin müavini Elnur Soltanov və şirkətin baş icraçı və baş əməliyyat direktoru Alessandro Bernini imzalayıb.

Memorandumun məqsədi tərəflər arasında enerji məsələləri, o cümlədən bərpaolunan enerji, "yaşıl enerji"yə keçid və enerji səmərəliliyi ilə bağlı sahələr üzrə əməkdaşlığın gücləndirilməsindən ibarətdir. Sənəd, həmçinin aşağı karbon texnologiyaları, tullantılardan enerji istehsalı, "yaşıl hidrogen", bioyanacaqlar, həmçinin metan emissiyalarının azaldılması kimi sahələrdə əməkdaşlıq imkanlarının araşdırılmasını əhatə edir.

# Xankəndi: beyinlərdə tərəddüd və xaos hökm sürür

## *Hayastan mediasının yaydığı məlumatlardan bu qənaət hasil olur ki, Laçın ultimatumundan sonra Qarabağdakı separatçı rejim üçün təslim olmaqdan savayı xilas variantı qalmayıb*

**Prezident İlham Əliyevin mayın 28-də Laçın şəhərinə qayıdan əhali ilə görüş zamanı etdiyi çıxış Azərbaycanın Qarabağ iqtisadi rayonunun Rusiya sülhməramlı kontingentinin müvəqqəti məsuliyyəti altında olan hissəsində yaşayan ermənilərin separatçı "qlavar"ları arasında ciddi təşviş doğurub.**



Qeyd edək ki, cənab İlham Əliyev laçınlılarla görüşdə 44 günlük Vətən müharibəsindən ötən iki il yarım ərzində bütün planlarımızın ardıcıllıqla, tədricən həyata keçdiyini və bildirib. Dövlət başçısı əmin edib ki, son addım da atılacaq. Prezident onu da bildirib ki, separatçılar üçün yeganə yol Azərbaycan qanunlarına tabeçiliklə loyal, normal vətəndaşı olmaq, öz dırnaqarası saxta dövlət atributlarını zibil yeşiyinə atmaq, "parlament"i buraxmaqdır: "Biz, sadəcə olaraq, dözüm göstərirk. Halbuki hər kəs yaxşı bilir ki, bu gün o bölgədə istənilən əməliyyatı keçirmək üçün hər bir imkanımız var. Ona görə "parlament" buraxılmalıdır, özünü "prezident" adlandıran ünsür təslim olmalıdır, bütün "nazirlər", "deputatlar" və digərləri öz vəzifələrini artıq kənara qoymalıdırlar. Ancaq o təqdirdə onlara güzəşt oluna bilər. Ancaq o təqdirdə hər hansı bir amnistiyadan söhbət gedə bilər. Onu da bildirməliyəm ki, son vaxtlar beynəlxalq təşkilatlar faktiki olaraq bizim mövqeyimizlə tamamilə razılaşıblar. Bunu mən müxtəlif görüşlər əsnasında artıq görürəm".

Yeri gəlmişkən, qeyd edək ki, ABŞ Dövlət Departamenti Azərbaycan Prezidentinin Qarabağdakı separatçılarla bağlı amnistiya bəyanatını alqışlayıb. Dövlət Departamentinin sözçüsü Metyu Millerin yaydığı bəyanatda deyilir: "Biz Ermənistanla Azərbaycan arasında danışıqların davam etdiyini görməkdən şadıq. Dövlət katibi Blinkenin dediyi kimi, Cənubi Qafqazda sülh əldə edilə bilər. Biz bu yaxınlarda baş nazir Paşinyanın sülhə sadiqliyini alqışladıq və Prezident Əliyevin amnistiyanı müzakirə etmək istəyi ilə bağlı son bəyanatlarını alqışlayırıq".

***

"Hraparak" qəzeti yazır ki, N.Paşinyanın sülh sazişini imzalamağa hazır olmasını bəyan etməsindən sonra separatçı tör-töküntülərinin iki başçısı – Araik Arutyunyan və qondarma rejimin "təhlükəsizlik şurası"nın sabiq katibi Samvel Babayan arasında gərginlik silahlı toqquşma həddinə çatmaq üzrədir. Belə ki, baş separatçı Arutyunyan Babayanın planlarına əngəl olmağa çalışır. İddialara görə, Babayan kütləvi etiraz aksiyaları ilə 2018-ci ilin mayında Ermənistanda baş vermiş "məxməri inqilab"ı Xankəndidə təkrarlamaq niyyətindədir. Qəzetin bildirdiyinə görə, Arutunyanın ərazidə "hərbi vəziyyət" dövründə söz azadlığının məhdudlaşdırılması ilə bağlı son "qərarları" rus sülhməramlılarının təklifi ilə qəbul edilib. Məqsəd daxili gərginliyin qarşısını almaq, daha doğrusu, Babayanın planlarına mane olmaqdır. Xatırladaq ki, mayın 26-da separatçı rejimin başçısı ermənilərin "öz müqəddəratını təyinetmə hüququ"nun həyata keçirilməsi istisna olmaqla, bütün növ toplantıları qadağan edərək, hərbi vəziyyətlə bağlı əlavə məhdudiyyətlər tətbiq edib, habelə bayram və anım günləri, həmçinin informasiya sahəsində müəyyən qadağalar qoyub.

Ermənistan KİV-lərinin yaydığı məlumatlar da separatçıların Azərbaycana təslim olmaqdan başqa xilas variantının qalmadığını göstərir. Məlumata görə, Ermənistan baş naziri bugünlərdə yaxın ətrafı ilə qapalı iclas keçirib. İclasda mayın 25-də Moskvada baş tutan üçtərəfli görüşün bəzi detallarını açıqlayıb və Qarabağ separatçılarının gələcək taleyi ilə bağlı yalnız iki ssenarinin gündəmdə olduğuna eyham vurub. "Hraparak" qəzetinin baş nazirlə görüşün iştirakçılarından birinə istinadən verdiyi məlumatdan belə anlaşılır ki, N.Paşinyan Qarabağ separatçılarının ardı "ordu"ya, silahlı dəstələrə malik olmasının qeyri-mümkünlüyünü bildirib. Baş nazir vurğulayıb ki, rəsmi Bakı Xankəndi və ətraf bölgələrdəki bütün silahlı dəstələrin tərk-silah olunmasında prinsipial mövqe tutur və bu mövqeyindən geri çəkilmək niyyətində deyil. Paşinyanın fikrincə, indiki situasiyada proseslərin inkişaf istiqamətləri ilə bağlı iki mümkün variant var. Əgər Azərbaycan yerli ermənilərin hüquq və təhlükəsizliyini təmin edərsə, o zaman prinsipcə gözlənilməz heç bir problem yaranmayacaq. Əks halda, Ermənistan hakimiyyəti hər kəsin öz ərazisinə köçürülməsini təmin etmək məcburiyyətində qalacaq.

Qarabağdakı bəzi separatçı başçılar isə hələ də xam xəyallarla yaşamaqda davam edirlər. Onlar Azərbaycana qarşı çıxmaq üçün əllərində heç bir resursun olmamasına, hər tərəfdən üzük qaşı kimi dövrəyə alınmalarına baxmayaraq, revanşist açıqlamalar səsləndirirlər. Bələlərindən biri fevral ayında Azərbaycanın tələbi ilə separatçı rejimin "dövlət naziri" vəzifəsindən uzaqlaşdırılan Ruben Vardanyandır. O, Ermənistan televiziyasına müsahibəsində bildirib ki, geri çəkilməyə yer yoxdur, qərar qəbul etmək lazımdır və hər gün razılaşırlar: "İlk növbədə, Arayik Arutyunyan mühüm addımlar atmalıdır. Geri çəkilmək üçün heç bir yer yoxdur, qərar vermək lazımdır. Hər kəs vəziyyəti anlayır və əlimizdə olan qüvvələrlə vətənimizi müdafiə etməyə hazırlaşmalıdır".

Onun sözlərinə görə, Azərbaycan onlar üçün heç bir seçim qoymur. "Biz hər şeyə hazırlaşmalıyıq. Bu vəziyyətdə öz gücümüzə arxalanmalıyıq. Dünyaya başa salmağa çalışmalıyıq ki, bu gün baş verənlərin Azərbaycanın istədiyi yanaşmaya uyğun həlli yoxdur. Biz Azərbaycanın bir hissəsi olmaq istəmirik. Bu, ermənilərin Qarabağdan qovulmasına gətirib çıxaracaq ki, bizim üçün qəbuledilməzdir. Biz vəziyyəti başa düşürük və hər gün hazırlaşırıq. Lazımi səviyyədə hazır olmaq üçün hər şeyi edirik, mövqeyimiz aydın və konkret olacaq".

Bu arada Avropa İttifaqı Şurasının rəhbəri Şarl Mişelin "Tvitter"də etdiyi paylaşımda bir daha "keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətində yaşayan ermənilər" ifadəsini işlətməsi separatçıları pərt edib. Qeyd edək ki, Ş.Mişel mayın 30-da yazıb: "Bakı ilə keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətində yaşayan ermənilərin hüquqları və təhlükəsizliyi ilə bağlı dialoq indi mühüm əhəmiyyət kəsb edir. Maksimalist mövqelərdən çəkinmək və dialoqa çalışmaq vacibdir. 30 ildən çox davam edən münaqişədən sonra yaraların sağalması vaxt alır. Cəsarətli qərarlar lazımdır".

Qondarma rejimin "ombudsman"ı Geqam Stepanyan bununla bağlı sosial şəbəkə hesabında qeyd edib ki, Avropa İttifaqını təmsil edən Aİ Şurasının Prezidenti Şarl Mişelin onilliklər boyu mövcud olan faktlara (?) məhəl qoymadan "Artsax xalqı"na "keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətində yaşayan ermənilər" kimi müraciət etməsi çox məyusedicidir". Separatçı məmur bu faktın Brüsselin moderatorluğu ilə aparılan sülh danışıqlarına guya əngəl olacağını iddia edib.

Göründüyü kimi, separatçılar məyusdur. Onlar son vaxtlar beynəlxalq təşkilatların Prezident İlham Əliyevin qeyd etdiyi kimi, faktiki olaraq bizim mövqeyimizlə tamamilə razılaşmasından pəjmürdə vəziyyətdədirlər. Bu səbəbdən də aralarında tərəddüd, xaos, başıpozuqluq hökm sürür. Əslində, aqoniyaya bənzər bu vəziyyət 2020-ci il Vətən müharibəsindəki sarsıdıcı məğlubiyyətdən sonra başlayıb. Ötən iki il yarım ərzində Azərbaycanın qazandığı yeni hərbi-siyasi-diplomatik qələbələr Ermənistanı, onun tərəfdaşlarını və Qarabağdakı separatçıları mat vəziyyətinə qoyub. Cənab Prezidentin 28 may tarixli xəbərdarlığı isə onların qürubunun başlanğıcıdır. Mahiyyətindən, arxasında dayanan qüvvələrdən asılı olmayaraq, bu dəstələr artıq batmaqda olan gəmidən canlarını qurtarmağa çalışan siçovulların xatırladır...

***Səxavət HƏMİD, "Xalq qəzeti"***

### *Ekspert rəyi*

**Aydın QULİYEV, politoloq**



– Azərbaycan Prezidentinin birmənalı və sərt mesajlarından sonra Qarabağdakı separatçıların və onların əlində girov qalan sadə insanların bundan sonrakı fəaliyyəti, təbii ki, çox maraqlı olacaq. Ona görə ki, separatçılar Qarabağda müstəqil qərar qəbul etmirlər. Əgər onlar müstəqil qərar qəbul edə bilən qüvvələr olsaydılar, indiki ağır duruma gəlib düşməz və Azərbaycan Prezidentinin qətiyyətlə söylədiklərindən lazımi nəticə çıxarardılar. Bu fikirlər sadədir, birmənalıdır; Azərbaycan dövlətinin suverenliyini, onun Konstitusiyasını qəbul etmək, qanunlarına tabe olmaq, reinteqrasiya etmək, dövlətçilik oyunu oynamaq kimi qeyri-ciddi əməldən geri çəkilmək. Cənab Prezident bu mesajları separatçılara aydın və qətiyyətli tonda bildirdi.

Şübhəsiz ki, Qarabağda müxtəlif dünya güclərinin sifarişlərini həyata keçirən separatçıların əlində, sözün həqiqi mənasında, girov saxlanılan insanlar arasında başqa cür düşünənlər var. Yəqin ki, Azərbaycan Prezidentinin birmənalı mesajları sadə ermənilərin və separatçı hərəkətlərə müxtəlif sifarişləri yerinə yetirən odioz qüvvələrin fəaliyyətində özünü müxtəlif cür büruzə verəcək. Separatçılar təbii ki, hələlik silahı yerə qoymaq, Azərbaycan qanunlarına tabe olmaq ovqatı nümayiş etdirmirlər. Digər tərəfdən, yaxşı başa düşürlər ki, daha üçüncü dəvət olmayacaq. Anlayırlar ki, Azərbaycan istənilən addımı ata bilər. Belə şəraitdə separatçılar özlərini qorumaq üçün sifarişlərin yerinə yetirdikləri dünya mərkəzlərinə müraciət edəcək, kömək istəyəcək, Parisin qapılarını yağır edəcəklər. Başqa ölkələrin qapılarında özlərinə yenə əvvəlki kimi himayə axtaracaq və yaranmış bu mürəkkəb durumdan çıxmağa çalışacaqlar. Ancaq çıxış yolları yoxdur.

İstisna etmirəm ki, Xankəndidə girov qalmış sadə və açıq düşüncəli müəyyən insanlar isə başqa ovqat nümayiş etdirə bilərlər. Hətta onların separatçı qüvvələrin əleyhinə açıq-aşkar çıxışlara başlamaları da mümkündür. Azərbaycan cəmiyyətinə dinc inteqrasiya və Azərbaycan dövlətinə sığınmaq Xankəndidəki sadə ermənilərin müəyyən hissəsinin artıq qəbul etməyə başladığı reallıqdır. Ona görə də Azərbaycan Prezidentinin qəti mesajlarının ciddi nəticələr verəcəyinə və Xankəndidə həm separatçılara, həm də onların əlində girov qalan sadə insanlara təsir göstərəcəyinə əminəm.

# Taksi fəaliyyəti: vahid nəzarət sistemi niyə yoxdur?

**Son vaxtlar ölkə mediasında respublikamızda fəaliyyət göstərən taksi xidmətlərində ciddi qanunsuzluqlar nəzərə çarpması, xüsusilə, kartla ödəniş zamanı sərnişinlərə qarşı kobud rəftar edilməsi ilə bağlı çoxsaylı materiallar verilir. Əlbəttə, bu məqamda taksi sürücülərinin şikayətləri də yer alır. Onlar tərəfindən daşımada əziyyətin çox olmasına baxmayaraq, az gəlir əldə edildiyi bildirilir. Bütün bunlarla bərabər, hətta ölkədə taksi sıxlığının olduğu böyük narahatlıqla dilə gətirilir ki, belə vəziyyətin isə küçə və prospektlərdə hərəkətin pozulmasına, qəzaların artmasına gətirib çıxardığı diqqətə çatdırılır.**




Ekspertlər və sərnişinlərin ən çox narazılıq etdikləri məsələlər sırasında taksi sürücülərinin bir çox hallarda etik davranış qaydalarına laqeyd münasibət bəsləmələri geniş yer alır. Bunun isə sürücülərin işə qəbul edilərkən onların taksi fəaliyyətinə yararlı olub-olmamalarının yoxlanılmasına laqeyd yanaşılmasından irəli gəldiyi deyilir. Başqa sözlə, bu cür mühüm məqama əhəmiyyət verilməməsi sürücülər tərəfindən xüsusilə qadın sərnişinlərə qarşı nalayiq davranışların sayının getdikcə artmasına, hətta bəzən bu məsələdə sürücülərin qarət yolunu tutmağa cəhd göstərmələrinə gətirib çıxardığı vurğulanır.

Bir müddət bundan əvvəl Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyində respublikada fəaliyyət göstərən taksi şirkətlərinin nümayəndələri ilə görüşdə yuxarıda sadalanan məsələlərə toxunularaq ölkə ərazisində sərnişindaşıma sisteminin təşkilini təkmilləşdirmək məqsədi ilə taksi xidmətinin kompleks şəkildə tədqiq olunduğu, daha səmərəli idarəetmə sisteminin yaradılması əsasında taksi xidmətinin keyfiyyətinin yüksəldilməsi imkanları araşdırıldığı bildirilib.

Adıçəkilən nazirliyin məlumatında, həmçinin bildirilir ki, hazırda ölkə ərazisində minik avtomobilləri ilə taksi xidməti göstərən, eyni zamanda, taksi xidmətlərinin təşkilini, sifarişlərin idarə olunmasını həyata keçirən yerli və xarici şirkətlər mövcuddur. Əksər şirkətlərin məlumat bazası isə xarici ölkələrdə yerləşir və bu da "Fərdi məlumatlar haqqında" Qanuna ziddir. Halbuki həmin qanuna əsasən, respublikamızda fərdi məlumatların informasiya sistemləri dövlət qeydiyyatından keçməlidir. Yalnız bundan sonra fərdi məlumatların toplanılmasına və işlənilməsinə icazə verilir.

Sözügedən məlumatda o da xatırladılır ki, taksi minik avtomobilləri ilə sərnişin daşımaları sahəsində yeni dövlət siyasətinin formalaşdırılması və islahat mexanizmlərinin tətbiqi istiqamətində mütəmadi olaraq tədbirlərin həyata keçirilməsi zəruridir.

Eyni zamanda, həmin məlumatda taksi fəaliyyətini tənzimləyən və taksi minik avtomobillərinə dair tələbləri müəyyənləşdirən Nazirlər Kabinetinin 2019-cu il 4 mart tarixli Qərarından irəli gələn məsələlərə də toxunulub, sərnişindaşımanı yerinə yetirən taksi nəqliyyat vasitələrinin milli və beynəlxalq standartlara, həmçinin normativlərə uyğun texniki təchizata, habelə ekoloji standartlara uyğun olması zərurəti diqqətə çatdırılıb.

Tələblərə əsasən daşımalarda istifadə edilən taksi minik avtomobilləri müvafiq rəngdə olmalı, nəqliyyat vasitəsinin salonunda sürücü və daşınma tarifi haqqında məlumat lövhələri yerləşdirilməlidir. Taksi minik avtomobillərinin sürücüləri etik davranış qaydalarına və avtomobil nəqliyyatı ilə sərnişin daşımalarını tənzimləyən normativ hüquqi aktlara dair xüsusi hazırlıq keçməlidirlər.

Amma nəinki bu sadalananlara əməl edilir, heç taksi fəaliyyətində istifadə olunan avtomobillərin əksəriyyətinin köhnə və yararsızlığı belə narahatlıq doğurmur. Azərbaycanda təcrübəli taksi sürücüləri olmadığına görə, gənclər, ümumiyyətlə, sürücülükdən dərin anlayışı olmayan qeyri-peşəkar şəxslər bu işə cəlb edilirlər. Bu, bölgələrə, hətta kənd təsərrüfatına da ziyan vurur. Çünki regionlarda kənd təsərrüfatı ilə məşğul olmaq istəməyən, qazanc əldə edə bilməyən cavanlar da Bakıya üz tutur, burada bir avtomobil icarəyə götürüb, taksi fəaliyyəti ilə məşğul olurlar...

Nazirlər Kabinetinin yuxarıda sözügedən qərarında taksi fəaliyyətinə cəlb oluna biləcək şirkət və nəqliyyat vasitəsinə qarşı tələblər izah edilərkən bildirilib ki, sərnişin daşımaları müvafiq icazəsi olan şəxslər tərəfindən yerinə yetirilə bilər. İcazə "Lisenziyalar və icazələr haqqında" Qanuna əsasən, taksi minik avtomobilləri üçün "Fərqlənmə nişanı" alınmalıdır. "Fərqlənmə nişanı"nı almaq üçün "onlayn" qaydada "e-fn.ayna.gov.az" ünvanına, həmçinin Bakı, Yevlax və Xaçmaz KOB evlərində Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin müvafiq xidmət mərkəzlərinə müraciət etmək mümkündür.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***

### *Ekspert rəyi*

**Ərşad HÜSEYNOV, hüquqşünas, yol hərəkəti üzrə ekspert**



Azərbaycanda taksi fəaliyyəti ilə bağlı xeyli qanun var, amma problem qanunvericiliyin köhnə olmasındadır və yalnız klassik taksi fəaliyyətini tənzimləyə bilir.

Bu qanun aqreqatorlar, müxtəlif platformalar üzərindən taksi sifarişləri qəbul edən taksilərin fəaliyyətini tənzimləməyə yaramır. Ən böyük çatışmazlıq isə odur ki, bu qanunlar 2000-ci illərin əvvəllərində qəbul edilib və burada aqreqatorun fəaliyyəti ilə bağlı heç bir məlumat, həmin taksilərin fəaliyyətinin tənzimlənməsi üçün heç bir müddəa yoxdur. Ona görə də mövcud qanunvericiliyi təkmilləşdirmək lazımdır. Bunun üçün beynəlxalq təcrübə var.

Dünyanın hər yerində hüquq ictimai münasibətlərə uyğunlaşdırılır. İctimai münasibətlərin mahiyyətində yeniliklər olan kimi bu, qanunvericilikdə tətbiq edilir. Amma bizdə bu aqreqatorlar çoxdan var və pandemiya dövründə də geniş yayıldı. Həmin aqreqatorların adı qanunvericilikdə yoxdur. Belə olan halda onlara necə nəzarət ola bilər?!.

Hüquqşünas məsələnin həlli üçün vahid nəzarət sisteminin tətbiqini vacib sayır. Onun sözlərinə görə, problemi aradan qaldırmaq üçün vahid taksi sistemi deyil, taksilərə nəzarət qurumunun vahid sistemi olmalıdır. Vahid taksi sistemi nə praktiki, nə hüquqi, nə də nəzəri olaraq mümkündür. Burada söhbət xidmətin vahidliyindən getmir. Vahid nəzarət dövlət adından olmalıdır. Azərbaycanda gömrük, DİN-in vahid nəzarət sistemi var. Məsələn, ABŞ-da nəzarət qurumunun vahid sistemi var ki, tutaq ki, ölkədə 50 şirkət varsa, onların hamısına bir dövlət qurumu nəzarət edir. Həmin qurumun da vahid sistemi var. Ölkədə olan taksi şirkətləri həmin sistemə inteqrasiya edir və sistemə daxil olan sürücülərlə bağlı bütün məlumatlar reallaşır.

Taksilərə vahid nəzarət sistemi olmayanda onlara yetərli nəzarət etmək mümkün olmur və sui-istifadə halları baş verir. Həmin sürücülər 12–14 saat istismar olunur. Şərtlər isə belədir ki, onlar normal qazanc əldə etmək üçün bu qədər uzun müddət çalışırlar, bu da təbii ki, sürücü olmaq məntiqinə ziddir. Heç kəs hər gün 12 saat avtomobil idarə edə bilməz.

Onu da qeyd edim ki, taksi fəaliyyəti ilə bağlı paytaxtda baş verən son xoşagəlməz hadisələri hər hansı avtomobil markasının adına bağlamaq düzgün deyil. Burada vacib olan insan amilidir.

**Energetika naziri Pərviz Şahbazov Avropa Komissiyasının enerji siyasəti strategiyası və koordinasiya üzrə direktoru Kristina Lobillo Borrero ilə görüşüb.**

# Xəzərdən Avropaya "Yaşıl dəhliz"



Naziri Pərviz Şahbazov özünün "Twitter" səhifəsində bu barədə yazıb: "Avropa Komissiyasının enerji siyasəti strategiyası və koordinasiya üzrə direktoru Kristina Lobillo Borrero ilə Cənub Qaz Dəhlizinin genişləndirilməsi, Xəzər–Avropa Yaşıl Enerji Dəhlizinin yaradılması və Enerji Dialoqu çərçivəsində əməkdaşlıq məsələlərini müzakirə etdik. Növbəti addımları müəyyənləşdirdik", – deyə məlumatda qeyd edilib.

***"Xalq qəzeti"***

# Ötən il sahibkarlığın inkişafına 145,9 milyon manat güzəştli kredit ayrılıb




**İqtisadiyyat naziri Mikayıl Cabbarovun məlumatına əsasən, hesabat ili ərzində Sahibkarlığın İnkişafı Fondundan ümumilikdə 2726 layihə üzrə 145,9 milyon manat güzəştli kredit ayrılıb.**

Nazir bildirib ki, bu kreditlərin layihə sayı üzrə 99,9 faizi, məbləğ üzrə isə 98,3 faizi mikro, kiçik və orta sahibkarlıq subyektlərinə ayrılıb.

***"Xalq qəzeti"***

# "Azərkosmos" 42 ölkəyə 6,2 milyon dollarlıq peyk xidməti göstərib




**Cari ilin yanvar–aprel aylarında Azərbaycan Respublikasının Kosmik Agentliyi ("Azərkosmos") tərəfindən dünyanın 42 ölkəsinə 6,2 milyon ABŞ dolları dəyərində peyk telekommunikasiya xidmətləri ixrac edilib.**

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin "İxrac icmalı"-nın may sayında bildirilir ki, "Azərkosmos"un xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin 77 faizini təşkil edib. 2023-cü ilin aprel ayında isə "Azərkosmos" dünyanın 41 ölkəsinə 1,6 milyon ABŞ dolları dəyərində xidmət ixrac edib.

Bu ilin yanvar–aprel ayları ərzində peyk telekommunikasiya xidmətlərinin ixracının ilk beşliyində 1,7 milyon ABŞ dolları ilə Birləşmiş Krallıq, 1,4 milyon ABŞ dolları ilə Lüksemburq, 595,9 min ABŞ dolları ilə BƏƏ, 339,8 min ABŞ dolları ilə Almaniya və 291,3 min ABŞ dolları ilə Pakistan qərarlaşıb.

***"Xalq qəzeti"***



# Asiya İnkişaf Bankı Azərbaycan iqtisadiyyatı ilə maraqlanır

**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzində (İİTKM) Asiya İnkişaf Bankının (AİB) Regional əməkdaşlıq və əməliyyatların əlaqələndirilməsi şöbəsinin iqtisadçısı Kristian Rosbakın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirilib.**

Mərkəzdən verilən məlumata görə, görüşdə İİTKM-in icraçı direktorunun müavini Rəşad Hüseynov Mərkəzin fəaliyyəti barədə AİB-in nümayəndələrini məlumatlandırıb. O, "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" və "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın əsas istiqamətləri, onların monitorinq və qiymətləndirilməsində mərkəzin rolu barədə məlumat verib. Eyni zamanda, ölkədə həyata keçirilən iqtisadi və sosial islahatlar, biznes və investisiya mühitinin yaxşılaşdırılması məqsədilə Mərkəzdə aparılan tədqiqatlar barədə qonaqları məlumatlandırıb.

Rəşad Hüseynov işğaldan azad edilmiş ərazilərin bərpası prosesində beynəlxalq inkişaf tərəfdaşlarının iştirakının əhəmiyyətini xüsusilə vurğulayıb. Mərkəzin əsas fəaliyyət istiqamətlərindən biri olan proqramların monitorinqi və qiymətləndirilməsi prosesinin təkmilləşdirilməsi üçün Asiya İnkişaf Bankının texniki dəstəyinin əhəmiyyəti qeyd olunub.

Müzakirə zamanı iqtisadiyyatın diversifikasiyası və ölkənin qlobal dəyər zəncirinə qoşulması sahəsində beynəlxalq təcrübə, eləcə də iqtisadi islahatlar sahəsində uğurlu əməkdaşlıq perspektivlərindən danışılıb.

Asiya İnkişaf Bankının nümayəndəsi Kristian Rosbak 2024–2028-ci illər üçün Ölkə Tərəfdaşlıq Strategiyası çərçivəsində Azərbaycanla əməkdaşlığın əsas istiqamətləri haqqında ətraflı məlumat verib. Həmçinin o, yaşıl iqtisadiyyatın formalaşmasına yönəlmiş iqtisadi islahatlar, Orta Dəhlizə çıxış, iqtisadiyyatın diversifikasiyası, iqtisadi transformasiya, yerli və regional inteqrasiya, qlobal arenada yeni inkişaf təşəbbüsləri sahəsində təmsil etdiyi qurumun maraqlı olduğunu və əməkdaşlığa hazır olduqlarını bildirib.

***"Xalq qəzeti"***

# Qeyri-neft sektoruna yönəldilən vəsait 13,6 faiz artıb



**Keçən il əsas kapitala yönəldilən vəsaitin məbləği 18,3 milyard manat təşkil edib. Əsas kapitala yönəldilən investisiyaların 80,6 faizi daxili mənbələr hesabına formalaşıb. İnvestisiyaların 5,4 milyard manatı neft, 12,9 milyard manatı isə qeyri-neft sektoruna yönəldilib. Hesabat ilində qeyri-neft sektoruna yönəldilmiş vəsaitin həcmində 13,6 faiz artım qeydə alınıb.**

Bütün bu göstəricilər Milli Məclisin mayın 31-də keçirilən iclasının gündəliyinə daxil edilən 2022-ci ilin dövlət büdcəsinin icrası ilə bağlı qanun layihəsinin təqdimatında səsləndirilib. Bildirilib ki, ötən il xarici ticarət üzrə əməliyyatların həcmi 56,2 milyard ABŞ dolları olub. Bunun 41,7 milyard dolları ixrac, 14,5 milyard dolları isə idxal əməliyyatlarının payına düşüb.

***"Xalq qəzeti"***




# TANAP 50 milyard kubmetr qaz nəql edəcək

**TANAP Konsorsiumunun Baş direktoru Saltuk Düzyolun sözlərinə görə, yaxın aylarda Trans–Anadolu Qaz Boru Kəməri (TANAP) ilə nəql edilən qazın həcmi 50 milyard kubmetrə çatacaq.**

Onun sözlərinə görə, istifadəyə veriləndən indiyədək kəmər vasitəsilə 46 milyard kubmetrdən artıq qaz nəql olunub.

Saltuk Düzyol onu da qeyd edib ki, TANAP ilə nəql edilən qazın 24,15 milyard kubmetri Avropa, qalan 21,93 milyard kubmetri isə Türkiyəyə nəql edilib.

Kəmərin genişləndirilməsi məsələsinə toxunan Saltuk Düzyol əlavə edib ki, hazırda bu sahədə işlər davam etdirilir.

***"Xalq qəzeti"***

# Xəzər neft və qaz sərgisi beynəlxalq əməkdaşlıq platformasıdır



**Bu günlərdə dünyanın enerji mərkəzlərinin diqqəti yenidən Azərbaycan paytaxtına yönəlib. Dünən Bakıda öz işinə başlayan Beynəlxalq enerji həftəsinin ilk günündə 28-ci beynəlxalq Xəzər neft və qaz sərgisinin təntənəli açılış mərasimi keçirilib. Xatırladaq ki, Azərbaycan paytaxtında 28-ci dəfə keçirilən builki sərgidə 37 ölkədən gəlmiş 326 şirkət iştirak edir. Onların bir çoxu ənənəvi neft-qaz sərgisinin daimi iştirakçıları olsalar da, bu mötəbər tədbirə ilk dəfə qoşulanlar da az deyil.**

Xəzər regionunun ən nüfuzlu enerji tədbirinin açılışında Azərbaycan Prezidenti İlham Əliyevin, eləcə də bir çox dünya ölkələrinin dövlət xadimlərinin, şirkət nümayəndələrinin, yüksək səviyyəli qonaqların və beynəlxalq enerji ekspertlərinin iştirakı sərginin əhəmiyyətini qat-qat artırırdı. Məlum olduğu kimi, Azərbaycan paytaxtı artıq uzun müddətdir ki, nüfuzlu tədbirlərin təşkil edildiyi və mühüm qərarların, əməkdaşlıqların müzakirə edildiyi məkana çevrilib. Bundan əlavə, ölkəmizin enerji sahəsində həyata keçirdiyi uğurlu siyasət nəticəsində respublikamız artıq enerji sektorunda öz sözünü deməyə müvəffəq olub. Belə ki, hazırda Azərbaycan yalnız özünün deyil, digər ölkələrin də enerji təhlükəsizliyinin təminatında mühüm rol oynayır.

Azərbaycanın həm regionda, həm də Avropada enerji təhlükəsizliyi sahəsində önəmli rol oynadığını bir daha təsdiqləyən Beynəlxalq enerji həftəsinin təşkilatçıları isə "Iteca Caspian" və "Caspian Event Oraganisers" və onların beynəlxalq tərəfdaşları–"İCA Events" və "CEM FZ LLC" şirkətləridir. Tədbirin baş sponsoru SOCAR, sponsorları isə AbuDhabi Port, ACWA Power, Ansaldo Energia, AZEL SYSTEMS, Azeri M-I Drilling Fluids, AZFEN, Baku Steel Company, bp, Caspian Drilling Company, Caspian Marine Services, Equinor, EP Absheron, Intertek, Global Energy Azerbaijan, GL, Inpex, KOLIN Construction, MASDAR, Tekfen, Total Energies, Turkish Petroleum, Uniper, Ural Steel şirkətləridir. Sponsorların geniş tərkibi isə, heç şübhəsiz, Bakı Beynəlxalq enerji həftəsinin nüfuzunu və yüksək statusunu təsdiqləyir.

Azərbaycan Respublikası Dövlət Neft Şirkəti SOCAR-ın ayrı-ayrı şirkət və müəssisələrinin öz nailiyyət və perspektivlərini geniş nümayiş etdirməsi tədbirə marağı qat-qat artırırdı. Bundan əlavə, ölkəmizdə həyata keçirilən iri neft-qaz layihələrinin operatoru BP şirkəti, qardaş Türkiyənin TPAO, Fransanın Total, Azərbaycanda bərpaolunan enerji layihələrinin iştirakçısı olan Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" , Özbəkistanın "Uzbekneftegaz" və dünyanın neft-qaz, nəqliyyat-logistika və təchizat sahələrində fəaliyyət göstərən onlarca firma və şirkəti öz qabaqcıl təcrübə və nailiyyətlərini sərgidə nümayiş etdirmək üçün yaxşı imkan qazanmışdılar. Yeri gəlmişkən, iştirakçıların istər bu müəssisələrin, istərsə də öz ekspozisiyalarını göstərən digər ölkələrin şirkətlərinin imkanları, nailiyyət və perspektivləri ilə yaxından maraqlanmaları bir daha sübut edirdi ki, ənənəvi Xəzər neft və qaz sərgisi beynəlxalq əməkdaşlıq meydanı kimi mühüm statusunu qoruyub saxlaya bilib. Elə sərgi barədə rəy və təəssüratlarını öyrəndiyimiz iştirakçılar da bu mötəbər tədbirdə əməkdaşlıq əlaqələrini genişləndirmək, sərginin yaratdığı imkanlardan səmərəli istifadə etmək məqsədində olduqlarını vurğulayırdılar.



**İbrahim İbrahimov, "Atilla" transport xidmətləri şirkətinin kommersiya üzrə direktoru:** – Şirkətimiz ötən əsrin 90-cı illərinin sonlarında təsis edilib. 2000-ci illərin ortalarından etibarən neft-qaz sektorunda fəaliyyət göstərən 40-dan çox şirkətə nəqliyyat xidmətləri göstərməyə başlamışıq. Müştərilərimizə göstərdiyimiz nümunəvi xidmətlərə görə, Azərbaycanda təsis olunmuş şirkətlərarası milli mükafat–"İlin şirkəti" adına layiq görülmüşük. 2015-ci ildə isə Azərbaycanda həyata keçirilən iri neft-qaz layihələrinin operatoru olan BP şirkətinin elan etdiyi müsabiqənin qalibi olmuşuq.

Şirkətimiz hazırda sərnişindaşıma xidməti ilə yanaşı, avtomobil parklarının yenilənməsi, eləcə də sürücülərə təlim keçirilməsi sahələrində də fəaliyyət göstərir.

Xəzər neft-qaz sərgisinə gəldikdə isə, 2016-cı ildən etibarən bu mötəbər tədbirdə iştirak edirik. Təşkilatçılıq, hər il olduğu kimi, bu dəfə də yüksək səviyyədədir. Burada öz nailiyyətlərimizi nümayiş etdirməklə yanaşı, yeni şirkətlərlə də əməkdaşlıq imkanı qazanacağımıza ümid edirəm...



**Vladimir Şlimak, "Caspian Drillinq Company Ltd" şirkətinin baş direktorunun layihələr və mühəndislik işləri üzrə birinci müavini:** –Qazma sahəsinin qabaqcıl şirkətlərindən olan "Caspian Drillinq Company Ltd" 26 illik fəaliyyətə malikdir. Şirkətimiz Xəzər dənizinin qazma sənayesində xüsusi uğurları ilə tanınır. Hazırda şirkətin əsas heyəti neft və qaz sənayesində 30-35 illik beynəlxalq təcrübəyə malik qazma, geologiya, mühəndislik, dənizçilik, elektrik və mexanika sahələri üzrə peşəkar işçilərdən ibarətdir. Ümumilikdə, şirkətimizdə 650-dən çox əməkdaş çalışır.

Ötən müddətdə Xəzər dənizi regionunda qazma əməliyyatlarının yerinə yetrilməsi məqsədilə Dədə Qorqud, İstiqlal, və Heydər Əliyev qazma qurğuları şirkətimizin sərəncamına verilib. Şirkətimizin kəşfiyyat qazma əməliyyatları nəticəsində "Azəri-Çıraq-Günəşli" və "Şahdəniz" yataqları kəşf edilib.

"Caspian Drillinq Company Ltd" şirkəti öz fəaliyyətini təkcə Xəzər dənizi ilə məhdudlaşdırmaq niyyətində deyil. Yaxın illərdə beynəlxalq neft və qaz layihələrində iştirak etməklə özümüzü dünya miqyasında tanıtdırmağa çalışırıq. Ötən müddətdə Türkiyə və İsraildə müəyyən kəşfiyyat qazması aparmışıq. Düşünürəm ki, "Xəzər neft-qaz" sərgisi bu baxımdan bizim üçün əla fürsətdir. Biz burada öz nailiyyətlərimizi nümayiş etdirməklə yanaşı, sərgi iştirakçıları olan digər şirkətlərin də uğurları ilə tanış oluruq. Bu baxımdan deməliyəm ki, bu tədbir beynəlxalq əməkdaşlıq üçün mühüm əhəmiyyət kəsb edir. Çünki burada iştirak edən bütün şirkətlər bir-birini daha yaxından tanımaq imkanı qazanırlar. Bir sözlə, burada hər şey möhtəşəmdir...

**Murad Sadıxov, Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkətinin Azərbaycan üzrə meneceri:** – "Masdar" şirkəti 2006-cı ildə Əbu-Dabi hökuməti tərəfindən təsis olunub. Hazırda şirkətin üç təsisçisi var. Əsas fəaliyyət istiqamətimiz bərpaolunan enerji layihələrinin inkişaf etdirilməsindən ibarətdir. Şirkətimiz bərpaolunan enerji sahəsində həm Yaxın Şərq, həm də dünya üzrə liderdir. Hazırda 40-dan çox ölkədə fəaliyyət göstəririk. İstifadə etdiyimiz texnologiyalar günəş, külək və bionerji sahəsi ilə bağlıdır. Hazırda 20 min meqavatdan artıq istehsal gücünə nəzarət edirik.

"Masdar" şirkəti Azərbaycana ilk dəfə 2018-ci ildə ayaq basıb. Həmin il Azərbaycan hökuməti tərəfindən keçirilən tenderə dəvət alaraq iştirak etmişdik. 2021-ci ildə biz 230 meqavatlıq



"Qaradağ" Günəş Elektrik Stansiyası layihəsinə imza atdıq. 2022-ci il martın 15-də Azərbaycan Prezidenti cənab İlham Əliyevin və Birləşmiş Ərəb Əmirliklərinin energetika naziri Suhail Mohamed Al Mazroueinin iştirakı ilə stansiyanın təməlqoyma mərasimi keçirildi. Ötən müddətdə işlərin sürətlə davam etdirilməsi nəticəsində tikinti qrafikini xeyli qabaqlamağa nail olmuşuq. Həm də bizə stansiyanı "Heydər Əliyev İli" elan olunmuş 2023-cü ilin sonlarınadək istifadəyə verməyə imkan yaradır. Azərbaycanın bərpaolunan enerji potensialı yüksək olduğundan bizim gələcəkdə də burada bir sıra yeni layihələrdə iştirak etməklə bağlı planlarımız var.

Xəzər neft-qaz sərgisində ikinci dəfədir, iştirak edirik. Bundan çox məmnunuq. Ötən il ilk iştirakımız bizə çox düşərli oldu. Belə ki, sərgidən dərhal sonra Azərbaycanın Energetika Nazirliyi tərəfindən Şuşada keçirilmiş xüsusi enerji konfransı keçirilmişdi. Həmin konfrans çərçivəsində biz iki yeni böyük müqavilə imzaladıq. Həmin müqavilələr quruda 2 min meqavat günəş və külək enerjisi stansiyalarının tikintisi və dənizdə külək və yaşıl hidrogen istehsalı ilə bağlıdır. Bununla da, Azərbaycanda 10 min meqavatlıq güc yaratmağa nail olacağıq.

İştirak etdiyimiz budəfəki sərgi olduqca möhtəşəmdir. Qeyd etmək istəyirəm ki, sərgidə iştirak etmək bizim üçün çox faydalıdır. Çünki biz burada yeni texnolgiyalar haqqında məlumat əldə edirik. Bu baxımdan özümüzü çox şanslı hesab edirik. Bu gün də Prezident İlham Əliyev bizim pavilyona baş çəkərək işlərimizlə maraqlandı. Ümid edirəm ki, cənab Prezident işlərimizdən çox razı qaldı...

***Mirbağır YAQUBZADƏ,***
***"Xalq qəzeti"***

**Həyatımda çox səfərlər olub. Amma bu dəfə edəcəyim səfəri, keçəcəyim yolları nə az, nə çox, düz 30 il səbirsizliklə gözləmişəm. Səfərimiz isə dünyanın ən gözəl şəhərinə, Azərbaycanın mədəniyyət paytaxtı Şuşayadır. Yola çıxacağımız vaxt yaxınlaşdıqca həyəcanımız da artırdı. Nəhayət, saat 06:30-da Ağcabədidən yola düşürük. Səhər saat 8-də isə Füzuli rayonunda, daha doğrusu, Əhmədbəyli nəzarət-buraxılış məntəqəsində idik. Yol boyu düşmənin qazdığı dərin labirintli səngərlər, mühəndis istehkam qurğuları, müşahidə məntəqələri və daha nələr, nələr... Bir də yolun sağ-sol tərəfində dağıdılmış və viran qoyulmuş evlər vardı. Hətta, bəzi evlər təməlinədək sökülmüşdü. Füzuli şəhərində və yolumuzun üstündə olan bütün kəndlərdə də oxşar mənzərə ilə rastlaşdıq.**

# Şuşa – tarix və qəhrəmanlıq zirvəsi

Amma bir təsəllimiz var: Füzuli rayonunda quruculuq və yenidənqurma işləri, infrastrukturun bərpası həyata keçirilir, yeni yaşayış kompleksləri, evləri tikilir və burada ölkə əhəmiyyətli açılışlar həyata keçirilir. Yeni tikilən evlərdə insanlar yaşayacaq, həyətlərində uşaqlar oynayacaq. Arzular boy atacaq, məclislər qurulacaq, insanlar yenidən şənlənəcək, gələcəyə böyük ümidlərlə bağlanacaqlar.

... Şuşaya Zəfər yolu ilə qalxırıq. Alxanlı qəsəbəsindən başlanan bu yol Füzuli Hava Limanı yaxınlığından keçir. Avtomobil yolunu hava limanı ilə əlaqələndirmək məqsədilə yolun 27-ci kilometrliyində yol qovşağı və aerovağzala giriş yolu inşa olunub. Füzulidən sonra isə yol xüsusi relyefə malik olan çətin ərazidən- dağlardan, vadilərdən çəkilib. Özü də cəmi iki ilə yaxın müddətdə istifadəyə verilib. Belə bir qısa vaxtda icra olunan və dünyada analoqu olmayan layihə Azərbaycan dövlətinin gücünü, onun malik olduğu potensialı və ən əsası, Prezident İlham Əliyevin qətiyyətini bütün dünyaya göstərdi.






Qeyd edim ki, Zəfər yolu Füzuli və Şuşa şəhərləri də daxil olmaqla bu rayonların onlarca yaşayış məntəqəsini əhatə edir, onların arasında nəqliyyat əlaqəsinin qurulmasına imkan yaradır. Bu layihə, həm də ona görə müstəsna əhəmiyyət daşıyır ki, o, ilk növbədə, öz doğma yurdlarına qayıdacaq insanların rahatlığının təmin olunmasına, onlar üçün yüksək səviyyəli həyat və yaşayış standartının yaradılmasına xidmət edir. Ətraf ərazinin gözəlliyi isə böyük turizm potensialının olduğunu açıq-aydın hiss erdirir. Bu, həm də biznesin inkişafıdır.

Yol isə bizi Qarabağın tacı olan Şuşa şəhərinə aparır. Nə az, nə çox bir saatlıq yoldan sonra Şuşanın girişindəki posta çatırıq. Şəhərə girişdə sənədlərimiz yenidən yoxlanılır. Postun yaxınlığında isə Laçın–Xankəndi yolu keçir. Bu yolda Rusiya sülhməramlılarına aid "BTR" və bu ölkəyə məxsus bayraq diqqətimizi çəkir. Yaxınlıqda Rusiya sülhməramlı kontingentinin əsgəri dayanmışdı. Təqribən, 10 metr aralıda Şuşa Rayon Polis Şöbəsi və Daxili Qoşunların əməkdaşları xidməti vəzifələrini yerinə yetirirdilər. Çox sərbəst, özlərindən çox əmin görünüşləri vardı və torpağın sahibləri olduqları aydın hiss olunurdu.

Qeyd edim ki, postun yaxınlığında bir qədər əvvəl ekofəallarımızın dünyaya səs salmış aksiyası keçirilmişdi. Məlum olduğu kimi, Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarının dayandırılmasını, ekoloji fəsadlarla bağlı monitorinqin keçirilməsini sülhməramlı kontingentin komandanlığından israrla tələb etmişdilər. O da məlumdur ki, Ermənistanla sərhəddə sərhəd-nəzarət mexanizminin yaradılması, bununla da, yolda hərəkət üzrə şəffaflığın, qanunun aliliyinin və hərəkətin təhlükəsizliyinin təmin edilməsi ilə 2023-cü il aprelin 28-də saat 18:00-dan etibarən 138 gün davam etmiş dinc etiraz aksiyası müvəqqəti dayandırılıb.

...Sənədlərimiz yoxlandıqdan sonra yolumuza davam edirik. Artıq Şuşa şəhərindəyik. "Bravo" mağazasının yerləşdiyi binanın ikinci mərtəbəsində yerləşən kafedə səhər yeməyimizi yedikdən sonra şəhəri gəzirik.

Xurşidbanu Natəvanın dağıdılmış evinin yanından keçərək Şuşa qalasına yaxınlaşırıq, sonra isə Gəncə qapısından keçib türməyə doğru gedirik. Yaxınlıqdakı qəbiristanlıqda ustalar təmir-bərpa işləri görürdülər. Türmə isə sanki son günlərini yaşayır. Saatlı və Yuxarı Gövhər ağa məscidlərini, Molla Pənah Vaqifin məqbərəsini, Mir Möhsün Nəvvabın məzarını ziyarət edib Cıdır düzünə qalxırıq. Cıdır düzü çoxsaylı yerli və beynəlxalq tədbirlərə ev sahibliyi edib. İki gün əvvəl isə burada "Xarıbülbül" festivalı keçirilib.

...Ətrafda bir sakitlik hakimdir, ərazidə yalnız təmizlik işçiləri çalışırdılar. Cıdır düzünün kənarındakı yarğanlığı maraqla izləyir və qürur hissi keçiririk. Burada 2020-ci noyabrın 6-da ağır döyüşlər getmişdi. Azərbaycan Xüsusi Təyinatlı Qüvvələrinin yüngül silah-sursatla təchiz edilmiş, hərəsi 100 nəfərdən ibarət olan dörd qrupa bölünmüş 400 nəfərlik heyəti Şuşanın sıldırımlarına iplərlə dırmaşaraq səhər saatlarında şəhərə dörd tərəfdən daxil olmuş və burada dərhal döyüşlər başlamışdı. Onlarını qalxdığı sıldırımlardan biri də mənim kənarında durduğum qayalıq idi. Bu döyüşlərlə Azərbaycan xüsusi təyinatlıları regionda ən hazırlıqlı komanda qüvvələri olduqlarını bir daha göstərmişdilər. Öz yaralı və şəhidlərini döyüş meydanında buraxmadan qayalarla qalxaraq döyüşlərini davam edirmiş və Şuşanı azad etmişdilər. Bunun özü isə yüksək hazırlığın nümunəsi idi.

...Bir qaya parçasının üstündə oturub bir anlıq xəyala dalıram. Bu zaman arxamda iki nəfərin dayandığını hiss edirəm. Sanki Şuşa şəhəri uğrunda şəhid olmuş Bilal Qənbərov və Fariz Rəhimovun ruhları idilər. Arxaya çevrilməkdən qorxuram. Qorxuram ki, birdən görə bilməyəm, xəyal qırılığına uğrayaram. Ən önəmlisi isə onların ruhunu yanımda hiss etmək, rahatlıq, hüzur tapmaq idi. Bunu yaşamaq istəyirdim, ona görə də çevrilib arxaya baxmıram. Bu çox qəribə hiss idi və onu yaşadım.

...Bilal Qənbərov və Fariz Rəhimov da Şuşanı azad etmək, küçələrini alnıaçıq, vüqarla gəzmək istəyirdilər. Bu, onların arzusu idi. Və xəyalən olsa da, biz birlikdə Şuşanı gəzdik. Mən buna əmin idim, çünki yanımda olduqlarına, qəribə də olsa inanırdım.

...Bir anlıq ayılan kimi oldum. Sanki ətrafımda iki dumanlı ruh vardı, məndən uzaqlaşdılar... İnanılası deyil, amma mən onları gördüyümə əminəm.

Hər ikisi Füzuli, Cəbrayıl və Hadrutun azad edilməsində iştirak etmişlər. Hər ikisinin son döyüşü Şuşa uğrunda olmuş və bir daha Vətənə sadiq, torpağına bağlı əsgər olduqlarını göstərmişdilər. Günlərlə çiyinlərində yük, silahla gizli yollarla Şuşa şəhərinə doğru irəliləmiş, günlərlə ac-susuz qalmalarına baxmayaraq, ruhdan düşməmiş, döyüşmüşdülər.

Deyilənlərə görə, Fariz Rəhimov bu döyüşlərin birində az qala həlak olacaqmış. Düşmən tərəfinin minaatanları dəfələrlə onların olduğu ərazini atəş altında saxlamağa çalışmışdı. Hətta mərmilərdən biri Farizin yaxınlığına düşmüşdü. Vaxtında qayanın arxasına uzanması həyatını xilas etmişdi. Döyüş dostları bu hadisədən sonra zarafatla – "sənə ölüm yoxdur!" demişdilər.

Fariz Rəhimov MAXE və zabitlərdən ibarət bölükdə xidmət edən yeganə əsgər olub. O, və MAXE-lərlə döyüşlərdə iştirak edərək ön öndə vuruşub.

Onun son döyüşü də Şuşa uğrunda olub. 2020-ci il noyabrın 7-də gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

Bilal Qənbərovun da Şuşa uğrunda döyüşü asan olmayıb. Beş gün şəhər istiqamətində piyada hərəkət etməli olub, döyüş yoldaşları ilə yarğanları, meşələri və dağları keçiblər. İlk dəstələr Şuşa istiqamətindəki strateji yüksəkliklərdə, kəndlərdə möhkəmləniblər. Azərbaycan ordusunun ön dəstələrinin sıralarında Bilal Qənbərov da qəhrəmancasına vuruşub.

"Hadrut–Şuşa yolunu piyada getdik. Dəfələrlə düşmən tərəfi bizi minaatalarla atəşə tutdu, yaralanan və şəhid olanlarımız oldu, ruhdan düşmədik, yolumuza davam etdik. Döyüşdük, Şüşə istiqamətində kəndlərimizi azad etdik. Evlərə girəndə düşmənin bizdən necə qorxduğunun şahidi olurduq. Onlar döyüşmək bir yana, qorxulardan addım səslərimizi eşidib qaçırdılar",- Bilal atası ilə telefon danışığı zamanı belə demişdi.

Bilal Qənbərov özü bilmədən şəhadətə tələsirdi. Bu məqsəd üçün seçilmişlərdən biri idi, Bilal. Noyabrın 2-də döyüşdə əsgər yoldaşlarından biri yaralanarkən həyatını təhlükə altına atıb onu atəş zonasından çıxararaq sakit bir yerə aparıb təxliyə olunmasına kömək etmişdi. Noyabrın 3-də isə kəşfiyyatdan qayıdarkən düşmənlə qarşılaşıb. O, əvvəlcə qolundan snayper atəşi ilə yaralanıb. Sonra minaatan mərmisinin yaxınlıqda partlaması nəticəsində ayağından da qəlpə yarası alıb. Qızğın döyüşlər getdiyindən onu vaxtında təxliyə etmək mümkün olmayıb. İkin yardım göstərilsə də, çox qan itirdiyindən şəhadətə qovuşub.

...Bilal və Farizin ən böyük arzuları Şuşaya bayraq sancmaq və evlərinə qələbə ilə qayıtmaq idi. Amma hər ikisi müqəddəs şəhərimizin azad olunmasını görmədilər, şəhid oldular. Onların arzularını döyüş yoldaşları həyata keçirdilər və Şuşada Azərbaycan bayrağını dalğalandırdılar.

...Geri qayıdarkən qəhrəmanların məzarlarına səpmək üçün torpaq yığdım, su götürdüm. Mənə elə gəlir ki, onların məzarına Şuşa torpağından səpsəm, bunu hiss edəcəklər, sevinəcəklər.

***Pünhan ƏFƏNDİYEV,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***

# Türkiyədə seçki təntənəsi: 85 milyonluq millətin qələbəsi!

**“XXI əsr türk əsri olacaq!”– deyənlərin proqnozları doğrulmaqdadır. Bunu türk dünyasının böyük lideri olan Rəcəb Tayyib Ərdoğanın və onun rəhbərlik etdiyi siyasi partiyanın daha bir seçkidə böyük qələbə qazanması da sübut edir. Bu qələbə son onillərin ən dəhşətli zəlzələsinin fəsadları ilə üz-üzə qalmış Türkiyənin yaralarını sağaltmaqla yanaşı, qəlbi Turan arzusuyla yanan çoxmilyonlu insanların yoluna işıq da salacaq. Bu qələbə ikili siyasi standartlarla, islamofobiya və türkofobiya ilə yaşayanların bir çox arzularını gözündə qoyacaq.**



Bu seçki təkcə türkdilli ölkələrdə və İslam dünyasında deyil, bütün dünyada ən çox maraqla gözlənilən, hamının diqqətlə izlədiyi siyasi kampaniya idi. Çünki Türkiyənin sürətlə inkişaf etməsini, təkcə Avrasiyada deyil, bütün dünyada söz sahibinə çevrilməsini istəməyənlər də çox idi, cənab Ərdoğanın qələbəsini arzulayanlar da.

Bu seçki müsəlman ölkələrinə demokratiyadan “dərs keçmək” istəyən bəzi Qərb siyasi dairələrinə məhz demokratiya dərsi oldu. Türkiyədəki 2023-cü il parlament və prezident seçkiləri həm ölkə əhalisinin mütəşəkkilliyi ilə yadda qaldı, həm də ədalətli nəticə ilə.

Bu seçki və Rəcəb Tayyib Ərdoğanın qələbəsi həm azərbaycanlıların, həm də Türkiyə siyasətçilərinin tez-tez işlətdiyi “Sevinciniz sevincimiz, kədəriniz kədərimizdir!”– tezisinin də tarixi həqiqət olduğunu sübut etdi. Çünki Azərbaycan Prezidenti İlham Əliyev seçkinin nəticələrinin rəsmi şəkildə elan olunmasından əvvəl, ilkin nəticələri öyrənən kimi cənab Ərdoğana zəng edərək, təbrik etdi. Bu telefon zəngi adi təbriklə bitmədi, dövlət başçımız qardaş ölkənin yeni seçilmiş Prezidentini Azərbaycana dəvət etməklə də sevincimizin hüdudsuz olduğunu göstərdi.

Prezident İlham Əliyev bu qələbəni Türkiyə xalqının Rəcəb Tayyib Ərdoğanın həyata keçirdiyi siyasətə göstərdiyi etimad kimi dəyərləndirərək əmin olduğunu bildirdi ki, Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə növbəti illərdə də Türkiyənin hərtərəfli inkişafı davam etdiriləcək. Eləcə də, cənab Prezident Rəcəb Tayyib Ərdoğana Türkiyə xalqının firavanlığı və ölkənin tərəqqisi naminə fəaliyyətində yeni-yeni uğurlar arzulayıb.

Prezident seçkilərində növbəti dəfə qalib gələn Rəcəb Tayyib Ərdoğan xalqa müraciət edib. Böyük etimada görə türk xalqına minnətdarlıq edən dövlət başçısı başqa bir məqama da toxunub: “Hazırda xarici ölkələrin liderləri zəng edərək təbrik edir. Bir az əvvəl Azərbaycan Prezidenti İlham Əliyev zəng etdi. Bundan əlavə, Özbəkistan lideri Şavkat Mirziyoyev də zəng edib. Hər kəs ard-arda təbrik edir. Həmçinin Qətər və Liviyadan da təbriklər gəldi”.

Əlavə edək ki, Türkiyə mediası və əksər televiziya kanalları İlham Əliyevin Ərdoğanı təbrik etməsi xəbərinə geniş yer verib və bu təbrik xüsusi vurğulanıb.

Sonda xüsusilə vurğulayaq ki, Azərbaycanın 2020-ci ilin payızındakı tarixi qələbəsinin yaratdığı yeni reallıqları hələ də həzm edə bilməyən bədxahlarımız açıq şəkildə deyirdilər ki, Rəcəb Tayyib Ərdoğanın seçkilərdəki məğlubiyyətindən sonra Azərbaycana təzyiq etmək asan olacaq. Olmadı, cənablar və heç zaman olmayacaq. Çünki Türk dünyası artıq sizin düşündüyünüz səviyyədə deyil. Azərbaycana və ya Türkiyəyə yuxarıdan aşağı baxmağı birdəfəlik unudacaqsınız.

Təbriklər Türkiyə seçicisi, sevincinizə qoşuluruq Türk dünyası, yolunuz açıq olsun Turan sevdalıları!

*İttifaq MİRZƏBƏYLİ,*
*“Xalq qəzeti”*





# Vladimir Putin və Volodimir Zelenski Türkiyəyə səfər edəcəklər

**Rusiya Prezidenti Vladimir Putin və Ukraynanın dövlət başçısı Volodimir Zelenski Türkiyəyə səfər edəcək. Məlumatı “CNNTurk” yayıb.**

Məlumata görə, bir neçə ölkənin dövlət və hökumət başçısı yenidən Türkiyə Prezidenti seçilən Rəcəb Tayyib Ərdoğanın şənbə günü - iyunun 3-də keçiriləcək andiçmə mərasimdə iştirak etmək istəklərini rəsmi Ankaraya bildiriblər.

Qeyd olunub ki, bundan başqa, V.Putinin Türkiyəyə xüsusi bir səfəri də nəzərdə tutulub. Onun ardınca Ukrayna lideri Volodimir Zelenskinin bu ölkəyə getməsi gözlənilir.

Hər iki səfər çərçivəsində taxıl dəhlizi və Rusiya ilə Ukrayna müharibəsinin gedişatı müzakirə olunacaq.

*“Xalq qəzeti”*

# Moldova 2030-cu ilədək Avropa İttifaqının üzvü ola bilər

**Moldova 2030-cu ilə qədər Dnestryanı bölgə ilə birlikdə Avropa İttifaqına qəbul edilə bilər. Moldova Prezidenti Mayya Sandu bunu Bloomberg agentliyinə müsahibəsində deyib. “Biz həyat səviyyəsini nə qədər tez yüksəltsək, bir o qədər birləşmək şansımız olacaq... Bu, bizim məqsədimizdir”, - deyə o bildirib.**



Mayın 28-də Prezident Mayya Sandunun təşəbbüsü ilə ölkədə Avropa İttifaqına inteqrasiya istəyinin nümayiş olunduğu “Avropa Moldovası” şüarı altında mitinq keçirilib.

Avropa İttifaqına üzv ölkələrin dövlət və hökumət başçılarının 2022-ci il iyunun 23-də Brüsseldə keçirilən sammitində Ukrayna və Moldovaya Aİ-yə üzvlük üçün namizəd statusu verilib. Kişineu üzvlüklə bağlı danışıqlara başlamaq üçün islahatlar aparmalı və Dnestryanı problemin həlli də daxil olmaqla, bir sıra şərtləri yerinə yetirməlidir.

*“Xalq qəzeti”*

# Ukrayna Rusiyanın hücumlarını dəf edir

**Ukrayna Müdafiə Qüvvələri rəqibin 22 hücumunu dəf edib. Bu barədə Ukrayna Silahlı Qüvvələri Baş Qərargahından bildirilib. Xəbəri UNİAN agentliyi yayıb.**



Məlumatda deyilir: “Son 24 saat ərzində Rusiya Federasiyası “Shahed” PUA-larından istifadə etməklə Ukrayna ərazisinə növbəti kütləvi hava zərbələri endirib. Demək olar ki, bütün pilotsuz təyyarələr müdafiəçilərimiz tərəfindən məhv edilib. Bununla belə, dinc əhali arasında ölənlər var. Binalara, digər mülki və inzibati infrastruktura ziyan dəyib”.

Xəbərdə həmçinin deyilir ki, Rusiya tərəfi əsas səylərini Luqansk və Donetsk vilayətlərini tamamilə işğal etmək niyyətindən əl çəkməyib.

Ukrayna Silahlı Qüvvələrinin Hərbi Dəniz Qüvvələrinin komandanı Oleksiy Neijpapa bildirib ki, Ukrayna hərbçiləri Rusiya donanmasının 18 gəmisini məhv edib. O qeyd edib ki, bu rəqəmə həm gəmilər, həm də katerlər daxildir. Onların arasında “Zmeiny” adasını ələ keçirmək üçün əməliyyatlarda istifadə edilən “Rapter” tipli bir neçə desant gəmisi də var.

Bu arada Ukrayna Silahlı Qüvvələrinin cavab tədbiri olaraq əks-hücuma keçəcəyi barədə məlumatlar yayılıb. ABŞ-ın respublikaçı senatoru Lindsey Graham deyib ki, Ukraynanın əks-hücum planı effektli olacaq. “Yaxın günlərdə siz ukraynalıların kifayət qədər təsirli güc nümayişini görəcəksiniz”, – siyasətçi deyib.

Təhlilçilər bildiriblər ki, müttəfiqlər lazımi silahları Ukraynaya ötürdükdən sonra əks-hücum əməliyyatına başlanılacaq və səmərəli olacaq. Onların fikrincə, Rusiyanın cavab vermək imkanları məhduddur. Ukrayna Silahlı Qüvvələrinin Ali Baş Komandanı Valeri Zalujnı da əks-hücum əməliyyatından danışıb. O bildirib: “Bizim geri qayıtmağımızın vaxtıdır”.

Mayın 29-da isə Prezident Volodimir Zelenski Ukrayna qoşunlarının yerdəyişməsi ilə bağlı qərarın artıq qəbul edildiyini bildirib.

Dövlət başçısı ordunun silahla təminatının yaxşılaşdırılması istiqamətində də tədbirlər görüldüyünü deyib. Onun Britaniyanın “BAE Systems” müdafiə şirkətinin nümayəndələri ilə videogörüşü olub. Həmin şirkət “Challenger” tankları və M777 haubitsaları istehsal edir.

“Biz Ukraynada “BAE Systems” ofisinin, daha sonra isə şirkətin məhsulları üçün təmir və istehsal müəssisələrinin açılması üzrə işə başlamaq barədə razılığa gəldik”, – deyə Zelenski əlavə edib.

Ukraynaya hərbi yardımın göstərilməsi NATO ölkələrinin xarici işlər nazirlərinin Osloda keçiriləcək ikigünlük görüşündə də müzakirə ediləcək. “Politico” qəzetinin yazdığına görə, görüşdə hərbi münaqişə səbəbindən alyansa daxil ola bilməyən Ukraynaya Vilnüs sammitində nə vəd edilə biləcəyi məsələsi də diqqətdə olacaq. 2022-ci ilin fevral ayının sonundan indiyədək alyansın heç bir iclası bu mövzu müzakirə olunmadan keçirilməyib.

Qeyd edək ki, ABŞ və Qərbin hərbi yardımlarından əlavə, xeyriyyə fondları da Ukrayna Silahlı Qüvvələrinə silah tədarük edir. Məsələn, “Favbet Foundation” xeyriyyə fondunun yardımı ilə Ukrayna 120 hərbi maşın alıb. Xatırladaq ki, ümumilikdə, Favbet Fondunun yardımı ilə Ukrayna Silahlı Qüvvələri artıq 65-dən çox pilotsuz təyyarə və yüzlərlə yüksək texnologiyalı avadanlıq alıb.

Ukrayna hərbçilərinin yaxın günlərdə əks-hücum əməliyyatına başlayacağı barədə xəbərlər isə Rusiyanın Ukrayna ilə sərhəddə yerləşən vilayətlərində narahatlıq yaradıb. Artıq Rusiyanın Belqorod vilayətinin Şebekino və Qrayvoronsk dairələrindən 300 uşaq təxliyə edilib. Uşaqlar Voronej vilayətinə aparılıb.

Rusiya tərəfinin narahatlığı isə başadüşüləndi. Çünki Ukrayna ilə sərhəddə yerləşən Belqorod vilayəti mütəmadi artilleriya zərbələrinə məruz qalır. Ötən gecə Şebekino şəhəri “Qrad” sistemlərindən yaylım atəşinə tutulub. Nəticədə, bir neçə yaşayış binasına, məktəbə və inzibati binaya ziyan dəyib.

*P.ƏFƏNDİYEV, “Xalq qəzeti”*

# Kosovoda etnik münaqişə davam edir

**NATO-nun rəhbərlik etdiyi sülhməramlı qüvvələr (KFOR) Kosovonun şimalında bələdiyyə binalarının təhlükəsizliyini gücləndirib. Əsgərlər bazar ertəsi etnik serblərlə toqquşmalarda 30 sülhməramlının yaralandığı bloku mühasirəyə alıblar.**



İğtişaşların səbəbi bələdiyyə seçkiləridir. Kosovo serbləri yerli bələdiyyə seçkilərinin nəticələrindən narazıdır. Küçə toqquşmaları Balkanların bu bölgəsində qeyri-sabitlik qorxusunu artırıb. Etnik gərginliyin daha da yülsəlməsinin qarşısını almaq üçün NATO ölkəyə əlavə 700 hərbçi göndərməyi qərara alıb.

“NATO-nun sülhməramlı qüvvələri Kosovoda vətəndaşlar üçün təhlükəsiz və dinc mühitin qorunması naminə bütün lazımi tədbirləri görəcək. Biz BMT mandatına uyğun olaraq qərəzsiz hərəkət etməyə davam edəcəyik”, - deyə NATO-nun baş katibi Yens Stoltenberq bildirib.

Bu arada diplomatik səviyyədə intensiv səylər göstərilir. Serbiya Prezidenti Aleksandar Vuçiç beş vasitəçi ölkənn (Fransa, Almaniya, İtaliya, Böyük Britaniya və ABŞ) səfirlərini Kosovodakı serblərin təhlükəsizliyinə zəmanət verməyə çağırıb.

Eyni zamanda, Kosovonun baş naziri Albin Kurti videomüraciətində təkid edib ki, xalq tərəfindən seçilən şəhər merləri bələdiyyə hökumətinin yeganə qanuni nümayəndələridir.

*Pünhan Şövkətoğlu,*
*“Xalq qəzeti”*

# Qırğızıstan: dövlət qulluqçusu doğma dilini bilməlidir

**Qırğızıstan parlamenti qırğız dilini bilməyən vətəndaşların dövlət qulluğunda çalışmasını məhdudlaşdıran qanun layihəsini üçüncü oxunuşda qəbul edib. Bu barədə xəbərdə qeyd edilir ki, dövlət dili haqda qanun layihəsi qırğız dilinin tətbiqinin hüquqi əsasını, dil siyasətini, qırğız dilinin inkişafı üçün şərait yaradılması üzrə dövlət və yerli idarəetmə orqanlarının vəzifələrini müəyyən edir.**



Qanun layihəsinə əsasən, dövlət qulluqçuları və bələdiyyə işçiləri, deputatlar, hərbçilər, hakimlər, təhsil müəssisələrinin rəhbərləri və əməkdaşları, səhiyyə işçiləri, pedaqoqlar və alimlər dövlət dilini orta səviyyədə bilməli və vəzifələrini icra edərkən tətbiq etməlidir. Bundan başqa, televiziya və radioda verilişlərin yarıdan çoxu qırğız dilində hazırlanmalıdır.

Sonda bildirək ki, Qırğızıstan Konstitusiyasına əsasən, ölkədə qırğız dili dövlət, rus dili isə rəsmi dil statusuna malikdir.

*“Xalq qəzeti”*

# Böyük qayıdışın növbəti hədəfi Qərbi Azərbaycandır

**2020-ci ilin payızında Qarabağın otuz illik işğalına son qoymuş Vətən müharibəsində qazanılan Zəfər son iki yüz illik tariximizin ən böyük hadisəsidir. Bu müddətdə xalqımız daim torpaq itkilərinə məruz qalıb. Tarixin bu uğursuz və bəlalı gedişinə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin uzaqgörənliyi və mahir sərkərdəlik qabiliyyəti sayəsində Vətən müharibəsində son qoyuldu.**




Azərbaycanın son iki əsrdə ilk dəfə olaraq itirilmiş torpaqlarını geri qaytarması taleyimizin yeni məcraya yön aldığının təsdiqidir. Qələbəmizdən doğan tarixi reallıqların nəticəsidir ki, soydaşlarımızın son bir əsrdə mərhələ-mərhələ qovulduqları Qərbi Azərbaycana da böyük qayıdış gündəmə gəlib. Bu hədəfi Prezident İlham Əliyev dekabrın 24-də Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşündəki nitqində qətiyyətlə bəyan etdi: "Əminəm ki, gün gələcək və Qərbi Azərbaycandan olan soydaşlarımız, onların yaxınları, uşaqları, nəvələri tarixi diyarımız olan Qərbi Azərbaycana qayıdacaqlar. Mən əminəm ki, bu gün gələcək və əminəm ki, Qərbi azərbaycanlılar böyük coşqu və həvəslə öz doğma torpaqlarına qayıdıb orada yaşayacaqlar. Bunu deməyə əsas verən bir çox amillər var. Onlardan, yəqin ki, ən önəmlisi xalqımızın tarixi yaddaşıdır".

Göründüyü kimi, dövlətimizin başçısı soydaşlarımızın Qərbi Azərbaycana qayıdışı ilə bağlı bu möhtəşəm hədəfi bəyan edərkən, azərbaycanlıların xarakterində olan çox mühüm bir amilə – xalqımızın tarixi yaddaşına istinad edib. Bu yaddaşın qarşısıalınmaz gücünü və sirli mahiyyətini Prezident ilham Əliyev belə mənalandırdı: "Bu gün Zəngilan rayonunun Ağalı kəndində yaşayan insanların böyük əksəriyyəti, eyni zamanda, uşaqlar, gənclər onlar üçün doğma olan o torpaqları heç vaxt görməmişlər. Torpaq həsrəti və Vətən sevgisi onları oraya getməyə vadar etdi. Onların arasında hətta Bakıdan, Sumqayıtdan gedənlər də az deyil. Yəni, bu, xalqımızın xüsusiyyətidir, torpaq həmişə çəkir. Əminəm ki, Qərbi azərbaycanlılar da bu fikirlə, bu arzu ilə yaşayırlar".

Həmin görüşdə ölkə rəhbəri tarixi faktlara nəzər salaraq Qərbi Azərbaycanın əzəli və əbədi tarixi torpaqlarımız olduğunu dünya ictimaiyyətinə bir daha bəyan edərək qeyd etdi ki, Qərbi Azərbaycan bizim tarixi torpağımızdır, bunu bir çox tarixi sənədlər, tarixi xəritələr, tariximiz təsdiqləyir: "Qərbi Azərbaycan tarixi Azərbaycan diyarıdır, şəhərlərin, kəndlərin adları Azərbaycan mənşəlidir və biz yaxşı bilirik ki, indiki Ermənistan ərazisində tarix boyu Azərbaycan xalqı yaşayıb. İndi əsas vəzifə ondan ibarətdir ki, dünya ictimaiyyəti də bunu bilsin".

Dövlət başçısı əvvəllər Qarabağın azərbaycanlı icmasına məxsus binanı Qərbi azərbaycanlılara hədiyyə etməklə, onların tezliklə tarixi torpaqlarına qaytarılacaqlarına rəmzi işarə vurdu. Prezident Qərbi Azərbaycana qayıdış missiyasının gerçəkləşməsi üçün qeyd etdi ki, XX əsr boyunca xalqımızın çəkdiyi əzablar haqqında dünya ictimaiyyətinə daha geniş məlumat verilməlidir: "Biz hər zaman həqiqəti deyirik. Azad edilmiş torpaqlara gələn 10 minlərlə xarici vətəndaş bu gün artıq öz gözləri ilə görür ki, xalqımız hansı vəhşiliklərə məruz qalıb. Əminəm ki, biz eynisini Qərbi Azərbaycanda da görəcəyik".

İcma üzvləri ilə görüşdə ölkə rəhbəri Qərbi Azərbaycana Qayıdış Konsepsiyasının hazırlanmasının zəruriliyini vurğulayaraq dedi: "Mən bununla paralel olaraq hesab edirəm ki, biz birgə səylərlə Qərbi Azərbaycana Qayıdış Konsepsiyasını da işləməliyik. Qarabağ münaqişəsi həll olunandan sonra indi bizim gündəliyimizdə duran məsələ budur. Qayıdış Konsepsiyası hazırlanmalıdır. Biz bütün beynəlxalq konvensiyalarda bizə məqbul olan müddəaları götürüb bunun əsasında öz hüququmuzu tələb etməliyik".

Qısa müddətdə belə bir mükəmməl konsepsiya hazırlandı və icma rəhbəriliyi bu sənədə əsaslanaraq, beynəlxalq hüququn yaratdığı imkanlara istinad etməklə varlığını dünyaya təqdim edir, mübarizəsini yeni mərhələyə qaldırmaq üçün beynəlxalq təşkilatlarla münasibətləri nizama salır. Eyni zamanda, icmanın çevrəsi və hədəfləri ilə bağlı konkret dəqiqləşdirmələr aparılır, işçi sənədlər hazırlanır.

Prezidentin dəfələrlə nüfuzlu tribunalardan bəyan etdiyi kimi, Qərbi Azərbaycandakı tarixi yaşayış yerlərinin bir çoxu, mütləq əksəriyyəti indi bomboşdur. Qərbi Azərbaycandan olan hər bir insan öz ulu babalarının yaşadıqları yerlər barədə hər şeyi yaxşı bilir. İndi müxtəlif yollarla həmin yerlər barədə yeni informasiyalar da alınır. Azərbaycanlıların yaşadıqları yerlərin əksəriyyətində indi heç kim yaşamır: "Ermənistanda bütövlükdə depopulyasiya dövrü hökm sürür. İnsanlar oradan gedirlər. Həm təbii artım yoxdur, eyni zamanda, dözülməz siyasi vəziyyət, repressiyalar, faktiki olaraq diktatura və iqtisadi çətinliklər onları buna vadar edir. Bizim kəndlərimiz dağıdılır. Biz buna dözə bilmərik".

Ali Baş Komandanın qeyd etdiyi kimi, məcburi köçkünlərimizin öz torpaqlarına qayıtmaları ilə bağlı ümummilli arzularımız necə reallığa çevrildisə, çox çəkmədən İrəvana, Göyçəyə, Zəngəzura qayıdış arzularımız da gerçək olacaq. Buna isə xalqın inamı sonsuzdur. Çünki, bunu təmin edəcək qüdrətli liderimiz, müzəffər sərkərdəmiz və güclü ordumuz var. Bəli, bu, zamanın tələbidir və Qərbi Azərbaycana qayıdış prosesi mütləq gerçəkləşdiriləcək. Tarixi ərazilərimizə qayıdışın gerçəkləşəcəyinə əminliyi isə Qarabağ zəfəferimiz yaratdı. Qarabağ və Şərqi Zəngəzura doğma sakinlərin qayıdışı Qərbi Azərbaycan hədəflərimizin gerçəkləşməsi ilə davam edəcək.

Son günlərdə Prezident İlham Əliyevin Kəlbəcər və Laçın rayonlarına səfərləri, keçirdiyi görüşlər, elədiyi açılışlar və start verdiyi irimiqyaslı quruculuq işləri ölkəmizin iqtisadi qüdrətinin nəbzinin Şərqi Zəngəzurda və Qarabağda döyündüyünü dünyaya sərgilədi. Xalqımız aydın görür ki, işğaldan azad edilmiş torpaqlarımızda infrastruktur tamamilə yenilənir, müasir yollar çəkilir, beynəlxalq hava limanları tikilir. Eyni zamanda, barbar ermənilərin illərlə divan tutduğu tarixi, mədəni, dini irsimiz bərpa olunur. Yeni şəhərlərin təməli qoyulur, "ağıllı kənd"lər salınır. Soydaşlarımız doğma yurd-yuvalarına qayıdırlar. Əlbəttə, bu qayıdışın növbəti hədəfi və ünvanı Qərbi Azərbaycan olacaq.

***Arzu ABDULLAYEV,***
***tarix üzrə fəlsəfə doktoru***

# Tarixi yaddaş güclü mənəvi silahdır

**AMEA Naxçıvan bölməsində keçirilən "Qərbi Azərbaycan mədəni-ədəbi mühiti: öyrənilməsi və qarşıda duran vəzifələr" mövzusunda elmi konfransda bölmənin sədri, akademik İsmayıl Hacıyev çıxış edərək ötən il dekabrın 24-də Prezident İlham Əliyevin Qərbi Azərbaycan İcmasının inzibati binasında yaradılan şəraitlə tanış olduğunu və Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşdüyünü xatırladıb.**

Alim qeyd edib ki, həmin görüşdə ölkə başçısının da dediyi kimi, Qərbi Azərbaycan bizim tarixi torpağımızdır, bunu bir çox tarixi sənədlər tarixi xəritələr tariximiz təsdiqləyir. Ötən əsrin əvvəllərindən başlayaraq, soydaşlarımız bu ərazilərdən deportasiya ediliblər. Dövlətimiz tərəfindən Qərbi azərbaycanlıların hüquqlarının bərpası və onların öz doğma torpaqlarına qayıtması məqsədilə mühüm işlər görülür.



Bildirilib ki, ötən il Qərbi Azərbaycan İcması yaradılıb, bu il isə Qərbi Azərbaycana Qayıdış Konsepsiyası təsdiqlənib. Konsepsiyanın məqsədi indiki Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların öz yurdlarına sülh yolu ilə, təhlükəsiz və ləyaqətli şəkildə qayıtmasını təmin etməkdir. AMEA Naxçıvan bölməsini sədri qeyd edib ki, bütün bunlarla bağlı muxtar respublikada Qərbi Azərbaycanla bağlı bir sıra tədbirlərin keçirilməsi nəzərdə tutulub.



Bölmənin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, AMEA-nın müxbir üzvi Əbülfəz Quliyev "İrəvan mədəni-ədəbi mühiti" mövzusunda çıxış edərək bildirib ki, ermənilərin azərbaycanlılara qarşı dövlət səviyyəsində apardığı soyqırımı və deportasiya siyasəti İrəvanın ictimai-siyasi, ədəbi-mədəni mühitinə də böyük zərbə vurub. Tarix boyu İrəvanda, o cümlədən Qərbi Azərbaycanda azərbaycanlılara məxsus olan maddi - mənəvi mədəniyyət abidələri, o cümlədən, İrəvan qalası, Sərdar sarayı dağıdılıb.

Qeyd edilib ki, İrəvan ziyalılarının XX əsrin 20–50-ci illərində topladıqları folklor nümunələrinin böyük əksəriyyəti itib-batıb, dövrümüzə gəlib çatmayıb. Sovet hakimiyyəti illərində İrəvanda Azərbaycan dilində bədii əsərlərin nəşrinə maneçilik törədilib. Alim bildirib ki, bütün dünyaya bu torpaqların bizim tarixi torpaqlarımız olduğunu sübut etmək üçün Qərbi Azərbaycan mədəniyyətinin tarixi haqqında tədqiqat işləri aparmaq olduqca vacibdir. Bütün bunlar mənəvi silah olaraq Qərbi Azərbaycana qayıdışda təsirli mübarizə vasitəsidir.

Sonra institut əməkdaşlarının çıxışları dinlənilib, geniş müzakirə aparılıb. Konfransda ermənilər tərəfindən tarixin saxtalaşdırılması, qədim türk yaşayış məntəqlərinin adlarının dəyişdirilməsi, Dərələyəz mədəni-ədəbi mühiti, Qərbi Azərbaycan şivələrinin öyrənilməsi kimi önəmli məsələlərini geniş tədqiqata cəlb edilməsi, nəticələrin xalımıza çatdırılmasının və dünyaya bəyan edilməsinin zəruriliyi vurğulanıb.

***"Xalq qəzeti"***

# Baharlının unudulmaz axar-baxarı...



**Millətçi və təcavüzkar Ermənistanın işğalçılıq siyasəti ucbatından öz doğma yurd-yuvalarından məcburi qaçqın düşmüş insanların – Qərbi Azərbaycanlıların doğma yurd-yuva həsrəti heç vaxt sönməyib. Hətta illər ötdükcə bu həsrət onları daha da ağrıdıb, incidib. Baxmayaraq ki, dövlət qayğısı və himayəsi hər zaman yüksək səviyyədə olmuşdur, lakin bu insanların qəlbini yandırıb-yaxan dərd doğma vətən, ocaq, dədə-baba yurdlarına qayıtmaqdır.**

Doğma yurd-yuvalarından qaçqın düşmüş o insanların sığındıqları yerlər artıq onların isti yuvasına çevrilsə də, qəlblərindəki vətən nisgili, xiffəti başdan bəri alovludur, sönməzdir. Ən böyük arzuları doğma yurdlarına dönmək, həyatlarının sonrakı hissəsini məhz o müqəddəs yerlərdə davam etdirməkdir. Azərbaycanımızın bir çox guşəsində məskunlaşmış bu insanlar vətən həsrətli, yurd nisgillidirlər. Onlardan biri müsahibimiz – Ordubad şəhərində məskunlaşmış Valeh Mirzəyev də qəlbində yurd sevgisi, vətən göynərtisi ilə yaşayır. Fikri-xəyalı daim doğma Qərbi Azərbaycanın Qafan rayonunun Baharlı kəndində dolaşır.



Valeh Mirzə oğlu 1955-ci ildə Qafan rayonu Baharlı kəndində dünyaya gəlib. Orta təhsilini öz doğma kəndində səkkizillik məktəbdə alıb. Orta təhsilinin növbəti iki ilini isə qonşu Gığı məktəbində davam etdirib. 1972-ci ildə orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Universitetinin geoloji-coğrafiya fakültəsinə daxil olub. Burada mühəndis-geoloq ixtisasına yiyələnir. Və doğma el-obasına dönərək, Zəngilanda Vejnəli qızıl yatağında əmək fəaliyyətinə başlayıb. Bir müddət sonra isə doğma kəndi Baharlıya qayıdıb.

Lakin burada vəziyyətin gərginləşdiyini görür. Həmin vaxt azərbaycanlılar məskunlaşan kəndlərin bəzilərində ermənilər su anbarları tikilməsi planı ilə həmin kəndlərdən əhalinin köçürülməsi prosesinə başlamışdılar. Mirzəyevlər ailəsi 1982-ci ildə Ordubad rayonuna köçməyə məcbur olmuşdu..

**İllər sonra Valeh müəllim sıxışdırılaraq çıxarıldıqları doğma yerləri belə xatırlayır:**

Qərbi Zəngəzurda, eləcə də bizim Baharlı kəndinddə tarixən erməni yaşamayıb, o ərazilər başdan-başa Azərbaycan kəndləri idi. Ermənilər bu yerlərdə sonradan məskunlaşıblar. Lakin biz ermənilərlə bir yerdə yaşamamış, dərin ünsiyyətdə olmamışdıq. Yalnız mövsüm və məişət mərasimlərimizi keçirəndə ermənilərlə üz-üzə gələrdik. Onlar mərasimlərimizə çox həssaslıqla yanaşırdılar. Qonşuluqdakı erməni kəndlərindən axışıb gələrdilər, məhz bu mərasimlərə tamaşa etmək, hətta onlarda iştirak etmək üçün. Bizdə Xıdır Nəbi mərasimi çox geniş icra olunardı. Əsasən, bu mərasimi fevral ayının sonlarında qeyd edərdik. Qapılara düşüb torba, papaq atan uşaqların sırasında erməni uşaqları da olardı.

Sonrakı mərhələdə də Novruz mərasimini qeyd edərdik. Ən böyük coşqu isə İlaxır çərşənbədə olardı. İlaxır çərşənbələrin yalnız sonuncusunu keçirərdik, adı da eyni idi: "İlaxır çərşənbə". Ermənilər bu mərasimimizə də çox diqqət edər və onlarda iştirak edərdilər. Bizim kənddən – Baharlıdan bir balaca aralıda uca bir yer var idi, ona Çiləxana piri deyərdilər. Həmin Çiləxana pirində ağ qəndillər var idi. Qarşısında böyük göllər yerləşirdi. Ora qədim yaşayış məskəni təsiri bağışlayırdı. Novruzun bəzi rituallarını həmin gölün ətrafında da qeyd edərdik.

**Valeh müəllim xatirələrə dalır...Bir də o günlərə və o yerlərə qayıdacağına olan qəlbində ümidin heç zaman sönmədiyini təkcə sözlə deyil, baxışlarındakı həsrətlə də ifadə edir:**

– Baharlıdan əlavə, 14 kənd var idi ki, hamısında sırf azərbaycanlılar yaşayırdılar. Ermənilər əsasən aprel ayında görünərdilər. Özlərinin qondarma soyqırım yaratdığı xülyalarının məhz aprel ayında baş verməsi haqda yalan mülahizələrini dramatikləşdirmək və qisas almaq üçün azərbaycanlılara hücum edirdilər. Bu zaman əməllicə davalar baş verərdi, yaralananlar çox olardı. Ümumiyyətlə, bu ərəfələrdə bizim kəndlərdə xəbər yayılardı ki, ermənilər silahlanırlar, nə zamansa hücum edəcəklər. Lakin bir azdan söz-söhbət yatardı. İnsanlarımız öz həyatlarına davam edərdilər.

Lakin bu nisbi sakitlik uzun sürməzdi. Ermənilərin məkrli xislətləri mütləq özünü göstərərdi. Növbəti mərasimlərimiz zamanı onların bəziləri bizim gənclərə atmaca atar, söyüş söyərdilər. Çalışardırlar, bizim gənclərlə təklikdə qarşılaşsınlar, onları qıcıqlandırıb davaya cəlb etsinlər. Belə davalar, çox zaman ölümlə və ya ağır yaralanmalarla nəticələnərdi. Odur ki, gənclər bu ərəfələrdə toplu şəkildə küçə-bacalara çıxardılar. Bu baxımdan xalq arasında belə bir deyim yaranmışdı: "İki erməni sənə quldu, üç olsa, vay halına, təkliyəcəklər, səni incidəcəklər".

Valeh müəllim ermənilərlə münasibətlərin daha da gərginləşdiyini, konfliktlərin sürətləndiyini və çoxaldığını, belə halların, əsasən Livan və Suriyadan gələn ermənilərin axınlarından sonra baş verdiyini deyir:

Münaqişələrin daha çox baş verdiyi məkanlardan biri Qarabaş dərəsi deyilən yer idi. Qarabaş kəndi də var idi. Buradakı əhali köklərinin qədim olduğunu, qədim türk tayfası olan qarabaşlardan, qarapapaqlardan törədiklərini çox yaxşı bilirdilər. Və buranın əhalisi öz mübarizliyi və döyüşkənliyi ilə diqqət çəkirdi. Kəndlərin əhalisinin ən çox önəm və diqqət etdiyi mədəni dəyərlərdən biri də aşıq yaradıcılığı idi. Ümumiyyətlə, biz Azərbaycan aşıq mühitləri içərisində Qərbi Azərbaycan aşıq mühitinin ən özəl yeri olduğunu çox yaxşı bilirik.

Lakin bu kəndlərdə isə saz ifaçıları ilə bərabər zurnaçalanlar, nağara ifaçıları, dəm tutanlar da çox məhşur idilər. Belə ki, qonşu kəndlərdən də onları sifarişlə toy məclislərinə, yığıncaqlara dəvət edərdilər. Onlardan Qəzənfər (zurnaçalan), Xanlar-Cəlil qardaşları (nağaraçalanlar), İslam (dəmtutan) dəstəsi çox məşhur idilər. Hətta Gürcüstandan da buralara aşıqlardan ibarət qruppalar gələrdilər. Kluba yığışardıq. Dastan başlayardılar, deyişirdilər, bağlayardılar, gedərdilər. Onlar gedəndən sonra isə aylarla o ifaları, o cümlədən qonşu eldən gələn Aşıq Hüseyn Cavanın gözəl ifalarını unutmaq mümkün deyildi. "Şah İsmayıl" dastanını, Aşıq Ələsgərin səfərlərindən ibarət parçaları, "Abbas və Gülgəz", "Əsli-Kərəm" dastanlarını uşaqdan-böyüyə hər kəs əzbər bilərdi. Günlərimiz olduqca xoş keçərdi...

**Valeh müəllim Qafanın əsrarəngiz təbiətindən sinə dolusu danışır:**

– Yazda dağlara gedərdik, gül-çiçəklərin bəzədiyi dağlara sanki qırmızı, rəngarəng xalılar sərilərdi. Hər tərəf də dərman əhəmiyyətli bitkilərlə dolu idi: çayotu, kəklikotu, qantəpər, baldırğan çiçəyi bizim içdiyimiz çayların qaynağı idi. Qara çayı elə də sevməzdik...Yayda yaylaqlara üz tutardıq. O yaylaqlarda buz bulaqlar bizi səsləyirdi. İşgəsu bulağının suyu diş dondurardı. Günlərimiz bu məkanlarda keçərdi – Vana, Novruzyurdu, Oğlannıca piri... Tarixi yer kimi ziyarətgahımıza çevrilən "Şəhidlər qəbiristanlığı"nda keçmiş müharibələrdə həlak olmuş türk igidləri yatırdılar

Hər bir fikrinin əvvəlində doğma el-obasının həsrətini dilləndirən Valeh müəllim o böyük şüarı da fərəhlə ifadə edirdi: "Biz qayıdacağıq!".

***Aytən CƏFƏROVA,***
***AMEA Naxçıvan Bölməsinin əməkdaşı, filologiya üzrə fəlsəfə doktoru, dosent***

1 İyun Uşaqların Beynəlxalq Müdafiəsi Günüdür



# Uşaqların dünyası, dünyamızın uşaqları

**Bu gün bayramdır. Dünyanın əksər ölkələrində olduğu kimi, Azərbaycanda da qeyd edilir. Uşaqları sevindirmək, onların üzünü güldürmək, istək və arzularını yerinə yetirmək biz böyüklərin mənəvi borcudur.**



Amma, təəssüf ki, bəzən qayğısız, xoşbəxt gülüşləriylə dünyanın dodağında təbəssüm olmağa gələn uşaqlar amansız müharibələrin qurbanı olurlar. Dünyanın bir çox yerlərində alovlanan müharibə ocaqları minlərlə körpənin ölümünə, şikəst və sahibsiz qalmasına səbəb olur.

Erməni qəsbkarlarının Azərbaycan torpaqlarında ərazi iddiası ilə törətdikləri qətliamlar vaxtilə nə qədər körpəmizi açılmamış qönçə kimi soldurdu. Yüzlərlə uşaq valideynsiz qaldı, talelərinə istər fiziki, istərsə də mənəvi şikəstlik damğası vuruldu. Dövlətimizin qayğısı yaralarına məlhəm olsa da, bu ağrını daşımaqdan tam qurtula bilmədilər. Bəzisi ana nəvazişinin, bəzisi ata güvəncinin nə olduğunu unutdu. Əvəzində çadır evlərin bumbuz ögeyliyini yaşadılar. Və beləcə ürəklərində nisgil, gözlərində düşmənə nifrətlə böyüdülər.

Hələ gözünü dünyaya açar-açmaz düşmən güllləsinə tuş gələnlər... Alxanlıdan olan Zəhranı kimsə unudubmu? Əsla, yox! Azyaşlı Zəhra Quliyevanın ermənilər tərəfindən qətlə yetirilməsindən 6 il ötür. 2017-ci il iyulun 4-də minaatanlardan və dəzgahlı qumbaraatanlardan açılan atəş Zəhranın körpə həyatına son qoymuşdu. Həmin vaxt ermənilərin Alxanlıda törətdiyi qanlı cinayət dünya ictimaiyyətinin kəskin qınağına səbəb olmuşdu. Ermənistanın bu addımı kəskin pislənilmişdi...

Amma bütün bunlar ikiyaşlı Zəhranı geri qaytarmadı. Gül kimi körpə açılmadan soldu. Nə böyüdü, nə uşaqlara qoşulub bağçaya getdi, nə də əli şagird çantasına yetdi.

Bu gün bayram günü olmasına baxmayaraq, belə ağrılar unudulmur. Hiddətlə deyirik ki, vaxtsız, özü də düşmən əli ilə olan ölümlərə son qoyulmalıdır. Balalar xoşbəxt yaşamalıdırlar və yaşayacaqlar. Bayramları istədikləri məkanda, istədikləri kimi qeyd edə biləcəklər. Çünki Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev torpaqlarımızı işğaldan azad etməklə yanaşı, ölkədə uşaqların sağlam və xoşbəxt böyümələri üçün gözəl şərait də yaradıb.

Heç vaxt qeyd etmədiyin bayramın mübarək, Zəhra bala...

**"Xalq qəzeti"**

Təbii fəlakət

# Leysan, qasırğa, sel fəsadlar törədib, ziyan vurub

**Dünən respublikanın müxtəlif bölgələrində güclü küləklə müşayiət olunan leysan yağışları dağıntılara səbəb olub, müvəqqəti çətinliklər törədib. Bölgələrdən aldığımız xəbərlərdə dağıntı və ziyanın aradan qaldırılması ilə bağlı opertiv tədbirlər görüldüyü bildirilir.**



Mayın 31-də günün ikinci yarısında Göyçay rayonunda başlayan güclü küləklə müşayiət edilən leysan xarakterli yağış axşam saatlarında dayanıb. Güclü yağışdan sonra baş verən fəsadlar da aradan qaldırılır. Göyçay şəhərinin içməli su və qazın verilişi, naqillər bərpa edilib. Aşan elektrik dirəkləri dikəldilir, elektrik enerjisinin verilişi təmin olunur.

Şəhərin müxtəlif küçələrində aşan iri gövdəli ağaclar kəsilərək ərazidən götürülüb. Qasırğa nəticəsində aşaraq Bakı–Şamaxı–Yevlax avtomobil yolunu kəsən çinar ağacı da yoldan kənarlaşdırılıb. Bununla da avtomobillərin hərəkəti hər iki istiqamətdə bərpa edilib.

Göyçayda güclü külək və qasırğa səbəbindən TƏBİB-in tabeliyindəki Göyçay Rayon Mərkəzi Xəstəxanası gücləndirilmiş iş rejiminə keçib. Baş verən təbiət hadisələri ilə bağlı 2 nəfər Göyçay Rayon Mərkəzi Xəstəxanasına yerləşdirilib. Onların hər birinə zəruri tibbi xidmətlər göstərilib.

*

**Şəmkir rayonunun Zəyəm qəsəbəsində isə bəzi ərazilər subasmaya məruz qalıb.**

Fövqəladə Hallar Nazirliyinin (FHN) "112" qaynar telefon xəttinə intensiv yağışlarla əlaqədar Şəmkir rayonunun Zəyəm qəsəbəsində bəzi ərazilərinin subasmaya məruz qalması barədə məlumat daxil olub. FHN-in Gəncə Regional Mərkəzi və Dövlət Yanğından Mühafizə Xidmətinin qüvvələri yağıntıların törətdiyi fəsadların aradan qaldırılması işlərinə cəlb olunub.

Şəmkir rayonunun Zəyəm qəsəbəsində fərdi yaşayış evləri, həyətyanı sahələr və digər ərazilərdən suyun çəkilərək kənarlaşdırılması işləri və digər zəruri təhlükəsizlik tədbirləri görülür.

*

**Dünən axşam saatlarında başlayan külək və yağış İsmayıllı rayonunda da fəsadlar törədib.**

Sel suları nəticəsində, dağlardan qopan qaya parçaları və lil qatı İsmayıllı-Lahıc avtomobil yolunu tamam bağlayıb. Bundan əlavə, rayonun elektrik və qaz təchizatına zərər dəyib. Hazırda rayonun bir çox ərazilərində elektrik enerjisinin verilişi dayanıb. Fərdi evlərə, məktəblərə, taxil və bostan sahələrinə zərər dəyib.

Hazırda rayon fövqəladə hallar komissiyası tərəfindən ərazidə fəsadların aradan qaldırılması üçün işlər görülür.

Kəndlərdə taxıl, bostan sahələrinə, meyvə bağlarına, fərdi evlərə, rayonda yaşayış binalarına ciddi zərər dəyib. Hazırda rayona dəyən zərərlə bağlı araşdırma aparılır.

*

**Mayın 31-də güclü külək Ağcabədi rayonunun yaşayış məntəqələrində bir sıra fəsadlar törədib.**

Külək nəticəsində rayon ərazisində ağaclar aşıb, fərdi evlərə və yardımçı binalara, kənd təsərrüfatına ziyan dəyib, yaşayış məntəqələrinin bir çoxunda elektrik enerjisinin verilməsində fasilə



yaranıb. Rayonun Hindarx qəsəbə sakini, 1963-cü il təvəllüdlü Mamedov Allahverən Qəzənfər oğlu küləyin aşırdığı tut ağacının altında qalaraq dünyasını dəyişib.

Hazırda küləyin törətdiyi fəsadların aradan qaldırılması istiqamətində iş aparılır. Artıq kəndlərin bəzilərində elektrik enerjisinin verilməsi bərpa olunub.

**"Xalq qəzeti"**

Naxçıvan xəbərləri

# Beynəlxalq Rəsm Festivalı



**Mayın son günlərində Naxçıvan şəhərində ümummilli lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş "Naxçıvan – bəşəriyyətin beşiyi" VI Beynəlxalq Rəsm Festivalı keçirilib.**

Sonuncu gün Muxtar Respublika Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda festivalda çəkilmiş əsərlərdən ibarət sərgi açılıb. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli sərgidə iştirak edib. Fuad Nəcəfli tədbirin təşkilatçılarına və iştirakçılarına minnətdarlığını bildirərək deyib ki, Azərbaycan Respublikasının ən qədim və zəngin guşələrindən olan Naxçıvanda iki ildən bir keçirilən bu tədbir həm dünya incəsənətinə inteqrasiyamızı təmin edir, həm də yerli rəssamların işlərini görmək, onlarla tanış olmaq üçün böyük bir fürsətdir. Bugünkü tədbir də muxtar respublika əhalisinə töhfədir, ölkəmizin, muxtar respublika cəmiyyətinin bütün təbəqələrində olduqca maraqla qarşılanır.

Sonra tədbirdə festival iştirakçılarından Mehmet Sağ, Dase Ştrausa, İnna Kostinaya hədiyyələr verilib, 20 xarici rəssama Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin fəxri üzvlük, muxtar respublikadan olan 2 rəssama isə Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin üzvlük vəsiqələri təqdim olunub.

Sərgiyə baxış zamanı məlumat verilib ki, festivalda Türkiyə, Özbəkistan, Gürcüstan, Qazaxıstan, Rusiya, Finlandiya, Latviya və Polşadan olmaqla 20 rəssam, ölkəmizdən isə 32 rəssam iştirak edib. Sərgi salonunda rəssamların festivalda çəkdikləri dekorativ-tətbiqi sənət, rəngkarlıq, qrafika növlərinə aid mənzərə, natürmort, portret janrlarında müxtəlif mövzularda 56 rəsm əsəri nümayiş olunur.

Sonda festival iştirakçıları ilə xatirə şəkli çəkdirilib.

# Sağlam balalar – ümidli gələcək

**1 İyun Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə hemofiliyalı, talassemiyalı və leykoz xəstəliyindən əziyyət çəkən uşaqlar üçün qanvermə aksiyası keçirilib.**



Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsindən verilən məlumata görə, aksiyada donorların və tibb işçilərinin təhlükəsizliyini təmin etmək üçün bütün zəruri tədbirlər görülüb, könüllülər tibbi müayinədən keçirilib, infeksion xəstəliklərə qarşı yoxlama aparılıb. Aksiyada iştirak edən könüllülərdən 6 litr qan toplanılaraq Naxçıvan Muxtar Respublikası Xəstəxanasının qan bankına təhvil verilib. Xeyirxahlıq aksiyası muxtar respublikada yaşayan irsi qan xəstəliyi olan hemofiliyalı, talassemiyalı və leykoz xəstəliyindən əziyyət çəkən uşaqlara dəstək məqsədi daşıyır.

Qeyd edək ki, adıçəkilən humanist aksiya artıq11 ildir ki, təşkilatçılar tərəfindən mütəmadi olaraq 1 iyun Uşaqların Beynəlxalq Müdafiəsi Günü ilə əlaqədar keçirilir.

*

**1 İyun Uşaqları Beynəlxalq Müdafiə Günü münasibətilə Ordubad Rayon İcra Hakimiyyəti və Naxçıvan Muxtar Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə "Uşaqlar bizim gələcəyimizdir" adlı tədbir keçirilib.**

Tədbirdə uşaq hüquqlarını qoruyan müvafiq təşkilatların əməkdaşları, 2022–2023-cü tədris ilində Ordubad rayonu üzrə fərqlənən şagird və müəllimləri iştirak edib. Ordubad Rayon Mədəniyyət sarayında keçirilən tədbirdə rayon İcra Hakimiyyəti başçısının müavini Rəşadət Orucov və Naxçıvan Muxtar Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Aytən Məmmədova çıxış edərək "1 iyun - Uşaqları Beynəlxalq Müdafiə Günü"nün yaranması tarixindən, tədbirin əhəmiyyətindən bəhs edib, muxtar respublikada uğurla həyata keçirilən dövlət uşaq siyasətindən, uşaqlara göstərilən hərtərəfli diqqət və qayğıdan ətraflı danışıblar.

Tədbirdə Ordubad rayonu üzrə 2022–2023-cü tədris ilində müxtəlif sahələrdə nailiyyət qazanmış uşaqlara, eyni zamanda şəhid ailələrinin uşaqlarına təşkilatçılar tərəfindən hədiyyə və fəxri fərman təqdim edilib.

Sonra tədbir bədii hissə ilə davam edib, istedadlı uşaqların rəsm və əl işlərindən ibarət sərgiyə baxış olub.

**Səbuhi HƏSƏNOV**

# COVID-19: 10 yoluxma

**Son sutkada Azərbaycanda yeni növ koronavirus (COVID-19) infeksiyasına 10 yoluxma faktı qeydə alınıb, 30 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında operativ qərargahdan verilən məlumata görə, indiyədək ölkədə ümumilikdə 831 min 834 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 821 min 500 nəfər müalicə olunaraq sağalıb, 10 min 274 nəfər vəfat edib. Aktiv xəstə sayı 60 nəfərdir.

Son sutkada yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 1923, bu günə qədər isə ümumilikdə 7 milyon 622 min 334 test icra olunub.

**"Xalq qəzeti"**

*Zaman sənət güzgüsündə*

# Faiq Sücəddinovun “Zəfər”i

**Azərbaycanın görkəmli bəstəkarı, “Şöhrət” ordenli Xalq artisti, Prezidentin fərdi təqaüdçüsü Faiq Sücəddinov yaşının ağsaqqal çağında belə məhsuldar fəaliyyəti ilə seçilən sənətkarlardfandır. Son dövrlərin sanballı əsərləri olan “Zəfər” simfonik poeması və “Şuşa” oratoriyası bəstəkarın növbəri uğurlarıdır.**



Bir neçə gün əvvəl İctimai TV ilə təqdim olunan “Zəfər” sinfonik poeması bir daha hər kəsə müzəffər Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun əzəli torpaqlarımız olan Şərqi Zəngəzur və Qarabağ bölgələrini işğaldan azad etdiyi qürur dolu günlərin xoş duyğularını yaşatdı.



**Faiq Sücəddinov bizimlə söhbətində son yaradıcılıq uğurlarından iftixarla danışdı:**

– “Zəfər” simfonik poemasını yazmağa böyük həvəslə və məsuliyyətlə girişdim. Bu əsər 4 hissəlidir, 22 dəqiqə davam edir. Çalışmışam ki, ürəkləri həyəcanla döyündürüm, damarlarda qan qaynasın. Buna nə dərəcədə nail olduğumu seyrçilər, musiqisevərlər deyə bilərlər. Daha sonra “Şuşa” oratoriyasını yazmışam. Bildiyiniz kimi, Şuşa mövzusu hər kəsi yüksək sənət əsəri yaratmağa sövq edən bir sevgi mənbəyidir. Mədəniyyət paytaxtımız olan Şuşaya həsr olunan hər bir sənət əsəri onun adına layiq olmalıdır. Bu oratoriya Şuşada səsləndirilib və alqışlarla qarşılanıb.

Son əsərim isə rekviyem, xordur. İnşallah, bir gün səslənəcək. Cabir Novruzun sözlərinə romans yazmışam. Təbii ki, indi istəyirəm kamera orkestri üçün bir əsər yazım. Gündəlik isə yaradıcılıq prosesini davam etdirirəm. Xor üçün sözsüz, səslə vokaliz əsər yazmışam, notlar oradadır. Beləcə davam edirəm yaradıcılığıma.

Bəstəkar son işlərinə aid partituraları da bizə göstərdi. Musiqiçi olmayanlar üçün anlaşılmaz işarələrdən (not yazılarından) ibarət bu məcmudakı çoxsəsli musiqi partiyalarının gözəl bir əsərin ifadəsi olduğunu sövq-təbii hiss etdik.

**Qeyd edək ki, sözügedən simfonik poemanın və oratoriyanın sözlərinin müəllifi, AYB-nin katibi, şair Səlim Babulllaoğludur. Onun bu barədə dedikləri:**

– Ünlü bəstəkarımızla birgə yaradıcılıq işimiz 2021-ci ildə olub. Özü mənə müraciət etdi. Xəstə idim, buna görə də bəzi fraqmentləri fortepianoda ifa edərək göndərdi. İdeyanı və süjetin ana xəttini izah etdi. Deməli, əsərin hissələri sülh, işğal və atəşkəs dövrünü, savaş və şəhidlik zirvəsi ilə bağlı dövrü, bir də Qələbə paradına aid duyğuları ehtiva edir. Təxminən, ayyarıma qədər birgə çalışdıq və “Zəfər” simfonik poeması inişil noyabrın 8-də – Qələbə paradı olan gün efirə verildi.

Əsərin ifası çox peşəkar səviyyədə təqdim olunmuşdur. Xalq artisti, tenor Samir Cəfərov və xor bu işin öhdəsindən bacarıqla gəlib. Xormeysterlər Sevil Hacıyeva və Zülfiyyə İbrahimovadır.

Onu da deyim ki, bir növ hazır musiqiyə söz yazmaq çətindir. Buna baxmayaraq, öhdəsindən gəlməyə çalışdım. Görünür, qaneedici alındı ki. Sonra Faiq Sücəddinovla “Şuşa” oratoriyası üzərində də birgə çalışdıq. Sevimli bəstəkarımız çox təcrübəli, dəqiq və məsuliyyətli bir insandır, onunla çalışmaq olduqca xoşdur.

Biz də görkəmli bəstəkarımıza can sağlığı və yeni sənət uğurları arzu edirik.

***Əli NƏCƏFXANLI, “Xalq qəzeti”***

*Təqvim yada salır*

**Allah ulu öndər Heydər Əliyevə rəhmət eləsin. Ümummilli liderin nəinki siyasi-diplomatik fəaliyyəti, Azərbaycanın sabahı naminə həyata keçirdiyi çoxsaylı layihələr, gördüyü işlər, hətta, onun adına həsr olunmuş tədbirlər də bizə yeni ideyalar verir, maraqlı mövzular ərsəyə gətirir.**

# “Foto Səhrab Umıyevindir”

## Söhbət 80 yaşlı “Qəbələ”qəzetinin 75 yaşlı fotomüxbirindən gedir

Bir müddət əvvəl Qəbələ Rayon İcra Hakimiyyətinin və YAP rayon təşkilatının birgə keçirdiyi “Heydər Əliyev və azərbaycançılıq təfəkkürü” adlı yubiley tədbirində Bakıdan dəvət edilmiş üç nümayəndədən biri kimi mən də iştirak edirdim. Rayona bu səfərim redaksiya rəhbərliyinin “Ölkədə yaşayan azsaylı xalqların həyatı, mədəniyyəti və ənənələri ilə bağlı” yazılar hazırlamaq tapşırığının yerinə yetirilməsini də təmin etdi, – “Yaşı yetmişdən çox olan bütün həmkarlarımıza hörmətlə yanaşmaq, onlar haqqında qəzet materialı hazırlamaq hər birimizin borcudur” – xatırlatmasına cavab olacaq bu sətirlər ərsəyə gəldi.

Azərbaycan Alban-udi dini icmasının sədri, Bakı Dövlət Universitetinin dosenti Robert Mobili ilə ictimai-siyasi məzmunlu müsahibəm ötən ay oxuculara təqdim edilmişdi. Bu gün isə hələ ötən əsrin yetmişinci illərinin əvvəllərində rayonda çıxan “Qalibiyyət” qəzeti üçün gənc “əmək qəhrəmanı” İttifaq Qaçayevin – bu sətirlərin müəllifinin fotosunu dəfələrlə çəkmiş Səhrab Umıyevdən söz açmaq istəyirəm. Onunla ulu öndərin rayon mərkəzindəki abidəsi önünə gül dəstələri qoyduğumuz mərasimdə görüşdük. Geridə qalan illər Səhrab müəllimin görünüşünü “redaktə” eləsə də, xasiyyəti, rəftarı 44–45 il əvvəlki gözəlliyini saxlayır. Elə özü haqqında məlumatları mənə göndərməkdən imtina etməsi də yetmişinci illərdəki xasiyyətinin günümüzədək dəyişmədiyini göstərirdi. Ancaq o, mənim xahişimi yerinə yetirməsə də, dəyərli



həmyerlimiz Zahir Kərimovdan bəzi materialları ala bildim.

Xatırladım ki, “Qalibiyyət” qəzeti mənim taleyimə heç zaman silinməyəcək qədər möhkəm şriftlərlə yazılıb. Qəzetin yetmişinci illərdəki redaktoru – rəhmətlik Ramazan İsmayılovun imzası və möhürü ilə mənə verilmiş arayışı hələ də saxlayıram. Orada yazılıb ki, beş il rayon qəzetinin ştatdankənar müxbiri olmuş İttifaq Qaçayevin gələcəkdə peşəkar jurnalist kimi yetişəcəyinə tam əminik. Zaman sübut etdi ki, Ramazan müəllim doğru proqnoz veribmiş.

Doqquzuncu sinifdə oxuduğum ildən Bakıya köçdüyüm günədək hər ayın son bazar günü bu redaksiyada toplaşdığımız “Bahar” ədəbi məclisini də heç zaman unuda bilmirəm. Məclisin rəhbəri, şair Tacəddin Şahdağlı, yerli şairlər Şərif Tahirli (professor Ədalət Tahirzadənin atası), Şakir Xəyal, istedadlı gənclər (təbii ki, həmin illər üçün) Bumdan Emin Ədilov, Qəmərvandan Həmzət Həmzəyev, Nohurqışlaqdan Abid Tahirli (indi professordur) , Nicdən Əhməd Əhmədov, Mirzəbəylidən Mirhəsən Ağayev və indi adını xatırlaya bilmədiyim başqa ədəbi yaradıcılıq həvəskarlarının hərəsinin öz yeri var idi.

Amma Səhrab Umıyevin yeri tamam başqa idi. O, həqiqətən, başqalarından seçilirdi. Allaha şükür ki, indi də seçilir. Məndən cəmi üç-dörd yaş böyük olmasına baxmayaraq, həmişə ona Səhrab müəllim deyirdim. Buna haqqım da var idi. Çünki o, qəzet redaksiyasında işlə-



yirdi, mən isə kolxozda mexanizator idim. Yadımdadır, bir dəfə o, rayon komsomol komitəsi fəallarının fotolarını çəkirdi. Mənim fotomu “DT-75” markalı şum traktorunun tırtılı üstündə çəkmişdi. Amma mən istəyirdim ki, həmin foto “Qalibiyyət” qəzetini oxuduğum məqamda çəkilsin. Səhrab müəllim daha yaxşı məqamı seçmişdi.

…Eyni bürcün altında dünyaya gəlmişik. Zahir müəllimin göndərdiyi materialda oxuyuram ki, Səhrab Sədi oğlu Umıyev 1949-cu il fevralın 19-da Vəndam kəndində doğulub. Telefonçu işləyib, Sumqayıtdakı 41 nömrəli texniki peşə məktəbində oxuyub, boru prokati zavodunda kəsici işləyib. 1970-ci ilin avqust ayından bugünədək isə “Qalibiyyət” (indiki “Qəbələ”) qəzetində foto -müxbir işləyir. 1977–1979-cu tədris illərində Azərbaycan Jurnalistlər İttifaqının nəzdindəki Jurnalist Sənətkarlığı İnstitutunu bitirib. Həmin ildən başlayaraq, ölkənin müxtəlif qəzet və jurnallarındakı çıxışlarına start verilib.

Eyni zamanda bildirilir ki, onun foto və fotoetüdləri “Sovet kəndi”, “Azərbaycan gəncləri”, “Bərəkət” qəzetlərində , “Azərbaycan qadını” , “Kənd həyatı”, “Mədəni maarif işi”, “Azərbaycan təbiəti”, “Kooperativ iscisi” , “Təşviqatci” , “Müxbir” və “Pioner” jurnallarında verilib. Rayonda olanda öyrənmişdim ki, “Qəbələdə regional siyasət bəhrələri və inkişaf istiqamətləri” adlı kitabda onun çəkdiyi fotolar da yer alıb. Mükafatlarına gəlincə isə Səhrab müəllim İbrahim bəy Musabəyovun anadan olmasının 100 illiyi, eləcə də, “Qalibiyyət” qəzetinin birinci nömrəsinin çapdan çıxmasının 50 illik yubileyi münasibətilə fəxri fərmanlarla təltif olunub.

***İttifaq MİRZƏBƏYLİ, “Xalq qəzeti”***

# “Paris üçbucağı” 3 nəfərin romanı

**Fəlsəfə üzrə fəlsəfə doktoru Adəm İsmayıl Bakuvinin “Paris üçbucağı” romanının təqdimat mərasimi keçirilib.**



Azərbaycan Milli İncəsənət Muzeyində baş tutan mərasimdə Milli Məclisin deputatları Ziyad Səmədzadə, Aydın Hüseynov, Etibar Əliyev, Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin İcraçı direktoru Aygün Əliyeva, Azərbaycandakı Dağ Yəhudiləri İcmasının rəhbəri Milix Yevdayev, hüquq müdafiəçisi Novella Cəfəroğlu, digər



ictimai xadim, alim və yazıçılar, eləcə də media və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tədbirin əvvəlində görkəmli tarzən Ramiz Quliyevin ifasında Azərbaycanın milli musiqilərindən parçalar səsləndirilib.

Sonra xalqımızın ümummilli lideri Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş videoçarx nümayiş etdirilib.

Tədbirin aparıcısı Əməkdar jurnalist Qulu Məhərrəmli Adəm İsmayıl Bakuvinin ötən il təqdimatı olan “Məhşər divanı: Yalanın 17 anı” sənədli romanı haqqında xatırlatma verib. Qeyd olunub ki, “Paris üçbucağı” adlanan roman müəllifin sayca ikinci geniş həcmli əsəridir.

Aparıcı bu əsərin də oxucular arasında böyük uğur qazanacağına əminliyini söyləyib.

Azərbaycan Yazıçılar Birliyinin katibi Səlim Babullaoğlu müəllifi yeni kitabının işıq üzü görməsi münasibətilə təbrik edib və ona yaradıcılığında yeni uğurlar arzulayıb.

Milli Məclisin deputatı Etibar Əliyev çıxışında söyləyib ki, kitab təqdimatlarının keçirilməsi, əsərlərin yazılması cəmiyyətdə bu istiqamətdə aparılan ən böyük təbliğatdır. O, müəllifin yeni kitabının gənclərin dünyagörüşünün formalaşmasında müsbət təsir göstərəcəyini qeyd edib.

Hüquq müdafiəçisi Novella Cəfəroğlu çıxışında kitabın əhəmiyyətindən danışaraq azərbaycanlıların digər xalqlarla düşmənlik etmədiyini deyib. O, romanın Fransa və İsraildə də təqdimatının keçirilməsini təklif edib.

Tədbirdə qeyd olunub ki, əsərdə Ermənistan–Azərbaycan münaqişəsi geosiyasi maraqlar kontekstində araşdırılsa da, roman azərbaycanlı Ülvi və fransız Suzannanın ülvi, saf məhəbbətlərini özündə daşıyan melodramdır.

Əsər klassik üslubdan bir qədər fərqli, özünəməxsus şəkildə qələmə alınıb. Belə ki, roman oxuculara üç nəfərin: baş qəhrəmanlar və müəllifin dilindən çatdırılır.

Tarixi faktlarla zəngin, eyni zamanda, oxunaqlı dildə yazılmış əsərdə müəllif özünün ilk – “Məhşər divanı: Yalanın 17 anı” sənədli romanı ilə böyük məharətlə sintez yaradaraq oxucuya çatdırmaq istədiklərini maraqlı üsulla təqdim edir. Müəllif azərbaycanlı olmasına baxmayaraq obyektivlik və balansı qorumaq naminə qarşı tərəfə də söz haqqı tanıyır.

“Azərkitab” Yayınlarında işıq üzü görmüş kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulub.

Qeyd edək ki, kitabın ilk saylarından biri Fransanın Azərbaycandakı səfiri xanım Ann Buayona təqdim olunub. Xanım səfir də hər kəsə “Paris üçbucağı” romanını oxumağı tövsiyə edib.

Xatırladaq ki, Adəm İsmayıl Bakuvi Bakı şəhərində anadan olub. Yüzlərlə analitik və publisistik məqalələr, 3 monoqrafiya, 20-yə yaxın elmi araşdırma müəllifidir. Onun ilk geniş həcmli “Məhşər divanı: Yalanın 17 anı” romanı ötən il çapdan çıxaraq oxuculara təqdim olunub.

***Leyla AZAD, “Xalq qəzeti”***

**Şamaxı Rayon İcra Hakimiyyətinin və Azərbaycan Yazıçılar Birliyinin birgə təşkilatçılığı ilə “Sabir poeziya günləri” çərçivəsində Azərbaycan satirik şeirinin ustadı Mirzə Ələkbər Sabirin anadan olmasının 161 illiyi ilə əlaqədar elmi-praktik konfrans keçirilib.**

# Şamaxıda “Sabir poeziya günləri”

Tədbirdən öncə Şamaxı Rayon İcra Hakimiyyətinin (RİH) başçısı Tahir Məmmədov, Azərbaycan Yazıçılar Birliyinin məsul şəxsləri, konfransa dəvət olunmuş mədəniyyət və incəsənət xadimləri, həmçinin rayon ictimaiyyətinin nümayəndələri M.Ə.Sabirin məzarını ziyarət edib, önünə tər çiçəklər düzüblər.

Azərbaycan Yazıçılar Birliyinin Şirvan bölgəsinin rəhbəri, yazıçı Orxan Fikrətoğlunun aparıcılığı ilə keçirilən konfransda dahi şairin həyat və yaradıcılığı ətrafında geniş məruzələr dinlənilib.

Tədbirdə çıxış edənlər Azərbaycan Yazıçılar Birliyinin katibləri İlqar Fəhmi, Elçin Hüseyinbəyli,



professor Rüstəm Kamal, professor Vaqif Yusifli, filologiya üzrə fəlsəfə doktoru Firudin Qurbansoy, Xalq artisti İlham Namik Kamal, Xalq artisti Nurəddin Mehdixanlı, Əməkdar artist, qiraətçi Ağalar Bayramov və başqaları görkəmli sənətkarın satiralarını müsəlman şərqində bir intibah, oyanış kimi qiymətləndirərək, Sabir poeziyasının ölməzliyini, bənzərsiz söz ustadının fikirlərinin hər zaman aktual olduğunu diqqətə çatdıraraq onun yaradıcılığının Azərbaycan ədəbiyyatında mühüm yer tutduğunu vurğuladılar.

Konfransda çıxış edən Şamaxı RİH-in başçısı Tahir Məmmədov Azərbaycan ədəbiyyatının əvəzolunmaz nümayəndəsi olan Mirzə Ələkbər Sabirin yaradıcılığına göstərilən dövlət qayğısından, ustad sənətkara olan xalq məhəbbətindən, sonsuz ehtiramdan söz açdı.

Tədbir çərçivəsində “Letterpress” nəşriyyat evi tərəfindən yeni tərtibatda 7 cilddən ibarət “Hophopnamə”nin təqdimatı keçirildi.

***İlqar HƏSƏNOV, “Xalq qəzeti”nin bölgə müxbiri***

# “Naxçıvan – bəşəriyyətin beşiyi” Beynəlxalq Rəsm Festivalı



**Sayca 6-cı olan beynəlxalq sərginin açılış mərasimində Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri Ülviyyə Həmzəyeva, Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının əməkdaşı Tural Rzayev, muxtar respublikanın mədəniyyət nazirinin müavini Həsən Kərimov, Azərbaycan Rəssamlar İttifaqının sədr müavini Ağəli İbrahimov çıxış ediblər.**

Qeyd olunub ki, ulu öndər Heydər Əliyevin əsasını qoyduğu dövlət mədəniyyət siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu sahədə daim əsaslı islahatlar aparılır, milli-mənəvi dəyərlərimizin yaşadılması diqqətdə saxlanılır.

“Naxçıvan – bəşəriyyətin beşiyi” VI Beynəlxalq Rəsm Festivalı ulu öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunduğu bildirilib. Festivalda Azərbaycan, Türkiyə, Qazaxıstan, Özbəkistan, Gürcüstan, Ukrayna, Bolqarıstan, Rusiya, Finlandiya və Latviyadan 60-dək rəssam iştirak edir. Bu festival mədəniyyətimiz üçün əlamətdar hadisə olmaqla yanaşı, rəssamlar üçün geniş yaradıcılıq imkanları açır.

Festivalın açılış mərasimində muxtar respublikanın mədəniyyət kollektivləri tərəfindən musiqi və rəqs nümunələri təqdim edilib. Sonra iştirakçılar rəsm əsərləri ilə tanış olublar.

***“Xalq qəzeti”***

Xatirələr işığında

# "...Hara baxırsan Əzimzadə"

**Bugünlərdə dünya şöhrətli həmvətənimiz, Sovet İttifaqı çempionatlarında, Beynəlxalq Futbol Federasiyasının (FİFA) və Avropa Futbol Təşkilatları İttifaqının (UEFA) bayrağı altında keçirilmiş oyunlarda dəqiq, obyektiv hakimliyi ilə etimadı layiqincə doğrultmuş beynəlxalq dərəcəli hakim Eldar Muxtar oğlu Əzimzadənin anadan olmasının ildönümü tamam oldu. Yaşasaydı, 89 yaşı tamam olacaqdı. Təəssüf ki, bu günə gəlib çata bilməmiş, respublikamızda ağır bir gündə, 2003-cü il yanvarın 20-də, ömrünün 69-cu ilində həyatının final işarəsi səslənmiş, futbol Əzimzadəsiz qalmışdır.**



İndi mərhum hakimimizə etibar olunmuş məsul görüşləri nəhəng stadionlarda on minlərlə tamaşaçı qarşısında necə məharətlə idarə etdiyini yada salanda məmnunluq hissi yaşayırsan. E.Əzimzadə respublikamızda, eləcə də, Moskva, Leninqrad, Kiyev, Minsk, Tbilisi, Daşkənd və SSRİ-nin daha neçə-neçə şəhəri ilə yanaşı, Tunis, Danimarka, Belçika, Almaniya, Yunanıstan, İtaliya, İspaniya, İsveçrə və bir sıra digər dövlətlərdə də gərgin oyunlardan sonra öz işini yaxşı bilən mahir hakim kimi mütəxəssislərin və azarkeşlərin rəğbətini qazanmışdı.

Unudulmaz həmyerlimizin hakimlik karyerasının zirvəsi isə 1980-ci ildə Moskvada keçirilmiş XXII Yay Olimpiya Oyunlarının futbol turnirinin həlledici final görüşü olmuşdur. "Lujniki stadionunda 85 min tamaşaçının izlədiyi və Çexoslovakiya komandasının ADR kollektivinə 1:0 hesabı ilə qalib gəldiyi oyundan sonra hər iki komandanın məşqçiləri belə bir ümumi fikir söyləmişdilər ki, meydançada ən yaxşı təsir bağışlayan görüşün hakimi idi.

Həmin axşam E.Əzimzadə çox təbriklər qəbul etmiş, FİFA-nın rəhbərlərindən, futbol icmalçılarından, müxtəlif ölkələrin təmsilçisi olan həmkarlarından ünvanına xoş sözlər eşitmişdi.

... Dəfələrlə SSRİ-nin ən yaxşı on hakimindən biri olmuş, üç dəfə isə siyahıda adı birinci çəkilmiş, 1979-cu ildən FİFA referisi kimi beynəlxalq oyunlara da təyinat almış E.Əzimzadə vəfatından 5 il əvvəl – 1998-ci ildə "Məhəbbətim mənim – futbol" kitabını nəşr etdirmişdir. Müəllif futbol ictimaiyyətimizə xoş xatirələr yaşadan kitabında Azərbaycan birinciliklərində, ölkə çempionatlarında, beynəlxalq meydanda idarə etdiyi oyunlar, habelə Azərbaycan Dövlət İdman Komitəsində futbol şöbəsinin müdiri, Bakı Bədən Tərbiyəsi Texnikumunda direktor müavini kimi gördüyü işlər, keçdiyi uğurlarla dolu yol haqqında ətraflı danışmışdır.

"Təbrik nidaları" başlıqlı qeydlərlə tamamlanan kitabda bir çox məşhur mütəxəssis E.Əzimzadəyə, onun hakimlik dəst-xəttinə rəğbətini səmimi-qəlbdən ifadə etmişdir.

İndi oxuduğunuz məqalə üçün başlığa çıxardığımız sözlər görkəmli mütəxəssis, bir çox il ərzində Moskvanın "Spartak" komandasının baş məşqçisi kimi Bakının da qonağı olmuş, eləcə də, ölkə yığma komandasını çalışdırmış Konstantin Beskova məxsusdur. O, 1981-ci ildə keçirilmiş "Spartak"–"Dinamo" (Kiyev) görüşündən əvvəl oyunun bakılı hakimə tapşırıldığını öyrəndikdə heyrətlə demişdi: "Yenə Əzimzadə... Orda Əzimzadə, burda Əzimzadə. Hara baxırsan Əzimzadə...".

Tunisdə yeniyetmələrdən ibarət komandalar arasında dünya birinciliyi (1977-ci il) ərəfəsində isə FİFA prezidenti Joao Avelanj E. Əzimzadəyə böyük ümid bəslədiyini bu sözlərlə ifadə etmişdi: "Cənab Əzimzadə, arzum budur ki, Nikolay Latışevə oxşayasınız".

Xatırladaq ki, moskvalı N.Latışev həmin illərdə ölkənin ən məşhur hakimi kimi yüksək nüfuz sahibi idi.

UEFA prezidenti doktor Artemio Franki də 1979-cu ildə oynanılmış Belçika–Şotlandiya matçından sonra həmyerlimizin hakimliyinə bigənə qalmamışdı: "Çətin oyunu dəqiq idarə etdiyinizə görə sizə təşəkkürümü bildirirəm".

Bir az əvvəl xatırlatdığım N.Latışev isə bir dəfə belə demişdi: "Eldar Əzimzadə həyatda çox sakit və təvazökar insandır. Meydançada isə bakılı hakimi tanımaq olmur".

Kiyevin "Dinamo" komandasının unudulmaz sol kənar hücumçusu, sonralar da bir çox il ərzində bu klubun baş məşqçisi kimi böyük uğurların sevinclini yaşamış Valeri Lobanovski 1980-ci ildə baş tutmuş "Dinamo"–"Spartak" (Moskva) görüşündən sonra oyunun bakılı hakiminə minnətdarlığını bu sözlərlə bildirmişdi: "Eldar, bu oyunda hakimliyinə görə çox sağ ol. Bir də ki, ölkənin 1 nömrəli hakimi seçilməyin münasibətilə səni təbrik edirəm. Mən sənə inanırdım".

"Eldar, dünya biriciliyinə yaxşı başlamısan, belə də davam elə". Bu fikri isə 1977-ci ildə Tunisdə yeniyetmələr arasında dünya birinciliyinin startında FİFA-nın vitse-prezidenti Valentin Qranatkin söyləmişdi.

Viktor Ponedelnik. Bu ad sovet futbolu tarixində ən məşhur mərkəz hücumçularından biri kimi yaşayır. O, Rostovun OİK komandasının şərəfini qorumuş, SSRİ yığmasında oynamış, hətta sonralar çox populyar "Futbol-Xokkey" həftəliyinin redaktoru da olmuşdu. Rostovluların 1979-cu il ölkə çempionatında Moskva spartakçıları ilə oyunu mürəkkəb hava şəraitində davam etmişdi. Görüş başa çatdıqdan dərhal sonra Ponedelnik Əzimzadəyə müraciətlə demişdi: "Eldar, səni təbrik edirəm. Çətin havada oyunu əla idarə etdin".

"Məhəbbətim mənim – futbol" kitabının "Təbrik nidaları" hissəsi həmin illərdə UEFA-nın hakimlər komitəsinin sədri olmuş Henrix Zaypertin "Torino" (İtaliya) – "Ştutqart" (AFR) görüşündən sonra söylədiyi fikirlə yekunlaşıb: "Cənab Əzimzadə, bu oyuna görə sizə minnətdarlığımı bildirirəm. Çox çətin görüş idi".

Bax belə, dünyaca məşhur Eldar Əzimzadə futbol tarixində dəqiq, obyektiv, cəsarətli hakimliyinə görə ünvanına yüzlərlə xoş fikir söylənilmiş unudulmaz bir şəxsiyyət kimi yaşayır.

*Oqtay BAYRAMOV,*
*Əməkdar jurnalist*

Zemfira Meftahətdinova – 60



# Azərbaycanın ilk qadın Olimpiya çempionu Beynəlxalq "Woman Sport" mükafatına layiq görülüb

**Olimpiya çempionu, Azərbaycan Atıcılıq Federasiyasının və Milli Olimpiya Komitəsinin (MOK) vitse-prezidenti Zemfira Meftahətdinovanın 60 illik yubileyinə həsr olunan mərasim keçirilib.**



MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə, baş katibi Azər Əliyev, gənclər və idman naziri Fərid Qayıbov, digər rəsmilər, Gənclər və İdman Nazirliyinin, həmçinin müxtəlif federasiyaların nümayəndələri və idmançıların iştirak etdikləri tədbirdə əvvəlcə yubilyarın yubilyarın idmançı karyerasını əks etdirən və təbriklərin yer aldığı videoçarxlar nümayiş olunub.

Tədbirdə çıxış edən Çingiz Hüseynzadə yubilyarın Beynəlxalq Olimpiya Komitəsi tərəfindən "Woman Sport" mükafatı ilə təltif olunduğunu bildirib. Ç.Hüseynzadə həmin mükafatı Zemfira Meftahətdinovaya təqdim edib.

Fərid Qayıbov çıxışında Zemfira Meftahətdinovanın Azərbaycanın ilk qadın Olimpiya çempionu olduğunu qeyd edərək deyib: "Zemfira xanımla son iki ildə daha yaxından tanış olmuşam. O, həm də çox yaxşı insandır, müstəqil Azərbaycanın ilk qadın Olimpiya çempionudur. İstərdim ki, onun qızı da Olimpiya çempionu olsun. Zemfira xanımın çalışdığı sahədə də nailiyyətlərinin davam edəcəyinə inanıram".

Tədbirdə Azərbaycan Cüdo Federasiyasının İcraiyyə Komitəsinin üzvü Asif Əsgərov, MOK-un Ədalətli Oyunlar Komissiyasının sədri Xəzər İsayev, Olimpiya çempionları Namiq Abdullayev, Fərid Mansurov, Elnur Məmmədli, veteran idmançılar və idman ictimaiyyətinin digər nümayəndələri çıxış edərək yubilyarı təbrik ediblər.

Sonda çıxış edən Zemfira Meftahətdinova tədbirin təşkilini özü üçün böyük hədiyyə adlandırıb. Göz yaşlarına hakim ola bilməyən idmançı qazandığı uğurlarda məşqçisinin əməyinin böyük olduğunu deyib.

Olimpiya çempionu sonda Prezident İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlığını bildirib. Qeyd edib ki, onların idmana qayğı və diqqəti bu sahədə böyük nailiyyətlərin qazanılmasında mühüm rol oynayır.

*L.QURBANOVA,*
*"Xalq qəzeti"*

TƏKRAR

## "Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti" PHŞ

### "Ağdam rayonunun Xıdırlı kənd yaşayış məntəqəsinin tikintisi məqsədilə I faza üzrə şaquli planlaşdırma və söküntü" işlərinin satın alınması üçün

## AÇIQ TENDER ELAN EDİR

Tender iştirakçılarına təklif olunur ki, öz tender təkliflərini möhürlənib imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları oxşar təcrübəyə, lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Yasamal rayonu, Zahid Xəlilov küçəsi 53 nömrəli ünvanda yerləşən "Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti"nin satınalma şöbəsindən əldə edə bilərlər.

Əlaqələndirici şəxs- bərpa və yenidənqurma departamenti müdirinin müavini İntizam Novruzov – i.novruzov@qbti.gov.az və baş məsləhətçi Zabil Vəliyev - z.valiyev@qbti.gov.az,

Telefon- + 99450 466 12 66.

İşlərin qısa təsviri:

Bina qalıqlarının sökülməsi və ərazinin dağıntılardan təmizlənməsi.

Ərazinin şaquli planlaşdırılması və yolların profilə uyğunlaşdırılması.

Tenderdə iştirak haqqı- 1500,00 (bir min beş yüz manat) manatdır.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Təşkilat - "Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti" Publik Hüquqi Şəxs
VÖEN - 3201635961
Bank - "ABB" nin Mərkəz filialı
Kod - 805722
VÖEN - 9900001881
H/h - AZ95İBAZ38030019443196817204
M/h - AZ03NABZ01350100000000002944
SWIFT İBAZAZ2X

İddiaçılar tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- tenderdə iştirak etmək üçün ərizə;
- iştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi;
- tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 65 bank günü ərzində qüvvədə olmalıdır);
- tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);
- tender iştirakçısının tam adı, nizamnaməsi (hüquqi şəxslər üçün), qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
- malgöndərənin (podratçının) işin icrası üçün müqavilə imzalayacağı subpodratçı barədə konkret subpodratçının adı göstərilməklə məlumatlar (əlavə №19);
- malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;
- (tender elanından sonrakı tarixdə alınmış sənəd təqdim edilməlidir);
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə arayış;
- (tender elanından sonrakı tarixdə alınmış arayış təqdim edilməlidir);
- iddiaçının satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması (şəxsin səlahiyyətli olması barədə əmr təqdim edilməlidir);
- öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması barədə arayış;
- (tender elanından sonrakı tarixdə alınmış arayış təqdim edilməlidir);
- müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə arayış;
- (tender elanından sonrakı tarixdə alınmış arayış təqdim edilməlidir);
- satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə arayış;
- (tender elanından sonrakı tarixdə alınmış arayış təqdim edilməlidir);
- müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması və onun əsasında həyata keçirilməsinə icazə verilən işlərin siyahısı;
- malgöndərənin (podratçının) son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq edilmiş maliyyə hesabatının surəti (əsli olmadığı halda notarial qaydada təsdiq edilmiş surəti təqdim edilməlidir);
- mühasibat balansları, mənfəət və zərər haqqında hesabat;
- kənar audit tərəfindən tərtib olunmuş son bir ildəki audit hesabatları;
- baş podratçı kimi son beş il (2018-ci il yanvarın 1-dən 2022-ci il dekabrın 31-dək ) ərzində ümumi məbləği 3 (üç) milyon manatdan az olmayan, müraciət edənin hissəsi isə ən azı 1.5 (bir milyon beş yüz min manat) milyon manat olan (müraciət edən müqaviləni birgə müəssisənin üzvü kimi icra etmişdirsə) və oxşar işi əhatə edən (oxşarlıq layihə və texniki spesifikasiyalarda təsvir edilən fiziki ölçüyə, mürəkkəbliyə, metodlara, texnoloqiyaya və digər xüsusiyyətlərə əsaslanmalıdır, həmçinin 250 000 kubmetr həcmində qazma, 350 000 ton həcmində daşınma işləri üzrə təcrübəyə malik olmalıdır) ən azı 2 (iki) sifarişi qənaətbəxş şəkildə icra etməsi haqqında məlumat və təsdiqedici sənədlər təqdim edilməlidir;
- Son beş il ( 2017-ci il yanvarın 1-dən 2021-ci il dekabrın 31-dək) ərzində tikinti- quraşdırma işləri üzrə ən azı 5 (beş) milyon manat dövriyyə tələb olunur, həmçinin TMV-nin 1.6-cı bəndində tələb olunan digər sənədlər.

Qeyd- tenderdə iştirak üçün iki və ya daha artıq tərəfdaş şirkətdən ibarət birgə müəssisə yaratdıqda, TMV-nin 1-ci və 2-ci bənlərində tələb olunan sənədlər hər bir şirkət üçün ayrılıqda təqdim edilməlidir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (1 əsli və 1 surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 27 iyun 2023-cü il saat 16.00-a, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 7 iyuyl 2023-cü il saat 16.00-a qədər Bakı şəhəri, Yasamal rayonu, Zahid Xəlilov küçəsi 53 nömrəli ünvanda yerləşən "Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti"nin satınalma şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Tender iştirakçılarının təklifləri Bakı şəhəri, Yasamal rayonu, Zahid Xəlilov küçəsi 53 nömrəli ünvanda yerləşən "Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti"nin inzibati binasında 10 iyul 2023-cü il saat 16.00-da açılacaqdır.

Tender iştirakçılarının səlahiyyətli nümayəndələri zərflərin açılışında iştirak edə bilərlər.

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

öz gəmiləri üçün naviqasiya avadanlıqlarının satın alınması məqsədilə

## AÇIQ MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 5 iyun 2023-cü il saat 17.00-dəkdir.

Əlaqə telefonu- (012) 404-37-00, daxili: 1016.

Ünvan- AZ1003, Bakı şəhəri, M.Useynov küçəsi 2.

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

öz gəmiləri üçün radio avadanlıqlarının satın alınması məqsədilə

## AÇIQ MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 5 iyun 2023-cü il saat 17.00-dəkdir.

Əlaqə telefonu- (012) 404-37-00, daxili:1016.

Ünvan- AZ1003, Bakı şəhəri, M.Useynov küçəsi 2.

SON SƏHİFƏ
# Xalq qəzeti
Xalqın qəzeti!
№ 114 (30230) 1 iyun 2023-cü il, cümə axşamı
veb-sayt: www.xalqqazeti.az

*İdman xəbərləri*

## Latviyada idman gimnastlarımızın uğuru



**Qadın idman gimnastikası üzrə Latviyanın Liepaya şəhərində keçirilən açıq beynəlxalq turnirdə gimnastlarımız uğurla çıxış ediblər. Milli komandamızın üzvü Albina Əliyeva dayaqlı tullanma və gimnastika tirində bütün rəqiblərini üstələyərək qızıl medal qazanıb.**

Komandamızın digər üzvü Xədicə Abbaszadə çoxnövçülük, dayaqlı tullanma və gimnastika tirində ikinci, sərbəst hərəkətlər, müxtəlif hündürlüklü qollar ilə hərəkətlərin icrasında üçüncü yeri tutub.

Leyla Məmmədzadə isə çoxnövçülük proqramında bürünc medala sahib olub.

## "Sabah" Basketbol Liqasının qalibidir



**Azərbaycan Basketbol Liqasının qalibi müəyyənləşib.**

"Sərhədçi" İdman Mərkəzində keçirilən final seriyasının sonuncu oyununda "Sabah" "Gəncə" üzərində 86:85 hesablı qələbə qazanıb. Final seriyasında 3:2 hesablı qələbə qazanan "Sabah" komandası Azərbaycan Basketbol Liqasında 2022–2023-cü il mövsümünün çempionu adını qazanıb.

Final seriyasının ən dəyərli oyunçusu (MVP) amerikalı Entoni Patti olub. Ən məhsuldar basketbolçular "Sabah"dan Entoni Patti (24 xal, 13 ribaund), "Gəncə"dən isə Kollin Törner (26 xal, 11 asist) seçiliblər.

## Uşaq futbol turniri



**Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş futbol turniri keçirilib.**

On iki yaşlılar arasında təşkil edilən yarışda Bakı və Şamaxını təmsil edən səkkiz komanda iştirak edib.

Final oyununda "Şamaxı"nın U-12 komandası paytaxtın "Kristal" yığmasını məğlub edərək birinci yeri tutub. Üçüncü yerin sahibi isə "Zəngəzur" komandası olub.

Turnirdən sonra isə Şamaxını təmsil edən veteran futbolçular ilə Bakıdan gələn veteranlar arasında yoldaşlıq oyunu keçirilib.

***Leyla SABİRQIZI, "Xalq qəzeti"***



## "Heç vaxt ruhdan düşməyin!"

**Bir dəfə Uinston Çörçili universitet məzunları qarşısında çıxış etmək üçün dəvət edirlər. Hamı onun parlaq çıxışını gözləyir. Çörçil ayağa durur: "Heç vaxt, heç vaxt, heç vaxt ruhdan düşməyin", – deyir və oturur.**

Uşaqlıqda danışığında qüsur olan və hətta kəkələyən gələcəyin böyük siyasətçisi dünya tarixinə mahir və mükəmməl natiq kimi düşüb. Qəribədir ki, məktəbdə oxumağa marağı olmayıb. Dərslərini pis oxumaqla yanaşı, həm də məktəb qayda-qanunlarına əməl etməyən ən intizamsız şagirdlərdən sayılıb.

U.Çörçil məşhur siyasətçi olmaqla yanaşı, memar, rəssam, hərbi jurnalist, tarixçi və yazıçı kimi də tanınıb.

***Ə.PÜNHAN, "Xalq qəzeti"***



## "Quest 3" – yeni VR cihazı

**Məlumata əsasən, Meta şirkəti hal-hazırda "Quest 3" adlı yeni VR cihaz üzərində çalışır. Bloomberg saytının məşhur insayderi Mark Gurman isə şirkətin yeni VR cihazı barəsində məlumatları təqdim edib. Gurmanın bildirdiyinə görə, orta performanslı texniki özəlliklərə sahib olacağına baxmayaraq, "Quest 3" Apple şirkətinin ilk qarışıq reallıq (AR + VR /Mixed Reality) cihazı ilə rəqabət apara biləcək. İnsayder bildirib ki, "Quest 2" ilə müqayisədə "Quest 3" daha nazik və yüngül olacaq.**

Yeni VR cihaz iki ədəd köməkçi kamera ilə təchiz olunacaq və onlar ətraf mühitin cihaz ekranlarında əks olunmasına istiqamətlənəcəklər. Gurman onu da qeyd edib ki, "Quest 3"də daha böyük ölçülü ekranlardan istifadə edilməsinə baxmayaraq, görüntü keyfiyyəti "Quest 2"nin sərgilədiyi səviyyədədir. Digər tərəfdən şirkət yeni VR cihazın texniki imkanlarını təkmilləşdirib və bunun sayəsində qarışıq reallıq rejimində video yayım keyfiyyəti yüksəlib. "Quest 2" kimi "Quest 3"ün də komplektinə 2 ədəd idarəetmə təchizatı daxil olacaq. "Quest 3"ün bu ilin oktyabr ayında təqdim ediləcəyi gözlənilir.

***Z.HÜSEYNOVA, "Xalq qəzeti"***

## "Google" qatlanan telefonu ləğv edir

**"Google" şirkəti bəzi problemlər səbəbindən qatlanan telefonların buraxılışını dayandırıb. Şirkət qatlanan cihazın "Google"ın keyfiyyət tələblərinə cavab vermədiyi üçün istehsalını dayandırmalı olduqlarını bildirib.**

Buna baxmayaraq, "Google"un qapaqlı formatda təqdim edilən yığcam qatlanan "Pixel Flip" cihazını daha da təkmilləşdirəcəyi deyilir.

Qeyd edək ki, "Google" may ayının ortalarında ilk qatlana bilən telefonu olan "Pixel Fold"u təqdim etmişdi. Əsas 7,6 düymlük OLED displeyli olan bu cihaz təxminən 1799 dollar dəyərində satışa çıxarılmışdı.

***"Xalq qəzeti"***



*Sosial şəbəkələrdən seçmələr*

## Güllərdən gözəl Güldəstə...

**Sosial şəbəkələrdə fəallığı ilə seçilən bir nəfər tanınmış qələm əhli bu gözəl fotonu özünün "Facebook" səhifəsində yerləşdirərək belə yazıb:**

"Könül bağçanızda gül bəsləyin ki, gözəl olasınız, gözəl görünəsiniz, gözəl görəsiniz, ən nəhayət, gözəl seviləsiniz, gözəl sevəsiniz..."

Məncə, güllərin gözəlliyinə yaraşıq qatan bu körpə qız (qəlbimdə adını "Güldəstə" qoydum) barədə də nəsə demək, yazmaq lazım idi. Bu barədə bir-iki kəlmə yazmaq istədim, gördüm ki, bu yerdə söz acizdir.

Düşündüm ki, ən yaxşısı, Allahın yaratdığı ilahi gözəlliyi seyr edərək ondan zövq almaqdır. Hörmətli oxucular, siz necə düşünürsünüz?



**Yadınıza onu da salmaq istəyirəm ki, bu gün 1 İyun Uşaqların Beynəlxalq Müdafiəsi Günüdür.**

***M.HACIXANLI, "Xalq qəzeti"***

## Yeni qara dəlik…

**NASA mütəxəssisləri "Hubble" teleskopu vasitəsilə yeni qara dəlik kəşf ediblər. Yeni tapıntı planetimizə yaxın məsafədə yerləşir. Unikallığı ilə seçilən qara dəlik Yer kürəsindən 6 min işıq ili uzaqlığında M4 adlı ulduz qruplaşmasında yerləşir və Günəşin kütləsindən sadəcə 8 yüz dəfə böyükdür.**



Qeyd edək ki, bu cür qara dəliklərə nadir hallarda rast gəlinir. Belə ki, bu vaxta qədər yalnız bir neçə belə kosmik obyekt kəşf edilib. Alimlərin fikrincə, orta ölçülü qara dəliklər böyük olmayan qalaktikaların mərkəzlərində yerləşərək öz ətraflarında yerləşən ulduzları "udmaqla" məşğul olur. Onları təyin etmək çox çətindir. Buna baxmayaraq, alimlər hələ 2014-cü ildə sübut ediblər ki, Yer kürəsindən 12 milyon işıq ili uzaqlığında belə bir kosmik obyekt var.

***Aytən NƏCƏFOVA, "Xalq qəzeti"***

## NASA Ayda tərəvəz yetişdirəcək



**NASA şirkətinin patentləşdirilmiş AIRMADE texnologiyası bu ay qida müsabiqəsinin ikinci mərhələsində elan olunan səkkiz qalibdən biri olub.**

Qaliblər arasında Florida laboratoriyasında həşərat sürfələri yetişdirmək üçün bioregenerativ sistem, bitki və göbələk əsaslı maddələr yaratmaq üçün Kaliforniyada hazırlanmış süni fotosintez prosesi və tək hüceyrəli zülallar istehsal etmək üçün Finlandiyadan qaz-fermentasiya texnologiyası da var.

NASA-dan verilən məlumata görə, şirkət orbitdə kahı, kələm və çili bibəri də daxil olmaqla bir neçə tərəvəz növü yetişdirəcək. Buna görə Ayda təcrübə də keçirilib.

Qeyd edək ki, yaxın günlərdə müsabiqənin final mərhələsi keçiriləcək və ayrılan 1,5 milyon dollara qədər pul mükafatı müsabiqənin yekun qalibləri arasında bölüşdürüləcək.

***Fidan HÜQUQQIZI, "Xalq qəzeti"***

*Sağlamlıq guşəsi*

## Banan ürəyin dostudur...

**Banan ürək sağlamlığının möhkəmləndirilməsi üçün faydalı meyvədir. Xüsusilə, o, böyük miqdarda ürək əzələsi üçün lazımlı mikroelement olan kaliumun zəngin mənbəyidir. Dietoloqların fikrincə, orqanizm kifayət qədər kalium aldıqda ürək stresin öhdəsindən daha yaxşı gələ bilir. Bundan əlavə, bananın tərkibində ürəyin "xoşladığı" B qrupu vitaminləri vardır. Banan insanı artıq mövcud olan xəstəliklərdən xilas etmir, amma profilaktika və ürəyin yaxşı fəaliyyəti üçün faydalıdır.**



Mütəxəssislər, eyni zamanda, bananda yüksək tərkibdə şəkərin olmasına diqqət çəkirlər. Bildirirlər ki, banan, diabet xəstələrinə zərərlidir, ilk növbədə, orqanizmi karbohidratların həzmi ilə problemi olmayan idmançılar və fiziki aktiv olan insanlara tövsiyə olunur.

Ekspertlər məsləhət görürlər ki, insan aktiv deyilsə, idmanla məşğul olmursa, bananı hər gün deyil, həftə ərzində digər meyvələrlə növbələmək lazımdır.

***Z.BƏŞİRQIZI, "Xalq qəzeti"***

**Proqnoz**

## Yağış yağacaq, şimşək çaxacaq



Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən iyunun 1-də Bakıda və Abşeron yarımadasında dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gecə bəzi yerlərdə qısamüddətli yağış yağacağı ehtimalı var. Mülayim şimal-qərb küləyi əsəcək. Gecə 16-21°, gündüz 23-28° isti olacaq. Atmosfer təzyiqi 757 mm civə sütunundan 761 mm civə sütununa yüksələcək, nisbi rütubət gecə 70-80, gündüz 50-60 faiz olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə fasilələrlə yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi dağlıq rayonlarda duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 15-20°, gündüz 27-32°, dağlarda gecə 6-11°, gündüz 13-18° isti olacaq.

***Q. QASIMOV, "Xalq qəzeti"***

## ALLAH RƏHMƏT ELƏSİN

Xudayət Həsənli ailəsi ilə birlikdə Mikayıl Nuriyevə və ailəsinə əzizləri

**DİLƏFRUZ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 5168
SİFARİŞ 1382
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Məsaim ABDULLAYEV

Çapa imzalanmışdır
00:00